URXAN ƏLƏKBƏROV

# İNKLÜZİV İNKİŞAFIN İDARƏ EDİLMƏSİNİN ƏSASLARI

*(Ali məktəblər üçün dərslik)*

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Elmi Şurasının qərarı*
*(protokol № 2, 24 oktyabr 2018-ci il)*
*əsasında çap olunur.*

**BAKI – 2018**

R e d a k t o r :
**Akif Əlizadə**
*akademik, geologiya-mineralogiya elmləri doktoru, professor*
R ə y ç i l ə r :
**Əlikram Abdullayev**
*fəlsəfə elmləri doktoru, professor*
**Kamran İmanov**
*texnika elmləri doktoru, professor*
**Qorxmaz İmanov**
*AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor*
**Elman Nəsirov**
*siyasi elmlər doktoru, professor*

**Ələkbərov Urxan**
**Ə45 İnklüziv inkişafın idarə edilməsinin əsasları.** Ali məktəblər üçün dərslik. Bakı, «Təhsil», 2018, 216 səh.

Dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahının yüksəldilməsini təmin edən inklüziv inkişaf müasir dövlət idarəçiliyinin başlıca prioritetlərindəndir. Dünya ölkələrinin inklüziv inkişaf göstəricilərinin 2018-ci ildə beynəlxalq təşkilatlar tərəfindən aparılan müqayisəli təhlilindən aydın olur ki, bu sahədə uğurlar, əsasən, dövlət idarəçiliyində innovativ texnologiyaların istifadəsi ilə bağlıdır. Ölkənin inklüziv inkişafı üçün mövcud iqtisadi potensialdan ən yüksək istifadə səmərəliliyini təmin edən Azərbaycan Respublikasının uğurlu örnəyi buna sübutdur. Bu tendensiyanın gələcəkdə də qorunması davamlı inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarə edilməsi sahəsində bilik və bacarıqların formalaşdırılması və daim təkmilləşdirilməsini tələb edir. Hazırkı dərslik bu hədəfə nail olunmasına xidmət edir və dünyada analoqu yoxdur. Dərslik dövlətin inkişaf proseslərinin idarə edilməsi sahəsində qərar qəbul edənlər, humanitar və texniki ixtisaslar üzrə təhsil alan tələbələr, həmçinin davamlı inklüziv inkişaf sahəsində ixtisasını artıran mütəxəssislər üçün nəzərdə tutulub.

Bu dərslik Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində dövlət qeydiyyatından keçirilmiş və **1047 nömrəli** Şəhadətnamə verilmişdir.

**Ə $\frac{0201000000}{053}$ 2018**

**© Urxan Ələkbərov, 2018**

**ISBN: 978-9952-518-09-2**

## Müəllifdən

Bu kitabın hazırlanması ideyasının necə yaranması barədə məlumatı oxucularla bölüşməyi özümə borc bilirəm. Belə bir tədris proqramı və dərsliyin yaradılması zərurəti 2018-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumu dünya ölkələrinin İnklüziv İnkişaf İndekslərini dərc edəndən sonra ortaya çıxdı. İnklüziv inkişaf dedikdə, dövlətin tərəqqisinin elə yolu başa düşülür ki, ölkənin hərtərəfli inkişafı həyata keçirilir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. Yuxarıda qeyd edilən sənədə əsasən, Azərbaycanın inklüziv inkişaf indeksi 4,69-a bərabərdir və ölkəmiz keçid iqtisadiyyatına malik ölkələr arasında dünyada üçüncü yeri tutur. Bu qrupa daxil olan ölkələr arasında Azərbaycan Avropa İttifaqının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan bir çox dövlətlərdən irəlidədir. Halbuki həmin ölkələrin iqtisadi imkanları Azərbaycanın imkanlarından xeyli üstündür. Adıçəkilən sənədin sonrakı tədqiqi göstərdi ki, Azərbaycanın inklüziv inkişaf göstəriciləri iqtisadi inkişafı çox yüksək səviyyədə olan bir sıra ölkələrin müvafiq göstəricilərindən də yuxarıdır. Azərbaycanda inklüziv inkişaf indeksləri iqtisadi cəhətdən daha çox inkişaf etmiş ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, həmçinin Türkiyə, Rusiya və başqa ölkələrin inklüziv inkişaf indekslərini geridə qoyur.

Daha az vəsait sərf etməklə daha yüksək nəticələr bir qayda olaraq səmərəli dövlət idarəçiliyi, bu prosesdə yeni prinsiplərdən və yeni texnologiyalardan istifadə sayəsində əldə olunub. Azərbaycan Respublikasında qazanılmış uğurlar əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi, dərindən düşünülmüş dövlət idarəçiliyi strategiyasının reallaşdırılmasının nəticəsidir. Bu strategiyanın reallaşdırılması Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən nəzərə alınan bütün göstəricilər üzrə əhəmiyyətli tərəqqiyə nail olmasına yol açıb. Son on beş il ərzində əhalinin gəlirləri, məşğulluq səviyyəsi və rifahı əhəmiyyətli dərəcədə yüksəlib, resursların istifadəsinin səmərəliliyi artıb, qlobal iqlim dəyişikliklərinin təsiri azalıb, ölkəmizin xarici borcunun məbləği optimal səviyyədə saxlanılıb, sağlamlıq göstəriciləri yaxşılaşıb, əhalinin optimal demoqrafik strukturu formalaşıb, yoxsulluq səviyyəsi və gəlirlərin əhali arasında bölgüsünün xarakteri yüksək beynəlxalq standartlara cavab verməyə başlayıb və s. Sosial sahədə nəzərəçarpacaq irəliləyiş əldə edilib. Bu sahənin inkişafında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rolu xüsusi qeyd olunmalıdır.

Beynəlxalq təşkilatlar tərəfindən ölkənin inkişaf səviyyəsi qiymətləndirilərkən və beynəlxalq müqayisələr aparılarkən yuxarıda sadalanan bütün göstəricilərdən istifadə olunur. Dünya ölkələrinin inklüziv inkişaf reytinqində məhz həmin göstəricilərdən istifadə olunmaqla Azərbaycanın yüksək mövqeyi müəyyən edilib.

Belə nailiyyətləri yalnız dövlətin inkişaf proseslərinin planlaşdırılması, idarə edilməsi və monitorinqində

innovativ texnologiyaların tətbiqi sayəsində əldə etmək mümkündür. İnklüziv inkişafın yüksək səviyyəsinin davamlı xarakter daşıması və tendensiyaların gələcəkdə də qorunub saxlanması üçün bu yeni sahədə biliklərin və əməli fəaliyyət təcrübəsinin formalaşması ən vacib şərtdir. Təqdim etdiyimiz dərslik məhz bu məqsədə xidmət edir.

«İnklüziv inkişafın idarə edilməsinin əsasları» dərsliyi dünyada analoqu olmayan orijinal dərslikdir. Müəllif bu dərsliyin ərsəyə gəlməsində yardımçı olmuş hər kəsə dərin təşəkkürünü bildirməyi özünə borc hesab edir. Siyasi elmlər doktoru Z.Həbibovanın və iqtisadiyyat üzrə fəlsəfə doktoru L.Sultanovanın söylədikləri dəyərli ideyalar, təqdim etdikləri materiallar olmasaydı, bu dərsliyin tərtibi mümkün olmazdı. Buna görə onlara xüsusi minnətdarlığımı bildirirəm.

*Akademik Urxan Ələkbərov*

# GİRİŞ

Bəşəriyyət mürəkkəb inkişaf yolunda daim öz həyatını yaxşılaşdırmağa, həyat keyfiyyətini yüksəltməyə çalışıb. Cəmiyyətin formalaşmasının və inkişafının müxtəlif mərhələlərində bu hədəfə nail olmaq üçün bəşəriyyət öz qarşısına müxtəlif məqsədlər qoyub. Bəşər cəmiyyətinin formalaşmasının erkən mərhələlərində insanların yeganə məqsədi sağ qalmaq idisə, sonrakı mərhələlərdə köləlikdən, feodal münasibətlərindən və istismardan azad əmək hüququ da daxil olmaqla başqa hədəflər formalaşdı. Siyasi və hüquqi təsisatların, bütövlükdə vətəndaş cəmiyyətinin inkişaf imkanları kimi amillər inkişafın mühüm hərəkətverici qüvvəsinə çevrildi. Səmərəli dövlət idarəçiliyi şəraitində elmin inkişafı və texnoloji tərəqqi insanların təhsil, peşəkar hazırlıq və mədəni səviyyəsinin əhəmiyyətli dərəcədə artmasını təmin etdi. Bütün bunların nəticəsidir ki, hazırda insanların orta ömür müddəti xeyli artıb, əhalinin çox hissəsinin həyat keyfiyyəti yüksəlib.

Lakin göstərilən irəliləmə heç də bütün sahələri və bütün insanları əhatə etməyib. Bu baxımdan dünya ictimaiyyəti inklüziv inkişaf konsepsiyasını ən müasir prioritet kimi önə çəkməklə məsələylə bağlı narahatlığını bildirib. «İnklüziv» sözünün mənası – «ehtiva edən», «əhatə edən» deməkdir, «inkişaf» sözü ilə birlikdə bu ifadə artıq konsepsiyanın mahiyyəti haqqında təsəvvür yaradır. Buna görə inklüziv inkişafı dövlətin inkişafının bütün tərəflərini əhatə edən və ölkənin bütün vətəndaşları tərəfindən müsbət nəticələri hiss edilən proses kimi

xarakterizə etmək olar. Ölkənin inklüziv inkişaf edən cəmiyyətə keçidə hazırlığının dərəcəsi bir sıra iqtisadi və sosial indikatorlara görə qiymətləndirilir. Bu prosesin davamlılığı, yəni inklüziv inkişafın uzunmüddətli perspektivə malik olması və gələcəkdə qorunub saxlanması imkanı da iqtisadi, ekoloji, sosial və demoqrafik indikatorlar qrupu əsasında hesablanır. Beynəlxalq təşkilatlar tərəfindən dünya ölkələri üçün hesablanan İnklüziv İnkişaf İndeksi davamlı inklüziv inkişaf indikatorlarının bu kompleksi əsasında hazırlanmışdır.

Davosda keçirilmiş Ümumdünya İqtisadi Forumunun 2018-ci ildə dərc edilmiş hesabatında dünya ölkələrində inklüziv inkişafın vəziyyəti ilə bağlı məlumatlar yer alıb. Bu hesabata müvafiq olaraq, Azərbaycan Respublikası davamlı inklüziv inkişaf sahəsində böyük nailiyyətlər qazanıb. Hesabatda əks olunmuş məlumatlara görə, Azərbaycan Respublikasının İnklüziv İnkişaf İndeksi göstəriciləri G7 (böyük yeddilik) qrupuna, Avropa İttifaqına, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) daxil olan bir sıra ölkələrin müvafiq göstəricilərindən üstündür. Halbuki həmin ölkələrin, demək olar ki, hər birində inklüziv inkişaf üçün iqtisadi baza Azərbaycandakı bazadan daha yüksəkdir. Bu ölkələrdə ÜDM-nin (ümumi daxili məhsulun) həcmi Azərbaycandakından xeyli artıqdır.

Maddi resursların nisbətən məhdudluğu şəraitində inklüziv inkişaf edərək yüksək nəticələr qazanmış ölkədəki vəziyyətin təhlili xüsusilə diqqət çəkir. Araşdırmalar göstərir ki, Azərbaycan Respublikası əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezi-

denti İlham Əliyevin yaradıcılıqla gerçəkləşdirdiyi inkişaf strategiyası sayəsində yüksək nəticələrə nail olub. Ölkənin müstəqilliyinin bərpasından 30 ildən az vaxt keçsə də, Prezident İlham Əliyev tərəfindən dövlət inkişafının idarə edilməsinin yeni prinsiplərinin işlənməsi və tətbiqi, eyni zamanda innovativ texnologiyalar kompleksindən geniş istifadə inkişafın idarə olunmasında texnologiyaların birincidərəcəli rol oynadığını bütün dünyaya nümayiş etdirdi.

Hazırkı dərslik yeni biliklər və inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində nailiyyətlər əsasında yazılıb. Məqsəd qlobal, milli və regional səviyyələrdə davamlı inklüziv inkişafın idarə edilməsi prosesləri üçün zəruri bilik və praktiki bacarıqlar formalaşdırmaqdır. Dərslik Azərbaycan Respublikasında formalaşmış və uğurla gerçəkləşdirilən yeni ideya və bilgilər əsasında hazırlanıb. Bu baxımdan təqdim edilən dərsliyin analoqu yoxdur. İstifadə edilən terminlərin çoxu yeni olduğundan dərsliyin sonunda terminlər lüğəti verilib. Əlavə ədəbiyyatla işi asanlaşdırmaq üçün lüğətdə, həmçinin bu terminlərin ingiliscə qarşılıqları təqdim edilib.

Dərslik tələbələr, eyni zamanda davamlı inkişafın idarə edilməsi, beynəlxalq münasibətlər, dövlət idarəçiliyinin hüquqi, iqtisadi və siyasi əsasları ixtisasları üzrə magistratura və doktoranturada təhsil alanlar üçün nəzərdə tutulub. Dərslik dövlət qulluqçularının fasiləsiz təhsil sistemi və onların ixtisasartırma kurslarında yenidən hazırlanmaları baxımından da zəruridir.

# 1. BƏŞƏRİYYƏTİN İNKİŞAFININ MÜXTƏLİF MƏRHƏLƏLƏRİNDƏ CƏMİYYƏTİN İDARƏ EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ İNKLÜZİV İNKİŞAFIN İMKANLARI

*İnsan cəmiyyətinin inkişafında müxtəlif mərhələlər. Sənayeləşməyə qədərki, sənayeləşmə və postsənaye dövrləri, onların inklüziv inkişaf potensialı. Müasir dövrdə inklüziv inkişafı məhdudlaşdıran amillər. İnklüziv inkişafla bağlı qlobal çağırışlar.*

*1.1. Bölmənin məqsədi*
*1.2. Açar söz və anlayışlar*
*1.3. Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində inklüziv inkişaf potensialı*
*1.4. İnsan cəmiyyətinin inkişafının əsas mərhələləri*
*1.5. Sənayeləşməyə qədərki cəmiyyətin inklüziv inkişaf potensialı*
*1.6. Sənayeləşmə cəmiyyətinin inklüziv inkişaf potensialı*
*1.7. Postsənaye cəmiyyətinin inklüziv inkişaf potensialı*
*1.8. Cəmiyyətin inkişafının hazırkı mərhələsində müşahidə edilən mənfi tendensiyalar*
*1.9. İnklüziv inkişafa qlobal çağırışlar*
*1.10. Özümüzü sınayaq: sual və tapşırıqlar*

### *1.1. Bölmənin məqsədi*

XXI əsrin ikinci onilliyində dövlət idarəçiliyi sahəsində yeni və müasir bir nəzəriyyə formalaşmışdır. Bu nəzəriyyə ***inklüziv inkişaf*** adı ilə məlumdur. İnklüziv inkişaf cəmiyyətdə müşahidə edilən iqtisadi, sosial və ekoloji problemlərin həllinə xüsusi yanaşmadır. O, dövlətlərin idarə edilməsinin elə yoludur ki, bu zaman ölkələr hərtərəfli inkişaf edirlər və bu prosesin müsbət nəticələrini hər bir vətəndaş öz həyatında hiss edir. Bu siyasətin həyata keçirilməsi üçün dövlət idarəçiliyi sahəsində müasir biliklərə malik olmaq vacib şərtdir. İnkişaf proseslərinin uğurlu idarə edilməsi üçün tarixən toplanmış təcrübə ilə yanaşı, davamlı inklüziv inkişafın idarə edilməsinə dair müasir biliklərə yiyələnmək də olduqca əhəmiyyətlidir. Bununla əlaqədar hazırkı bölmədə insan cəmiyyətinin fərqli inkişaf mərhələlərində inklüziv inkişaf üçün şərait olmasının təhlilinə geniş yer verilir. Təhlillər ibtidai cəmiyyətdə yaranan şəraitdən başlayıb, sənayeləşmə dövrü ilə davam etdirilir və hazırkı postsənaye dövrünün təhlili ilə yekunlaşır. Bölmədə, eyni zamanda inklüziv inkişaf sahəsində siyasətin həyata keçirilməsini, bu prosesin davamlı olmasını əngəlləyən çağırışlar da yer alır. Belə ki, bölmədə ***gələcəksiz inkişaf, qeyri-bərabər inkişaf*** və ***texnoloji geriləmə ilə inkişaf*** haqqında biliklər təqdim olunur. Digər çağırışlarla əlaqədar və onların qarşılanmasına dair təqdim olunmuş məlumatlar da inklüziv cəmiyyətin qurulması və onun davamlılığının təmin edilməsi üçün önəmlidir.

### *1.2 Açar söz və anlayışlar*

*İnklüziv inkişaf; Areal; Gələcəksiz inkişaf; Qeyri-bərabər inkişaf; Texnoloji geriləmə ilə inkişaf; Ümumdaxili məhsul (ÜDM).*

## *1.3. Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində inklüziv inkişaf potensialı*

Cəmiyyətin inkişafının bütün mərhələlərində insanlar öz həyatlarını yaxşılaşdırmağa çalışıblar. Bunun üçün daim müxtəlif yollarla mövcud imkanlardan istifadə ediblər. İbtidai cəmiyyətdən başlayaraq bəşəriyyətin inkişafının bütün mərhələlərində insan özünün və onu əhatə edənlərin həyat keyfiyyətinin yüksək olmasına həmişə cəhd göstərib. Bunun üçün iki üsuldan daha çox istifadə olunub. İlkin olaraq insanlar öz təsir dairələrini genişləndirməyə çalışıblar. Məsələn, cəmiyyətin inkişafının ilk mərhələlərində onlar fəaliyyət göstərdikləri əraziləri daha da genişləndiriblər. Bu öz təzahürünü ovçuluq, balıqçılıq, qida və dərman bitkilərinin toplanılması üçün istifadə edilən ərazilərin genişləndirilməsində tapıb. Eyni zamanda ibtidai əmək alətlərinin hazırlanması və sığınacaqların abadlaşdırılması zamanı həmin ərazilərdən daş və digər vasitələr də toplanılıb. Bu tendensiyalar insan cəmiyyətinin inkişafının hər mərhələsində müşahidə edilib. Xüsusi mülkiyyət hüququnun əmələ gəlməsi bu prosesləri sürətləndirdi. Feodal cəmiyyətində və insan cəmiyyətinin inkişaf prosesinin sonrakı mərhələlərində bu tendensiyalar daha da formalaşmışdır. Nəticə etibarilə istehlak, həyat səviyyəsi və həyat keyfiyyətində fərqlər daha da kəskinləşmişdir.

İnsanın özünün və onu əhatə edənlərin həyat səviyyəsinin yaxşılaşdırılması biliklərin artırılması və bacarıqların təkmilləşdirilməsindən keçir. Təcrübə göstərir ki, bu, həyat səviyyəsinin yüksəldilməsinin ən real yoludur. İnsanların öz bilik və bacarıqlarını artırması fərdi potensialın yüksəldilməsi ilə yanaşı, bütövlükdə cəmiyyətin inkişafını təmin edən vacib bir amildir.

Təbiidir ki, öz potensialını artırmaq, yeni bilik və bacarıqlara, yüksək peşəkarlığa yiyələnmək üçün müxtəlif

şəxslər fərqli yollar axtarır. Bəziləri öz məqsədlərinə nail olmaqda israrlıdırlar, bunun üçün kifayət qədər səy göstərir və hədəfə çatırlar. Digərləri isə kifayət qədər israrlı və çalışqan olmadıqlarından öz təhsil və peşə hazırlıqlarını maddi vəziyyətlərini və sosial statuslarını dəyişdirə biləcək səviyyəyə qaldıra bilmirlər. Lakin bu prosesə digər bir amil də təsir göstərə bilir. Məlumdur ki, insanlar fərqli təbii potensial və istedadlara malikdirlər. Bu amil də tələb olunan peşə səviyyəsinin təmin edilməsini məhdudlaşdıra bilər. Bu isə insanların gəlirlərində, istehlak və həyat səviyyəsində fərqlərin əmələ gəlməsinə yol açır.

Qeyd edildiyi kimi, inklüziv inkişafın bir məqsədi də cəmiyyətdə istehlakda müşahidə edilən kəskin fərqləri aradan qaldırmaqdır. İnklüziv inkişaf yoxsulluq və aclıq kimi məhrumiyyətlərin olmasını qəbul etmir. Lakin, bəllidir ki, hələ inklüziv inkişaf konsepsiyası yaranana qədər də inkişafın bütün mərhələlərində insanlara bu vəziyyətdən çıxmaq üçün yardım göstərilib. Bu yardımlar müxtəlif yollarla həyata keçirilib. Belə bir potensialın mövcudluğu haqqında məlumatlar inklüziv inkişafın planlaşdırılması baxımından olduqca önəmlidir. Eyni zamanda xüsusi indikatorlar vasitəsilə ölkə və ya bölgədə inklüziv inkişafın vəziyyətinin monitorinqini keçirmək də bu prosesin planlaşdırılması və idarə edilməsi üçün çox vacibdir.

## *1.4. İnsan cəmiyyətinin inkişafının əsas mərhələləri*

Müasir inklüziv inkişaf cəmiyyətinin formalaşması insan cəmiyyətinin inkişaf proseslərinə baxışların təkamülü və yeni idarəetmə texnologiyalarının yaranması ilə əlaqədardır. İnsan cəmiyyətinin inkişafında müşahidə edilən mərhələlərin təsnifatına bir neçə yanaşma məlumdur. Onlardan biri insan




***Şəkil 1.1.*** *Sənayeləşməyə qədərki, sənayeləşmə və postsənaye mərhələlərinin xüsusiyyətləri*

cəmiyyətinin inkişafını 3 əsas mərhələyə bölür: sənayeləşməyə qədərki, sənayeləşmə və postsənaye (şəkil 1.1.).

Göründüyü kimi, bu təsnifatın əsasında müxtəlif tarixi dövrlərdə iqtisadi münasibətlərin və insanların bu fəaliyyətdə iştirakının xüsusiyyətləri durur. Bu mərhələlərin hər biri müəyyən tarixi dövrü əhatə edib və heç də birmənalı olmayıb. Lakin hər bir mərhələnin öz xüsusiyyətləri məlumdur ki, onlar da öz dövrü üçün səciyyəvidir. Bu xüsusiyyətlər isə həm cəmiyyətdə mövcud olan texnoloji inkişafın səviyyəsindən, həm də cəmiyyətin sosial strukturundan asılı olub.

İnklüziv inkişaf termini yenidir və dövriyyəyə XXI əsrin ikinci onilliyində daxil edilmişdir. Bəlli olduğu kimi, inklüziv inkişaf dövlət idarəçiliyinin elə bir üsuludur ki, bu zaman ölkələr hərtərəfli inkişaf edir və inkişafın nəticələri



*İbtidai icma quruluşunda ovçular*

vətəndaşların rifahının yüksəlməsinə səbəb olur. İnklüziv inkişafı səciyyələndirən xüsusiyyətlər, bu prosesin qiymətləndirilməsində istifadə olunan indikatorlar da yenidir və XXI əsrin məhsuludur. Lakin müxtəlif tarixi məlumatların təhlili göstərir ki, tarixboyu inklüziv inkişafın elementləri dövlət idarəçiliyinin aktual məsələləri sırasında olmuşdur.

Şəkil 1.1.-dən göründüyü kimi, sənayeləşməyə qədərki dövr insan cəmiyyətinin formalaşmasının birinci mərhələsi idi. Tarixi baxımdan bu mərhələ insan cəmiyyətinin formalaşmasında ən uzun sürən mərhələdir. Hesab edilir ki, sözügedən mərhələ təxminən 1800-cü ilə qədər davam etmişdir. İnkişafın bu mərhələsi iki dövrə bölünür. İqtisadi münasibətlər baxımından birinci dövrdə ovçular və bitki toplayanlar cəmiyyəti formalaşmışdı. Bu dövrün ikinci mərhələsi aqrar cəmiyyət adlandırılır. Hər iki



*Qobustanda qayaüstü ov təsvirləri, e.ə.10-8-ci minilliklər. Azərbaycan Respublikası*

mərhələdə xüsusi demoqrafik vəziyyət müşahidə edilib. Planetimizdə əhalinin sayı yüksək deyildi. İstifadə edilən ov və əmək alətləri çox sadə idi. Bu səbəbdən onlardan istifadə nəticəsində ətraf mühitə böyük zərər dəymirdi. Bu onu göstərir ki, sayca az əhali sadə əmək alətlərindən istifadə edərkən ətraf mühit çirklənmirdi. Baş verən pozuntular isə təbii yolla bərpa olunurdu. Bu isə o deməkdir ki, bəşəriyyət inkişafının hazırkı mərhələsində də ekoloji baxımdan inklüziv inkişaf üçün heç bir maneə ola bilməz.

Bəşəriyyətin sənayeləşməyə qədərki mərhələsində inklüziv inkişafın digər əlamətləri də mövcud idi. Məsələn, ovçuların və bitki toplayanların sənaye alətləri fərdi olsa da, onların topladıqları bütün qənimətlər toplum üzvləri

arasında bərabər bölünürdü. Sənayeləşmə dövrü isə təxminən 1800-cü ildən başlamışdır və XX əsrin 60-ci illərinə qədər davam etmişdir. Sənayeləşmə və postsənaye dövrlərində də inklüziv cəmiyyətin müəyyən xüsusiyyətləri müşahidə edilməkdədir. Məsələn, eyni imkanlar cəmiyyətinin yaradılması barədə fikirlərin formalaşması, bunun üçün fəaliyyətin formalaşması məhz bu dövrlər üçün xarakterikdir. Bütün bunlar sübut edir ki, insan cəmiyyətinin inkişafının bütün mərhələlərində praktiki olaraq inklüziv inkişafın əlamətlərinin tətbiqi hər zaman dövlət siyasətinin bir hissəsi olmuşdur.

### *1.5. Sənayeləşməyə qədərki cəmiyyətin inklüziv inkişaf potensialı*

Məlum olduğu kimi, sənayeləşməyə qədərki dövr iki mərhələ ilə təmsil olunmuşdur. Birinci mərhələ, əsasən, ibtidai icma quruluşu kimi tanınır. Bu mərhələ, eyni zamanda ovçuluq və yığıcılıq mərhələsi kimi səciyyələndirilir. İnsanların, əsasən, ovçuluq, balıqçılıq və bitkilərin toplanılması ilə məşğul olduqları bu mərhələdə onların əsas məqsədi sağ qalmaq idi.

Bəşəriyyət inkişafının bu mərhələsində insanlar qrup şəklində yaşayır və fəaliyyətləri nəticəsində əldə etdikləri bütün nemətləri öz aralarında bərabər bölürdülər. Bu, istehlakda qeyri-bərabərliyin aradan qaldırılmasını nəzərdə tutan inklüziv inkişafın əsas xüsusiyyətlərindəndir. Ovçular və yığıcılar cəmiyyətində qeyri-bərabər istehlaka yer yox idi. Lakin bu cəmiyyətdə inklüziv inkişafın digər əlamətləri müşahidə edilmirdi. Məsələn, inklüziv inkişafın şərtlərindən biri insanların uzun və yaradıcı ömür sürməsidir. Bəşəriyyət inkişafının bu mərhələsində insanların



*Şadufla bağların sulanması*

orta ömür müddəti otuz yaş həddini nadir hallarda keçirdi. Fakt göstərir ki, bu cəmiyyətdə inklüziv inkişaf mümkün deyildi. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bu mərhələdə yaradılmış şərait inklüziv inkişaf tələblərinə uyğun deyildi.

Eyni vəziyyət bəşəriyyət tarixində aqrar mərhələ kimi tanınan dövrdə də müşahidə edilmişdir. Bu mərhələ ətraf mühitə təsirlərin güclənməsi ilə səciyyələnir. İnsanlar yeni ərazilərə yiyələnir, meşə sahələrindən aqrar məqsədlər üçün istifadə edir, yaşayış məskənləri, yollar, irriqasiya sistemləri qururdular. Yeni ixtisas və sənətlərin formalaşması kimi tarixə düşmüş bu dövrdə insanlar artıq hamının eyni hüquqa malik olduğu cəmiyyətin üzvləri deyildilər. Torpaq, ev heyvanları, əmək alətləri xüsusi mülkiyyətə keçmişdi.

Sahibkarlığın inkişafı nəticəsində başqaları ilə müqayisədə daha varlı, yaxud nisbətən daha nüfuzlu vətəndaşlar qrupu formalaşmışdı.

Cəmiyyətin inkişafının feodalizm mərhələsində şəxsi mülkiyyətin əhəmiyyəti daha da artdı və insanlar arasında maddi təminat səviyyələrinə görə fərqlər yarandı. Məlumdur ki, maddi təminatın artması inklüziv inkişafın formalaşmasının vacib şərtidir. Əhalinin müxtəlif təbəqələri arasında müşahidə edilən gəlirlər və istehlak səviyyələrinə görə yaranan fərqlərin aradan qaldırılmasının əsas yolu xeyriyyəçilikdir.

Bəşəriyyət inkişafının sənayeləşməyə qədərki mərhələsində bəzi dinlərin formalaşması prosesi də baş vermişdir. Bir sıra hallarda dini qaydalara əsaslanıb müxtəlif məhrumiyyətlərlə mübarizə aparmaq məcburi xarakter daşıyıb. Məsələn, islam dinində fitrə, zəkat, xüms kimi qaydalar nəzərdə tutulmuşdur ki, burada məqsəd yoxsulluğun aradan qaldırılması, gəlir və istehlakda kəskin fərqlərin azaldılması idi. Eyni və oxşar qaydalar digər dinlərdə də mövcuddur.

Ümumiyyətlə, qeyd edilməlidir ki, sənayeləşməyə qədərki mərhələdə iqtisadi inkişafın səviyyəsi, vətəndaşların gəlirlərində müşahidə edilən fərqlərin yüksək olması inklüziv inkişaf üçün əlverişli hesab edilə bilməz. Yüksək olmayan orta ömür müddəti, müxtəlif xəstəliklərin yayılması, bəzi hallarda ***pandemiya*** hallarının müşahidə edilməsi inklüziv inkişaf üçün əlverişli deyil.

## *1.6. Sənayeləşmə cəmiyyətinin inklüziv inkişaf potensialı*

İnsan cəmiyyəti inkişafının növbəti mərhələsi sənayeləşmədir. Bu mərhələ Qərbi Avropa ölkələrində XVIII əsrdə istehsalın təşkili ilə başlamışdır. İlk sənaye müəssisələri 1740-1780-ci illərdə İngiltərədə, sonralar isə Almaniyada və Qərbi Avropanın digər ölkələrində yaradılmışdır. Sənayeləşmə cəmiyyətində insanlar külək və suyun gücü ilə yanaşı, buxar və elektrikin gücündən də istifadə etməyi öyrəniblər. Sənayenin və maşın istehsalının sürətlə artması ətraf mühitə təsirləri də gücləndirmişdi. Müxtəlif növ təbii ehtiyatların geniş həcmdə və sürətlə istismarı həyata keçirilirdi. Ətraf mühitə texnogen təsirlərin və sənaye tullantıları ilə çirklənmə prosesinin gündən-günə artması davam edirdi. Eyni zamanda əhalinin müxtəlif təbəqələrinin gəlirlərində və istehlak səviyyəsindəki fərq sürətlə artırdı.



*XIX əsrin sənaye cəmiyyəti*

Müstəmləkəçilik prosesi sənayesi inkişaf etmiş ölkələrdə genişlənməkdə idi. Müstəmləkələrin təbii ehtiyatlarının və əhalisinin istismarı sənayesi inkişaf etmiş müstəmləkəçi ölkələrin iqtisadiyyatlarının sürətli artımı üçün şərait yaratmışdı. Sözügedən imkanlar, eyni zamanda müstəmləkəçi dövlətlərdə müxtəlif sosial və mədəni layihələrin həyata keçirilməsinə yol açmışdı. Bu isə, öz növbəsində, cəmiyyətdə maddi təminat göstəricilərinə görə beynəlxalq səviyyədə təbəqələşmənin yaranmasını şərtləndirmişdi.

Qeyd edilməlidir ki, sənayeləşmə cəmiyyətində insanların həyatında bir sıra müsbət dəyişikliklər də baş vermişdir. Milyonlarla insanın həyat tərzi yaxşılaşmış, elm və təhsil sürətlə inkişaf etmişdir. Lakin bununla yanaşı, cəmiyyətdə təbii ehtiyatların qeyri-səmərəli istifadəsi və ətraf mühitin çirklənməsi prosesi də davam etməkdəydi. Təbii ehtiyatların hasilatının artmasını və ətraf mühitin çirklənməsinin kəskinləşməsini iki əsas amil şərtləndirirdi. Onlardan biri dünyada əhalinin sayının sürətlə artması idi. Digər amil isə sənayeləşmə cəmiyyətində adambaşına istehlakın sürətlənməsiydi. Bir sıra hallarda hətta bu proses israfçılıq səviyyəsinə qalxırdı. Dünya statistikası göstərir ki, hər iki amil inklüziv inkişafa mənfi təsir göstərir.

Aydındır ki, sənayeləşmə cəmiyyətində bir sıra amillərin həlli inklüziv yolla inkişaf edən cəmiyyət üçün olduqca əhəmiyyətlidir. Həlli vacib olan çoxəhəmiyyətli problemlər sırasında iqlim dəyişmələri prosesinin qarşısının alınması xüsusi yer tutur. Məsələn, inklüziv inkişafı müəyyən edən göstəricilər arasında atmosferə atılan istixana qazlarının miqdarı da mövcuddur. Sənayeləşmə mərhələsində başlamış bu proses postsənaye dövründə də davam edir (şəkil 1.2.).

Qlobal iqlim dəyişmələrinə təsir edən ***istixana qazlarının*** atmosferə atılması xüsusi göstərici əsasında müəyyən edi-




***Şəkil 1.2.*** *Atmosferə il ərzində adambaşına tullanılan karbon qazı (tonla). Məlumat mənbəyi: Dünya Bankı, 2018*

lir. Şəkil 1.2.-dən göründüyü kimi, il ərzində planetimizin hər sakininə düşən atmosferə atılan istixana qazlarının miqdarı çox yüksəkdir və artmaqdadır. Sənayeləşmə dövründə başlayan bu proses postsənaye dövründə də davam edir.

### *1.7. Postsənaye cəmiyyətinin inklüziv inkişaf potensialı*

İnsan cəmiyyətinin inkişafında novbəti mərhələ postsənaye dövrü kimi qəbul olunmuşdur. Bu mərhələ, eyni zamanda cəmiyyətin ətraf mühitlə əlaqəsində yaranmış münasibətlərin yeni mərhələsi kimi də qəbul edilə bilər. Postsənaye cəmiyyətinin formalaşmasına geniş surətdə XX əsrin 60-cı illərindən sonra başlanılmışdır. Bu, ilk növbədə, bir çox ölkələr tərəfindən elmin inkişafına ayrılan vəsaitlərin artmasında öz əksini tapmışdır (şəkil 1.3.).




***Şəkil 1.3.*** *Elmi tədqiqatlara ən çox maddi vəsait yönəldən ölkələr (ÜDM-nin faizi). Məlumat mənbəyi: BMT, 2018*

Məlumdur ki, insan inkişafı göstəriciləri, yəni əhalinin təhsil, sağlamlıq səviyyəsi, maddi durumu ölkələrin inkişafının vacib şərtlərindəndir. Dünyanın 47 dövləti öz iqtisadi və sosial vəziyyətinə, insan inkişafının səviyyəsi və digər göstəricilərinə görə çox yüksək inkişafa nail olmuş ölkələr kimi səciyyələndirililər. Bu ölkələr postsənaye mərhələsinin liderləri hesab edilir. Onların nailiyyətlərinin əsasında isə bir sıra amillər, o cümlədən elmin inkişafına diqqət durur. Bu ölkələr orta hesabla ümumdaxili məhsulun 2,5 faizini elmin inkişafına yönəldirlər. Bu qrupa aid olan bəzi ölkələr isə elmə daha çox vəsait ayırır. Şəkil 1.3.-də elmə ÜDM-nin 3 faizindən daha çox vəsait ayıran ölkələr haqqında məlumat təqdim olunmuşdur. Bu ölkələr arasında İsrail xüsusilə qeyd edilməlidir. Bu ölkə ümumdaxili məhsulun 4,3 faizini elmin inkişafına yönəldir. Bu sahədə dünyada ikinci ölkə Finlandiyadır. Həmin ölkə elmin inki-

şafına ÜDM-nin 3,8 faizini yönəldir. İsveç, Koreya Respublikası, Yaponiya da elmin inkişafına böyük dəyər verir və ölkə gəlirlərinin 3 faizini elmə yönəldirlər. Bu siyasət qeyd olunan ölkələrin innovativ inkişafını təmin edir və inklüziv inkişaf üçün şərait yaradır.

Güclü elmi-texniki tərəqqi ilə səciyyələnən postsənaye mərhələsində də təbii ehtiyatların intensiv istismarı davam etdirilməkdədir. Lakin bu mərhələdə elmi-texniki tərəqqi yeni, təbii ehtiyatları qənaətlə sərf edən texnologiyaların işlənilməsi, alternativ enerjidən istifadənin genişlənməsi üçün şərait yaradır. Bu isə inklüziv inkişafın vacib şərtidir.

Postsənaye mərhələsində elmin bütün sahələrində yüksək nəticələr qazanılıb. Cəmiyyət inkişafının hazırkı mərhələsində kommunikasiya texnologiyalarının əhəmiyyəti xüsusi qeyd edilməlidir. Kommunikasiya imkanlarının genişlənməsi və yeni səviyyəyə qalxması innovativ idarəetmə və istehsal texnologiyaları sahəsində biliklərin artmasına və əhatə dairəsinin genişlənməsinə yol açmışdır. Postsənaye mərhələsində bir çox ölkələrdə insanların orta ömür müddəti uzanmış, həyat keyfiyyəti artmışdır. Sosial sahə əhəmiyyətli dərəcədə güclənmişdir. Bütün bunlar inklüziv yolla inkişaf edən ölkələr üçün olduqca əhəmiyyətlidir.

Bununla yanaşı, postsənaye dövründə inklüziv inkişafı, onun uzunmüddətli olmasını və davamlı xarakter daşımasını əngəlləyən bir sıra hadisələr də olub. Zamanın yaratdığı ən yeni elmi nailiyyətlərin məhsulları müharibə və hərbi münaqişələr zamanı geniş istifadə edilməkdədir. Silahların tətbiqi nəticəsində dünyanın müxtəlif regionlarında humanitar faciələr, bir çox sahələrdə fövqəladə vəziyyət qeydə alınmış və qaçqın ordusu yaranmışdır. Qeyd etmək lazımdır ki, postsənaye cəmiyyəti, eyni zamanda inklüziv inkişaf konsepsiyasının ərsəyə gəldiyi bir dövrdür. İqtisadi və texnoloji nailiyyətlərinə görə postsənaye cəmiyyəti inklüzv inkişafa daha yaxındır.

## *1.8. Cəmiyyətin inkişafının hazırkı mərhələsində müşahidə edilən mənfi tendensiyalar*

İnkişaf çox istiqamətdə həyata keçirilə bilər. Bir çox hallarda inkişaf pozitiv bir proses kimi qəbul edilir. İnkişaf etmiş şəxs, inkişaf etmiş ölkə dedikdə, həmin şəxsin və ya ölkənin müsbət xassələrin daşıyıcı olması nəzərdə tutulur. Lakin nəzərə alınmalıdır ki, inkişaf dinamik bir prosesdir və bir vəziyyətdən digərinə keçmə mənasını daşıyır. Bu keçid həm müsbət, həm də mənfi istiqamətə yönəldilə bilər. Məsələn, insan xəstələnə bilər və bu vəziyyətin inkişafı mümkündür. Şübhəsiz ki, bunu müsbət bir proses kimi qəbul etmək olmaz. Təbiətdə, məsələn, dağıdıcı tufan, sunami baş verə bilir və bu hadisələrin də inkişafı mümkündür. İqtisadi itkilərə yol açan tufan və ya sunaminin inkişafı müsbət hal kimi qəbul edilə bilməz. Dövlət səviyyəsində də siyasi və iqtisadi böhranlar inkişaf edə bilər ki, bu da ölkə və onun əhalisi üçün əlavə risk mənbəyidir. Bu səbəbdən inkişaf həm müsbət, həm də mənfi istiqamətə yönələ bilər.

Müsbət dəyişikliklərə və keyfiyyətcə yeni uğurlara səbəb olan inkişafın təmin edilməsi hər bir dövlətin məqsədidir. Lakin müsbət dəyişikliklərlə yanaşı, cəmiyyətin inkişafında mənfi istiqamətə yönəlmiş proseslər də mövcuddur. Bunlar inklüziv cəmiyyətin qurulması və bu prosesin davamlı olması üçün risk törədən amillərdir. Bunlara ***gələcəksiz inkişaf, qeyri-bərabər inkişaf*** və ***texnoloji geriləmə ilə inkişaf aiddir*** (şəkil 1.4.).

«***Gələcəksiz inkişaf***» termini XX əsrin sonunda BMT tərəfindən irəli sürülmüşdür. Bu termin təbii ehtiyatlardan qeyri-səmərəli və daim artan sürətlə istifadəni, ətraf mühitin pozulmasını və çirklənməsini nəzərdə tutur. Planetimizdə əhalinin sayı ilə yanaşı, adambaşına istehlak




***Şəkil 1.4.*** *İnklüziv inkişaf imkanlarını məhdudlaşdıran inkişaf tipləri*

da artmaqdadır. Bu, təbii ehtiyatlardan və enerjidən istifadənin artımını şərtləndirir. Hazırkı nəsil öz tələbatlarını ödəməyə çalışır və bu zaman gələcək nəsillərin maraqları nəzərə alınmır.

Gələcəksiz inkişafın qarşısının alınması üçün onun əsas xüsusiyyətləri barədə məlumatın olması olduqca vacibdir. Gələcəksiz inkişafın əsas əlamətləri: (1) ***ümumdaxili məhsulun (ÜDM)*** istehsalı üçün həddən çox xammal və enerjidən istifadə edilir; (2) ətraf mühit yüksək dərəcədə pozulur və çirklənir; (3) alternativ enerji mənbələrindən, digər bərpa olunan ehtiyatlardan, tullantıların təkrar emalından kifayət dərəcədə istifadə edilmir; (4) ehtiyatların idarə edilməsində innovativ texnologiyalar zəif tətbiq edilir.



*Qlobal iqlim dəyişmələrinə təsir*

Qeyd edilməlidir ki, 2015-ci ildə BMT və Dünya Sammitində qəbul edilmiş Davamlı İnkişaf Məqsədlərində dünyada müşahidə edilən bu mənfi tendensiyaların aradan qaldırılması nəzərdə tutulmuşdur. Lakin hazırda gələcəksiz inkişaf sahəsində müşahidə edilən problemlər inklüziv inkişafın imkanlarını məhdudlaşdıran amil kimi çıxış edir.

«***Qeyri-bərabər inkişaf***» termini də BMT tərəfindən XX əsrin sonunda təklif edilmişdir. Bu termin o hallarda tətbiq edilir ki, o zaman gəlir və istehlakın səviyyələri müxtəlif ölkələrdə kəskin surətdə fərqlənir. Məsələn, Dünya Bankının dərc etdiyi məlumata görə, 2018-ci ildə bəzi Avropa ölkələrində adambaşına gəlirlər Afrikada yerləşən bəzi ölkələrinkindən yüz dəfə çoxdur. Bu, beynəlxalq səviyyədə qeyri-bərabər inkişafın təzahürüdür. Qeyri-bərabər inkişaf bir ölkə çərçivəsində özünü göstərə bilir. Məsələn, Cənubi Amerikanın bir sıra ölkələrində




***Şəkil 1.5.*** *İnklüziv inkişaf imkanlarını məhdudlaşdıran gələcəksiz inkişafın amilləri*

20% ən zəngin əhalinin orta gəlirləri 20% ən yoxsul əhalinin orta gəlirlərini on dəfələrlə üstələyir. Bu, dünya ölkələrinin orta göstəricilərindən dəfələrlə çoxdur. Qeyri-bərabər inkişafın hər iki səviyyəsi inklüziv inkişaf üçün çox ciddi çağırışdır (şəkil 1.5.).

«***Texnoloji geriləmə ilə inkişaf***» termini 1996-ci ildə ilk dəfə Azərbaycan Respublikasında hazırlanmış İnsan İnkişafı Hesabatında istifadə edilmişdir. Bu terminin mənası odur ki, inkişafda olan ölkələr iqtisadi və sosial sahədə sürətli inkişafa nail olmaq üçün yeni, zaman üçün ən müasir istehsal sahəsinin yaradılması barədə qərar qəbul edir. Bu tip layihənin həyata keçirilməsi üçün adətən zaman tələb olunur. Bir qayda olaraq, həmin zaman istehsal müəssisəsinin planlaşdırılmasına, maliyyə mənbələrinin müəyyən edilməsinə, inşaata, avadanlığın alınması və quraşdırılmasına, işçi heyətinin hazırlanmasına sərf edilir. Göstərilən

zaman kəsiyində, bir qayda olaraq, inkişaf etmiş ölkələrdə eyni məqsədlərə xidmət edən daha müasir məhsul yaradılır. Nəticədə inkişafda olan ölkədə yaradılmış məhsulun rəqabət qabiliyyəti yüksək olmur. Ölkədə inkişaf baş verir, lakin bu proses texnoloji geriləmə ilə həyata keçirilmişdir. Belə halların qarşısının alınması üçün inkişafda və keçid iqtisadiyyatı vəziyyətində olan ölkələrdə inkişafın planlaşdırılması uzunmüddətli proqnozlar əsasında həyata keçirilməlidir. Texnoloji geriləmə ilə inkişaf inklüziv inkişafı məhdudlaşdıran ciddi amildir.

### *1.9. İnklüziv inkişafa qlobal çağırışlar*

Hazırkı dərsliyin bu bölməsində təqdim olunmuş məlumatlardan aydın olur ki, bəşəriyyətin tarixi inkişafı prosesində insanların həyatında bir çox müsbət dəyişikliklər baş vermişdir. Dünyada insanların orta ömür müddəti artmış, bir çox ölkələrdə iqtisadi və sosial göstəricilər yüksəlmiş, əhalinin təhsil səviyyəsi və peşə hazırlığı təkmilləşmişdir. Əldə edilmiş nəticələr inkişafın təntənəsi və yeni səviyyəyə keçid üçün zəmin yaratmışdır. Bununla əlaqədar, beynəlxalq ictimaiyyət növbəti məqsəd kimi ***inklüziv inkişaf*** konsepsiyasını irəli sürüb.

İnklüziv inkişaf məqsədlərinə çatmaq bir sıra iqtisadi, sosial və ekoloji problemlərin həllini tələb edir. Bu məqsədlərin bəziləri qlobal miqyaslıdır və inklüziv inkişafın vacib şərtidir. İnklüziv inkişafı əngəlləyən əsas qlobal çağırışlar haqqında məlumat şəkil 1.6.-da təqdim olunmuşdur.

Ölkələrin inklüziv inkişaf səviyyəsi bir neçə göstərici əsasında müəyyən edir. Şəkil 1.6.-da təqdim edilən inklüziv inkişaf indikatorları həm milli, həm də qlobal




***Şəkil 1.6.*** *İnklüziv inkişafı əngəlləyən qlobal iqtisadi, sosial və ekoloji çağırışlar*

miqyaslıdır. Əgər hər bir ölkə öz ərazisində yoxsulluq səviyyəsini azalda və ya gəlirlərin paylanmasında müşahidə edilən qeyri-bərabərliyi aradan qaldıra bilirsə, iqlimin qlobal dəyişməsi kimi planetar çağırışlar yalnız beynəlxalq səviyyədə razılaşdırılmış tədbirlər əsasında reallaşa bilər.

Əhalinin sayının sürətlə artması, iqtisadi və aqrar istehsalın genişlənməsi, nəqliyyatın intensivləşməsi nəticəsində son onilliklər ərzində dünyada atmosferə karbon qazının ($CO_2$) və digər istixana qazlarının atılması artmışdır. Bu isə, öz növbəsində, iqlimin dəyişməsinə, bununla əlaqədar isə planetimizdə temperaturun qalxmasına yol açır. Nəticədə bəzi bölgələrdə dağıdıcı fırtına, sunami, digərlərində isə quraqlıqlar müşahidə olunur (şəkil 1.7.).

Şəkil 1.7. göstərir ki, qlobal iqlim dəyişmələrinin törətdiyi bir çox hadisələr çox vaxt iqtisadi, sosial və siyasi fəsadlara yol açır. Aydındır ki, inklüziv inkişaf məqsədlərinə nail olmaq üçün iqlim dəyişmələri ilə mübarizə gücləndirilməlidir.

Postsənaye cəmiyyətində inklüziv inkişafı təmin etmək üçün müvafiq səviyyədə bilik və bacarığa malik kadr




***Şəkil 1.7.*** *Qlobal iqlim dəyişmələrinin bəzi fəsadları*

potensialının hazırlanması olduqca vacibdir. Bu sahədə siyasətin uğuru bir sıra göstəricilər əsasında müəyyən edilir. Bu göstəricilərdən biri ali məktəblərdə təbiət və texniki elmlər sahəsində tədris alan tələbələrin faizidir (şəkil 1.8.).

Riyaziyyat, təbiət elmləri, mühəndislik, kənd təsərrüfatı ixtisasları üzrə tələbələrin faizinin yüksək olması ölkədə real iqtisadiyyatın inkişafına yönəldilmiş siyasətdən xəbər verir. Real iqtisadiyyat inklüziv inkişafın əsası kimi çıxış edə bilir. Şəkil 1.8.-də riyaziyyat, fizika, kimya, biologiya və digər təbiət elmləri, həmçinin mühəndislik üzrə ixtisaslaşan ali təhsil müəssisələrinin məzunları barədə məlumatlar təqdim olunub. Şəkildə insan potensialının inkişafı indeksinə malik ölkələrin göstəriciləri verilib. Bu ölkələr qrupunda universitet məzunlarının minimum




**Şəkil 1.8.** *Təbiət elmləri və mühəndislik sahəsində təhsil alan tələbələrin faizi. Məlumat mənbəyi: BMT-nin hesabatı, 2018*

22%-i təbiət və texniki elmlər üzrə ixtisaslaşır. Lakin bu qrupa daxil olan ölkələrin bəzilərində göstərilən istiqamətlər üzrə məzunların payı daha çoxdur. Bu da həmin ölkələrdə innovativ inkişafa yönəlmiş siyasətin aparılmasını göstərir.

### *1.10. Özümüzü sınayaq: sual və tapşırıqlar*

1. İnklüziv inkişaf nədir? Onun başlıca xüsusiyyətlərini sadalayın.
2. Cəmiyyət inkişafının əsas mərhələlərini sadalayın və ayrı-ayrılıqda xarakterizə edin.

3. Cəmiyyət inkişafının sənayeləşməyə qədərki mərhələsini xarakterizə edin.
4. Cəmiyyət inkişafının sənayeləşmə mərhələsini xarakterizə edin.
5. Cəmiyyət inkişafının postsənaye mərhələsini xarakterizə edin.
6. Cəmiyyət inkişafının sənayeləşməyə qədərki, sənayeləşmə və postsənaye mərhələlərinin hansı xüsusiyyətlərinin inklüziv inkişaf tələblərinə cavab verdiyini təhlil edin.
7. İstixana qazları nədir və qlobal iqlim dəyişmələrinə necə təsir edir?
8. Gələcəksiz inkişaf nədir?
9. Qeyri-bərabər inkişaf nədir?
10. Texnoloji geriləmə ilə inkişaf nədir?

# 2. DAVAMLI İNKİŞAF QLOBAL RİSKLƏRİN İDARƏ EDİLMƏSİNDƏ ƏSAS FAKTOR KİMİ

*İnklüziv inkişaf prosesinin idarə edilməsində müasir tendensiyalar. Davamlı inkişafın aktuallığı və əsas xüsusiyyətləri. Davamlı inkişaf konsepsiyasının formalaşması və onun inklüziv inkişafda rolu; Məhrumiyyətdə bərabərlikdən rifahda bərabərliyə transformasiya.*

*2.1. Bölmənin məqsədi*
*2.2. Açar söz və anlayışlar*
*2.3. İnkişaf prosesinin idarə edilməsində müasir tendensiyalar*
*2.4. Davamlı inkişaf konsepsiyasının formalaşması və tətbiqi*
*2.5. Davamlı inkişaf naminə qlobal forumlar*
*2.6. Davamlı inkişaf məqsədləri*
*2.7. İnklüziv inkişaf: yoxsulluqda bərabərlikdən rifahda bərabərliyə*
*2.8. Özümüzü sınayaq: sual və tapşırıqlar*

## *2.1. Bölmənin məqsədi*

Dərsliyin birinci bölməsində göstərilmişdir ki, bəşəriyyət inkişafın hazırkı mərhələsinə çatana qədər bir sıra çağırışlarla üzləşmiş və bu çağırışlar bəzən insan cəmiyyətinin gələcək uğurlu inkişafını hətta sual altına almışdır. Bu bölmədə təqdim olunan məlumatlardan isə öyrənəcəyik ki, insanlar tərəqqi yolunda müxtəlif çağırışlara hər zaman hazır olmuşlar. Əgər inkişafın ilkin mərhələlərində insanlar üçün əsas problem mürəkkəb ətraf mühit şəraitində həyatlarını qorumaq idisə, sonrakı mərhələlərdə əsas məqsədləri ətraf mühiti çirklənmə və dağılmaqdan xilas etmək olub. Ətraf mühitin çirklənməsi və pozulması müxtəlif, o cümlədən qlobal səviyyədə özünü büruzə verir. Qlobal iqlim dəyişmələri bunun bir təzahürüdir. Bu proseslərin nəticəsi olan və hazırda güclənib daha da tez-tez təkrarlanan təbii anomaliyalar, onların iqtisadi, sosial və humanitar fəsadları insan cəmiyyətinin inkişafını əngəlləyən ciddi amillərdir. Göstərilən neqativ proseslərin qarşısının alınması, qaçılmaz qlobal fəsadların aradan qaldırılması isə yalnız müasir elmi-texniki nailiyyətlərin istifadəsi və innovativ dövlət idarəçilik texnologiyalarının tətbiqi şəraitində mümkündür. İnklüziv inkişaf edən cəmiyyətin qurulması üçün bu, vacib şərtdir. Bölmə vasitəsilə formalaşan biliklər onu nümayiş etdirir ki, yalnız ***davamlı inkişaf*** şəraitində inklüziv cəmiyyətin qurulması mümkündür. Bölmənin məqsədlərindən biri inklüziv inkişafın əsasını təşkil edən davamlı inkişafın inklüziv tərəqqi naminə idarə edilməsi sahəsində biliklərin formalaşdırılmasıdır. Bu biliklərin formalaşması, eyni zamanda dünya üçün prioritet kimi qəbul edilmiş davamlı inkişafın məqsədlərinə nail olunması baxımından da çox əhəmiyyətlidir. Hazırkı

bölmədə təqdim edilmiş bilgilər inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarə edilməsi üçün hazırlığın da vacib mərhələsidir.

### *2.2. Açar söz və anlayışlar*

*Pandemiya; Biomüxtəliflik (Bioloji müxtəliflik); ƏMSSTQ (Ətraf mühit və sosial sahəyə təsirlərin qiymətləndirilməsi; «Böyük yeddilik» (G 7); İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı); Biznesin sosial məsuliyyəti; Davamlı inkişaf məqsədləri.*

### *2.3. İnkişaf prosesinin idarə edilməsində müasir tendensiyalar*

«İnkişaf» termininin klassik mənası daim hərəkətdə olan və bir vəziyyətdən digərinə, keyfiyyətçə yeni, daha təkmil vəziyyətə keçməkdir. İnkişaf, eyni zamanda sadədən mürəkkəbə, köhnədən daha müasirə keçid kimi səciyyələndirilə bilər.

İnkişaf daim dəyişən bir proses olduğundan, dəyişikliklər müxtəlif istiqamətdə cərəyan edə bilər. Bu, eyni zamanda inkişaf prosesinin nəticələrinin cəmiyyətə fərqli təsir göstərə biləcəyi anlamına gəlir. Öncəki bölmədə təqdim olunmuş bilgilərdən aydın olur ki, inkişaf hər zaman müsbət bir proses kimi qəbul edilə bilməz. Bildirilmişdir ki, bəzi hadisə və proseslərin inkişafı hər hansı bir şəxs, yaxud cəmiyyət üçün risk mənbəyinə çevrilə bilər. Məsələn, göstərilmişdir ki, xəstəliyin, xüsusən ciddi xəstəliyin, inkişafı epidemiya və ***pandemiya*** törədib, insanların böyük bir qrupunun həyatını risk altında qoyar. Təbii proseslərin,

məsələn, fırtına, sunami, vulkan püskürməsi, daşqın və buna oxşar hadisələrin inkişafı da insanların ölümünə, dağıntıların əmələ gəlməsinə, iqtisadiyyatda itkilərə və digər neqativ nəticələrə yol açır. Planetimizin fərqli bölgələrində hazırda müşahidə edilən hadisələr göstərir ki, qlobal iqlim dəyişmələri inklüziv inkişaf üçün böyük riskdir və ümumiyyətlə, inkişaf termini özündə neqativ məna da daşıya bilər.

Məlum olduğu kimi, cəmiyyətin inkişafı da müxtəlif istiqamətlərdə cərəyan edir. Müsbət hadisələr iqtisadi, sosial, humanitar və ya siyasi tərəqqi kimi səciyyələndirilir. Elmi-texniki və mədəni tərəqqi də dövlət idarəçiliyinin uğurlu təzahürü və inkişaf sahəsində qazanılmış bir nailiyyətdir. Bir sıra hallarda kifayət dərəcədə səmərəli olmayan dövlət idarəçiliyi nəticəsində bir çox neqativ hadisələr baş verir ki, gələcəksiz inkişaf, qeyri-bərabər inkişaf və texnoloji geriləmə ilə inkişaf adlanan belə hadisələrin baş verdiyi hallarda inklüziv inkişaf şansı sıfıra enir.

İnkişafın istiqamətləri və bu prosesin səmərəliliyi bir sxem olaraq, konveyer şəklində təqdim edilə bilir. Konveyerin lentləri fərqli istiqamətlərdə hərəkət edirlər. İstiqamətlərdən biri yeni proqressiv hadisələrin əmələ gəlməsini şərtləndirir. Bu zaman iqtisadi, sosial, humanitar və ekoloji sahələrdə proqressiv dəyişikliklər baş verir. Bundan fərqli olaraq, inkişaf prosesi neqativ nəticələrlə də sonuclana bilər. Təbii ehtiyatların tükənməsi, ətraf mühitin çirklənməsi, demoqrafik balansın pozulması, biomüxtəlifliyin azalması bu mənfi fəsadlardandır. Bu, konveyer lentinin əks istiqamətə hərəkətində öz əksini tapır (şəkil 2.9.).

Bu səbəbdən iqtisadi və sosial inkişafa yönəldilmiş fəaliyyətin planlaşdırılması zamanı bu prosesin uzunmüd-




***Şəkil 2.9.*** *İnkişafın idarə edilməsində pozitiv və neqativ tendensiyalar*

dətli perspektivləri nəzərə alınmalı, neqativ fəsadların başvermə ehtimalı qiymətləndirilməlidir. Belə risklərə müxtəlif fəsadlar aid edilə bilər (şəkil 2.9.). Bu risklərin səmərəli idarə edilməsi davamlı inklüziv inkişafın vacib şərtidir.

## *2.4. Davamlı inkişaf konsepsiyasının formalaşması və tətbiqi*

Müasir iqtisadiyyat, nəqliyyat, rabitə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı insanların həyatını köklü şəkildə dəyişmişdir. Sənayeləşmə və post-sənaye dönəmlərinin elmi-texniki və texnoloji inqilabı, dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqi inkişaf prosesini yeni səviyyəyə qaldırmaq üçün şərait yaratdı. İnsanların ömrü uzandı, həyat keyfiyyəti yüksəldi, intellektual inkişaf, texnoloji tərəqqi və sosial inteqrasiya üçün yeni imkanlar yarandı.

Hazırkı mərhələdə bəşəriyyətin inkişafı çox yüksək səviyyədədir. Lakin tarixən belə ən böyük yüksəliş şəraitində cəmiyyət bir sıra sosial, ekoloji və iqtisadi problemlərin həllində çətinlik çəkib. Hətta qeyd edilməlidir ki, postsənaye dövrünün hazırkı mərhələsində bir sıra yeni çağırışlar formalaşıb ki, onlar da öz həllini tələb edir. Yeni şəraitin çağırışları həyatın bütün sahələrini əhatə edir. Bu çağırışlar, əsasən, iqtisadi, sosial və ekoloji problemlərlə daha çox əlaqədardır.

Bütün bu problemlər dünya ictimaiyyəti tərəfindən sistemləşdirilib və ən aktual problem kimi qəbul edilib. Beynəlxalq forumlarda ən çox müzakirə edilən məhz bu mövzulardır. Bu forumlar arasında ən nüfuzluları BMT-nin Baş Assambleyasının iclasları və dünya sammitləridir. BMT-nin Baş Assambleyası bu təşkilatın altı ali orqanından biridir. ***Dünya sammitləri*** isə qlobal forumların digər bir növüdür. Sammitlərdə dünya liderləri, dünyanın tanınmış siyasətçiləri, ***Beynəlxalq inkişaf institutları***, nüfuzlu qeyri-hökumət təşkilatları, müstəqil ekspertlər iştirak edirlər.

Qlobal problemlərin həllinə yönəldilmiş forumlar harmonik və ədalətli inkişafa yönəldilmiş tədbirlərin müzakirəsi, bu istiqamətdə ümumi, vahid bir strategiyanın formalaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Davamlı inkişaf konsepsiyası belə vahid, qlobal yanaşmanı tələb edən mövzulardandır.

## *2.5. Davamlı inkişaf naminə qlobal forumlar*

Davamlı inkişaf bir termin kimi ilk dəfə 1972-ci ildə Stokholmda keçirilən ətraf mühit və inkişafa həsr olunmuş Dünya Konfransında səslənmişdir. Konfransdakı çıxış və

müzakirələr zamanı qeyd edilmişdir ki, bəşəriyyətin inkişafının hazırkı mərhələsində iqtisadiyyat, sosial sahə və ətraf mühitdə toplanmış problemlər ciddi tədqiqatların aparılmasını və alınmış nəticələr əsasında xüsusi tədbirlərin həyata keçirilməsini tələb edir. Bu məqsədlə BMT tərəfindən ətraf mühit və inkişafa həsr olunmuş xüsusi qlobal komissiya yaradılmışdır. BMT bu komissiyaya sədrliyi Norveçin sabiq Baş naziri, xanım Q.X.Brudtlanda tapşırmışdır. Komissiyanın katibi kimi isə Sudan diplomatı cənab Mənsur Xəlid cəlb olunmuşdur. Komissiyanın tərkibinə 20 ölkədən 20 ekspert daxil edilmişdir. Komissiya elə formalaşmışdır ki, onun tərkibində hər qitənin ən azı bir nümayəndəsi olsun. Komissiyanın formalaşması zamanı nəzərə alınmışdır



*Birləşmiş Millətlər Təşkilatı*

ki, onun tərkibində müxtəlif istiqamətləri təmsil edən mütəxəssislər iştirak etsinlər.

Komissiya tərəfindən «Bizim ümumi gələcəyimiz» adlı xüsusi məruzə hazırlanmışdır. Bu məruzə 1987-ci ildə Nyu-York şəhərində keçirilən BMT-nin Baş Assambleyasının 42-ci sessiyasına müzakirə üçün təqdim edilmişdir. BMT-nin Baş Assambleyası davamlı inkişafı gələcəyin inkişafının konseptual əsası kimi qəbul etmişdir. Bu konsepsiyanın əsasını hazırkı və gələcək nəsillərin maraqlarının nəzərə alınması şərti ilə iqtisadi, sosial və ekoloji sahələrdə fəaliyyətin vahid siyasət çərçivəsində həyata keçirilməsi təşkil edir. Müasir təsnifata görə, davamlı inkişaf bütün vətəndaşlar üçün həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönələn bir nəzəriyyədir. Bunun üçün hazırkı və gələcək nəsillərin iqtisadi, sosial və ekoloji sahələrdə potensial problemlərinin həlli nəzərdə tutulur. Davamlı inkişaf eyni zamanda təbii ehtiyatların və insan resurslarının səmərəli idarə edilməsini təmin edən bir inkişaf yoludur. Davamlı inkişaf insanın fəaliyyət göstərdiyi bütün sahələri əhatə edir və üç prinsipə əsaslanır:

1. İqtisadi davamlılıq insan cəmiyyətinin fəaliyyətini təmin edən əsas amil kimi;

2. Sosial davamlılıq və onun təmini üçün insanların həyat keyfiyyətinin yüksəldilməsi. Bu zaman neqativ hallardan olan yoxsulluq, qeyri-bərabərlik, qeyri-stabillik, tənzim olunmayan miqrasiya və konfliktlərlə mübarizə, demoqrafik çağırışlara cavab və s. nəzərdə tutulur.

3. Ekoloji davamlılıq və onun təmini üçün ətraf mühitin qorunması və biomüxtəlifliyin mühafizəsi. Bu istiqamətdə hazırkı mərhələdə qlobal iqlim dəyişmələri ilə mübarizə xüsusi əhəmiyyət daşıyır.

Sxematik olaraq, davamlı inkişafı hər bir iştirakçı və tərəfdaşın maraqlarını nəzərə alan vahid idarəedilən

sistem şəklində təqdim etmək mümkündür. İştirakçı və tərəfdaş fünksiyalarını iqtisadi, sosial və ekoloji siyasəti formalaşdıran və həyata keçirən qurumlar yerinə yetirir (şəkil 2.10.).




***Şəkil 2.10.*** *Davamlı inkişafın əsas komponentləri*

Məlum olduğu kimi, davamlı inkişafın əsas xüsusiyyətlərindən biri odur ki, hər üç komponent – iqtisadiyyat, sosial və ekoloji sahələr eyni gücə malikdirlər və bunlardan heç biri daha üstün hesab edilə bilməz. İqtisadi baxımdan olduqca sərfəli layihə sosial baxımdan səmərəli, ekoloji baxımdan isə təhlükəsiz olmalıdır. Bu proses milli qanun və beynəlxalq konvensiyalarla tənzimlənir. Hər hansı bir sahədə iqtisadi layihənin tətbiqi üçün xüsusi ekoloji və sosial təhlükəsizliyə dair sənəd hazırlanmalıdır. Bu sənəd ***«Ətraf mühit və sosial sahəyə təsirlərin qiymətləndirilməsi»*** adlanır. Sənədin məqsədi yaradılması planlaşdırılan iqtisadi obyektin inşası və istismarının ətraf mühitə və sosial sahəyə necə təsir göstərdiyini təhlil etməkdir. Layihə yalnız o halda təsdiq edilə bilər ki, o, iqtisadiyyat

üçün sərfəlidir, sosial sahənin təkmilləşdirilməsini təmin edir və eyni zamanda heç bir ekoloji risk yaratmır. Bu tələblərə cavab vermək layihənin davamlı inkişaf məqsədlərinə xidmət etməsindən xəbər verir. Beynəlxalq və milli qanunların tələblərinə uyğun olaraq, yalnız bu halda bank, yaxud digər maliyyə təşkilatları iqtisadi layihənin həyata keçirilməsi üçün maddi vəsait ayıra bilərlər. Yalnız bu şərtlərin yerinə yetirilməsi şəraitində maliyyə vəsaitlərinin ayrılması ilə yanaşı, layihə üzrə işlərin başlanılması üçün digər hüquqi sənədlərin hazırlanmasına icazə verilir. Azərbaycan Respublikasında həyata keçirilən bütün iqtisadi, sosial və ekoloji layihələr davamlı inkişaf tələblərinə cavab verir. Bu isə inklüziv inkişafın vacib şərtidir.

Bir daha qeyd edilməlidir ki, inklüziv inkişaf yalnız davamlı inkişaf şəraitində mümkündür. Bu səbəbdən davamlı inkişafa həsr olunmuş bütün forumlar, eyni zamanda inklüziv inkişafa hazırlıq mərhələsi kimi də qəbul edilə bilər. Bu baxımdan davamlı inkişafa həsr olunmuş BMT-nin Baş Assambleyasının iclasları, dünya sammitləri, digər nüfuzlu beynəlxalq tədbirlər inklüziv yolla inkişaf edən cəmiyyətin formalaşması üçün olduqca əhəmiyyətlidir. Belə tədbirlər haqqında məlumatlar cədvəl 2.1.-də təqdim edilmişdir.

**Cədvəl 2.1.** *Davamlı inkişafa həsr olunmuş BMT konfransları və dünya sammitləri*

| İl və keçirildiyi yer | Forumun adı | İşin nəticəsi |
|---|---|---|
| 1972, Stokholm | BMT-nin ətraf mühit və inkişafa həsr olunmuş konfransı | Davamlı inkişafın prinsiplərinə cavab verən 26 bənddən ibarət deklarasiya |
| 1992, Rio-de-Janeyro | BMT-nin ətraf mühit və inkişafa həsr olunmuş konfransı | Ekoloji baxımdan vacib olan davranış və həyat tərzi prinsiplərini tövsiyə edən 27 bəndlik deklarasiya |
| 2002, Yohannesburq | Davamlı inkişafa həsr olunmuş Dünya Sammiti | Davamlı inkişafın əsas prinsiplərini bəyan edən deklarasiya |
| 2012, Rio-de-Janeyro | BMT-nin ətraf mühit və inkişafa həsr olunmuş konfransı: Rio+20 | «Bizim istədiyimiz gələcək» deklarasiyası |
| 2015, Nyu-York | BMT-nin Baş Assambleyasının 70-ci yubiley sessiyası: «Bizim dünyamızın dəyişməsi» | 2015-2030-cu illər üçün «Davamlı inkişaf məqsədləri» sənədinin qəbulu |
| 2018, Davos | Dünya İqtisadi Forumu | Ölkələrin inklüziv inkişaf indekslərinin təqdimatı |

Davamlı inkişaf konsepsiyasının formalaşması və inkişafı baxımından BMT-nin 1972-ci ildə Rio-de-Janeyro şəhərində keçirdiyi, ətraf mühit və inkişafa həsr olunmuş konfransın

xüsusi əhəmiyyəti olmuşdur. Bu konfrans daha çox davamlı inkişafın ekoloji xüsusiyyətlərinə həsr edilmişdir. Konfransda 170 ölkəni təmsil edən 8 min rəsmi şəxs, 3 min qeyri-hökumət təşkilatının nümayəndəsi iştirak etmişdir. Konfransda davamlı inkişafın müxtəlif sahələrinə aid və bu sahələrin optimal idarə edilməsinə dair 27 bənddən ibarət deklarasiya qəbul olunmuşdur. Həmin sənəddə cəmiyyətin gələcəkdə iqtisadi, sosial və ekoloji təhlükəsizliyinə dair xüsusi bəndlər qeyd edilmişdir. Konfransın bu qərarının bütün bəndləri davamlı inkişafa nail olmağa yönəldilmişdir.

Bu istiqamətdə cəmiyyətin irəliyə doğru hərəkəti hazırkı nəsillərin həyati tələblərinin təmin edilməsini və gələcək nəsillər üçün bu imkanların məhdudlaşdırılmamasını nəzərdə tutur. Konfransın deklarasiyasında beynəlxalq əməkdaşlığa dair xüsusi bəndlər də əksini tapmışdır. Bu əməkdaşlıq, əsasən, davamlı inkişaf naminə bilik, texnologiyaların, məlumatların ötürülməsini və mübadiləsini nəzərdə tutur. Bu tövsiyələrin xüsusi əhəmiyyəti həm də ondadır ki, onlar dövlət idarəçiliyinə dair bütün ölkələr üçün önəmli olan qlobal standartları müəyyənləşdirib ortaya qoyublar.

Rio-de-Janeyroda keçirilən konfransda «Gündəlik 21» adlı xüsusi proqram qəbul edilmişdir. Bu proqram davamlı inkişafa dair milli hökumət və beynəlxalq təşkilatlara tövsiyə xarakteri daşıyır və inkişafın iqtisadi, sosial və ekoloji baxımdan davamlı olması üçün bir sıra praktiki fəaliyyətləri nəzərdə tutur. Yoxsulluqla mübarizə «Gündəlik 21» proqramının vacib bir istiqamətidir. Proqrama görə, bu məhrumiyyəti aradan qaldırmaq və yoxsullara stabil həyat qurmaq imkanı yaratmaq üçün onların maliyyə, texnoloji və məlumat mənbələrinə yiyələnmələrindən ötrü xüsusi şərait yaradılmalıdır. Konfransın yekununda BMT-nin tərkibində xüsusi Davamlı İnkişaf Komissiyası yaradılıb.

Qeyd etmək lazımdır ki, davamlı inkişaf konsepsiyasının təkmilləşməsi üçün növbəti qlobal forum 2002-ci ildə Cənubi Afrikada, Yohannesburq şəhərində keçirilmiş Dünya Sammiti olmuşdur. Bu sammitdə yüzdən çox ölkənin rəhbərləri, səkkiz min ekspert, qeyri-hökumət təşkilatlarının nümayəndələri, fərdi sektorun təmsilçiləri iştirak ediblər. Yüksək səviyyədə keçmiş forumun əsas xüsusiyyətləri ondadır ki, bu toplantının yekununda deklarasiya ilə yanaşı, konkret iş planı da qəbul edilmişdir.

2012-ci ildə Rio-de-Janeyroda keçirilən BMT-nin «Ətraf mühit və inkişaf» konfransı da davamlı inkişaf baxımından olduqca əhəmiyyətli idi. Bu tədbir həmin şəhərdə 1992-ci ildə eyni mövzuda keçirilən BMT-nin konfransından sonra reallaşdığından, «Rio+20» adı ilə məlumdur. Konfrans «Biz istədiyimiz gələcək» adlı sənədin qəbulu və onun dünya ictimaiyyətinə təqdim olunması ilə tarixə düşmüşdür.

Dünyada davamlı inkişafa dair nəzəri biliklərin və praktiki təcrübənin yayılması baxımından hazırkı dövr üçün ən əhəmiyyətli forum 2015-ci ilin sentyabrında Nyu-Yorkda keçirilən BMT-nin Baş Assambleyası və eyni zamanda keçirilən Dünya Sammitidir. Hər iki toplantı dünyada davamlı inkişafın vəziyyətinin müzakirəsinə həsr edilmişdi. Dünyanın 193 ölkəsinin rəhbərlərinin iştirakı ilə keçən toplantılarda qeyri-hökumət təşkilatlarının, ictimai birliklərin, beynəlxalq inkişaf təşkilatlarının nümayəndələri də iştirak etmişdilər. Bu toplantıların nəticələrinə görə, 2015-2030-cu illərə hesablanmış «Davamlı inkişaf məqsədləri» adlı sənəd qəbul olunmuşdur.

Təqdim edilmiş məlumatdan aydın olur ki, inklüziv inkişafın əsasını təşkil edən davamlı inkişafın formalaşmasında BMT Assambleyalarının, dünya sammitlərinin rolu böyük olmuşdur. Onların bəziləri haqqında məlumatlar şəkil 2.11.-də təqdim edilmişdir.




*Şəkil 2.11.* *Davamlı inkişafa həsr olunmuş qlobal forumlar*

İnklüziv inkişaf baxımından 2018-ci ildə Davosda keçirilmiş Dünya İqtisadi Forumu çox əhəmiyyətlidir. Ölkə başçıları və dünyanın siyasi və iqtisadi liderlərinin iştirakı ilə keçirilən bu nüfuzlu forum dünyanın müxtəlif ölkələrində inklüziv inkişafın vəziyyəti haqqında hesabat yaymışdır. Hesabatla tanışlıq göstərir ki, Azərbaycan Respublikası inklüziv inkişaf cəmiyyətinin qurulmasında yüksək nəticələr əldə etmişdir. Hesabatda dünya ictimaiyyətinə təqdim edilmiş məlumatlardan aydın olur ki, Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf göstəriciləri iqtisadi inkişaf sahəsində yüksək nəticələr əldə etmiş ***böyük yeddilik (G 7)*** və ***İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT)*** üzvü olan bir sıra ölkələrdən üstündür. Bu məlumatlar və onların təhlili hazırkı dərsliyin xüsusi bölmələrində əksini tapıb.

Yüksək səviyyəli beynəlxalq forumlar davamlı inkişaf haqqında nəzəri biliklərin formalaşması və yayılması, bu sahədə toplanılmış müsbət təcrübələrin yayılması baxımından xeyli əhəmiyyətli olub. O da nəzərə alınmalıdır ki, bu forumların çoxu dünya ölkələri liderlərinin iştirakı ilə keçirilib. Bu səbəbdən göstərilən səviyyədə qəbul olunmuş qərarlar, tövsiyələr bir çox hallarda dövlət siyasətinin bir hissəsinə çevrilir.

BMT-nin Assambleyalarında, Dünya Sammitlərində siyasi xadim və ekspertlərlə yanaşı, iş adamları da iştirak edirlər. Bir çox hallarda onlar bu toplantılarda beynəlxalq korporasiya və kompaniyaları təmsil edirlər. Beynəlxalq forumlarda onların iştirakı ilə qəbul olunmuş qərarlar inklüziv inkişafın vacib elementi olan ***yaşıl iqtisadiyyat*** və ***sosial məsuliyyətli biznesin*** formalaşmasına və inkişafına xidmət edir.

Qeyd edilməlidir ki, bu forumlarda dövlət rəsmiləri və ekspertlərlə yanaşı, qeyri-hökumət təşkilatlarının nümayən-




***Şəkil 2.12.*** *Qlobal forumlar iştirakçılarının davamlı inklüziv inkişaf prinsiplərinin həyata keçirilməsində rolu*

dələri və media mənsubları da iştirak edirlər. Onların bu tədbirlərdə iştirakı olduqca vacibdir. İlk növbədə bu qrupların iştirakı nəticəsində əhalinin davamlı inklüziv inkişaf haqqında məlumatlandırılması və ümumi bilikləri artır. Qeyri-hökumət təşkilatları və media mənsublarının tədbirlərdə iştirakı əhali arasında bu problemlərin aktuallığını dəyərləndirmək, müvafiq davranış və həyat tərzinin formalaşması baxımından olduqca əhəmiyyətlidir.

## *2.6. Davamlı inkişaf məqsədləri*

Bəlli olduğu kimi, 2015-ci ilin sentyabr ayında BMT-nin 70-ci Yubiley Assambleyasında davamlı inkişaf sahəsində dünyada yaranmış vəziyyət müzakirə edilmişdir. Sessiyada aparılan müzakirələrin nəticələrinə görə, 2015-2030-cu illər üçün «Davamlı inkişaf məqsədləri» adlı sənəd qəbul olunmuşdur. Sənəddə bəşəriyyətin qarşısında duran 17 aktual məqsədin və 149 hədəfin həlli nəzərdə tutulmuşdur. Sonrakı dövrdə hədəflərin sayı artmış və bu gün də artmaqdadır. Davamlı inkişafın qlobal prioritet kimi qəbul olunmasıyla 2030-cu ilədək həlli planlaşdırılan 17 məqsəd müxtəlif iqtisadi, sosial, ekoloji və humanitar problemin reallaşmasını nəzərdə tutur. Dünya ölkələrinin inkişaf səviyyələri fərqli olduğundan davamlı inkişaf sahəsində onların qarşısında duran məqsədlər də fərqli ola bilir. İnklüziv inkişafın əsasını təşkil edən davamlı inkişaf sahəsində nəzərdə tutulmuş məqsədlər məna və əhəmiyyətinə görə qruplaşdırıla bilər (şəkil 2.13.).

Şəkil 2.13.-də davamlı inkişaf məqsədlərinin əsas qrupları haqqında məlumat təqdim olunub. Şəkildən göründüyü kimi, bu məqsələr müxtəlif səviyyəli hədəflərin yerinə yetirilməsini nəzərdə tutur. Onların bəziləri aclıq və yoxsulluq kimi məhrumiyyətlərlə mübarizəyə, digərləri isə qeyri-bərabərliyin, o cümlədən gender qeyri-bərabərliyinin ara-




***Şəkil 2.13.*** *Davamlı inkişaf məqsədlərinin əsas qrupları*



*Aclıq və səfalət*

dan qaldırılmasına yönəldilmişdir. Bəzi ölkələrdə bu məsələlər əsasən həll olunduğundan, onlar növbəti prioritet məqsəd kimi keyfiyyətli təhsilə və səmərəli səhiyyəyə daha çox önəm verirlər.

Bü gün dünyada BMT-nin üzvü olan 193 müstəqil ölkə var. Aydındır ki, bu dövlətlərin yaranma tarixi, coğrafi baxımdan yerləşməsi, əhalisinin demoqrafik strukturu, təbii ehtiyatlarla zənginliyi fərqlidir. Bu ölkələrdəki əhalinin təhsil səviyyəsi və peşə hazırlığı, müvafiq olaraq, ***insan inkişafı indeksləri*** də eyni deyil. Bu səbəbdən davamlı inkişafa nail olmaq üçün onların qarşıda duran məqsədləri də fərqli olacaq.

Lakin ölkələrin inkişaf səviyyəsindən asılı olmayaraq, iki qrup məqsədlər mövcuddur ki, onlar dünyanın bütün ölkələri üçün eyni dərəcədə əhəmiyyətlidir. Onlardan bir qrupu ekoloji problemlərə və iqlim dəyişmələri ilə mübarizəyə aiddir. Davamlı inkişaf məqsədlərinin bütün ölkələr üçün əhəmiyyətli olan ikinci qrupu bilik və bacarıqların, yeni texnologiyaların ötürülməsinə aiddir. Hər iki istiqamətdə səmərəli fəaliyyət inklüziv inkişaf üçün vacib şərt olan davamlı inkişafın məqsədlərinə nail olmaq baxımından çox əhəmiyyətlidir.

### *2.7. İnklüziv inkişaf: yoxsulluqda bərabərlikdən rifahda bərabərliyə*

Bəşəriyyət tarixi inkişaf prosesində bir çox mərhələdən keçmişdir. İnkişafın müxtəlif mərhələlərində insanı əhatə edən təbii, iqtisadi və sosial mühit ona yaşamaq üçün müxtəlif imkanlar yaradırdı. Sənayeləşməyə qədərki dövrün ilk mərhələsi olan ibtidai cəmiyyətdə insana yaşamaq üçün çox az, demək olar ki, minimum şərait yaradılmışdı. Bu mərhələdə insanı əhatə edən təbiət zəngin və ekoloji baxımdan təmiz idi. Həmçinin insanların sayı çox, əhalinin sıxlığı




***Şəkil 2.14.*** *İnsan cəmiyyətinin inkişafının müxtəlif mərhələlərində fərqli məqsədlər*

yüksək deyildi. Belə şərait insanların tez və maneəsiz yeni, təbii ehtiyatlarla daha zəngin yerlərə köçməsinə yol açırdı. Bəşəriyyətin inkişafının ilkin mərhələlərində insanların əsas problemləri həyatlarını müxtəlif mənfi təsirlərdən qorumaqdı. Bu cəmiyyətdə istehlakda qeyri-bərabərlikdən söhbət gedə bilməzdi. Cəmiyyətin bütün üzvləri bərabər hüquqlara malik olduqlarından onların istehlakı da bərabər idi. Cəmiyyətin bütün üzvlərinin istehlakı bərabər olduğundan, müəyyən mənada, belə vəziyyət şərti olaraq məhrumiyyətdə inklüziv inkişaf kimi dəyərləndirilə bilər.

Sənayeləşməyə qədərki dövrün aqrar mərhələsi insanların qarşısında fərqli məqsədlər qoyurdu. Sxematik olaraq, insanlar bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində müxtəlif məqsədlərə nail olmaq istəyirdilər (şəkil 2.14.).

Əgər ibtidai cəmiyyətdə insanların əsas problemləri yaşamaq ilə əlaqədar idisə, sonrakı mərhələlərdə azad əmək, sərbəst fəaliyyət insanların çoxu üçün əsas problem idi. Bu, xüsusilə quldarlıq və feodal cəmiyyətində daha açıq şəkildə büruzə verirdi. Tarixdən məlumdur ki, quldarlıq şəraitində dünyanın müxtəlif yerlərində azadlıq qazanmaq, sərbəst çalışmaq üçün qullar üsyan ediblər. Feodal

cəmiyyəti şəraitində də belə münaqişə və inqilablar tez-tez müşahidə edilib.

Qeyd etmək lazımdır ki, quldarlıq hətta sənayeləşmə dövrü bərqərar olandan sonra da tam mənada tarixə qovuşmamışdı. Bu, Britaniyanın Amerika qitəsində yerləşən müstəmləkələrində, sonralar isə ABŞ-da müşahidə edilirdi. Həmin ərazilərə ilk qullar 1619-cu ildə gətirilmişdilər. Onların sayı kifayət qədər çox idi. Məsələn, bəzi tarixi məlumatlara görə, ABŞ-ın bir sıra regionlarında qullar ümumi əhalinin 30 faizini təşkil edirdi. 19 iyun 1862-ci ildə ABŞ ərazisində qullara azadlıq verilmişdi. Bu fakta əsaslanıb qeyd etmək olar ki, planetimizdə azad əmək üçün mübarizə XIX əsrin ikinci yarısına qədər davam edib.

İnsan cəmiyyətinin inkişafının sənayeləşmə dövrü insan hüquqlarının təmin edilməsi ilə əlaqədar yeni vəzifələr formalaşdırmışdı. Bu, ilk növbədə, layiqli əmək və onun adekvat qarşılanmasına aid hüquqlar idi. Praktiki olaraq, bu faktlar onu göstərir ki, sənayeləşmə dövrünün əsas problemləri qeyri-bərabər inkişafın qarşısını almaq, o cümlədən gender qeyri-bərabərliyini aradan qaldırmaqla bağlı idi. Bu, bir çox xırdalıqlara, o cümlədən əməkhaqqına, əməyin dəyərləndirilməsinə aiddir. Əməyin layiqli dəyərləndirilməsi, bu göstəriciyə görə kəskin fərqlərin aradan qaldırılması inklüziv inkişafın vacib şərtidir.

İnsanların əməkhaqlarında müşahidə edilən fərqlər bir sıra hallarda təhsil səviyyəsinin yüksək olmaması və peşə hazırlığının tələb olunan səviyyəyə çatmaması ilə əlaqədardır. Bu səbəbdən insanların öz təhsillərini artırmaları və peşə hazırlıqlarını yüksəltmələri postsənaye dövrünün vacib xüsusiyyətlərindəndir. Deyilən istiqamətdə motivasiya yüksək olduğundan bir çox hallarda postsənaye cəmiyyətində ömürboyu təhsil geniş yayılmışdır. Ümumiyyətlə, sənayeləşmə və postsənaye dövrlərində təhsilin və peşə




***Şəkil 2.15.*** *İƏİT ölkələrində müvafiq yaşda olan gənclərin ali məktəblərdə təhsil alanları, %. Məlumat mənbəyi: BMT-nin hesabatı*

səviyyəsinin artırılması gəlir və istehlak səviyyələrində müşahidə olunan fərqlərin aradan qaldırılması üçün istifadə edilən üsullardan biridir. Müasir cəmiyyətdə informasiya texnologiyalarının mövcudluğu və inkişafı bilik və bacarıqların artırılması üçün böyük imkanlar yaratmışdır.

Məlumdur ki, beynəlxalq statistikaya görə, bir sıra inkişaf etmiş ölkələrdə müvafiq yaşlı gənclərin böyük bir hissəsi ali məktəblərdə təhsil alır. Şəkil 2.15.-də müxtəlif ölkələrdə ali məktəb tələbələrinin faizi təqdim edilmişdir.

Şəkildə təqdim edilmiş məlumatlar göstərir ki, bir sıra iqtisadi baxımdan inkişaf etmiş ölkədə 80 faizə yaxın müvafiq yaşda olan gənc ali təhsil alır. Bu istiqamətdə ən yüksək göstərici Koreya Respublikasında qeydə alınıb.

Qeyd edilməlidir ki, ali təhsil alan tələbələrin faizinin yüksək olması və ümumiyyətlə, ali təhsilin olması uğurlu

karyeranı təmin etmir. Məsələn, şəkil 2.15.-dən göründüyü kimi, İspaniyada müvafiq yaşda olan gənclərin təxminən 90 faizə yaxını ali təhsil alır. Bununla yanaşı, bu ölkədə gənclər arasında işsizlik səviyyəsi Avropada ən yüksək göstəricidir. Bu ölkədə gənclərin, o cümlədən ali savadı olan gənclərin, 49,4 faizi işsizdir. İşsizliyin səbəbi çox yəqin ki, ali təhsil alarkan ixtisasın düz seçilməməsi, ***əmək bazarının*** tələblərinə uyğun olmaması ilə əlaqədardır. Bu onu göstərir ki, ixtisas seçimi inkişaf prosesinin planlaşdırılmasının vacib elementidir. İxtisas seçimi zamanı gələcəkdə əmək bazarının perspektiv tələblərinin nəzərə alınması, ömürboyu təhsilin davam etdirilməsi məşğulluğun layiqli səviyyədə təmin edilməsi üçün vacib şərtdir. Bu, eyni zamanda şəxsi karyeranın qurulması baxımından da önəmlidir. Yüksək səviyyədə məşğulluq inklüziv inkişaf üçün əhəmiyyətli amildir.




***Şəkil 2.16.*** *İnklüziv inkişaf anlayışının transformasiyası: yoxsulluqda bərabərlikdən rifahda bərabərliyə doğru*

Göstərildiyi kimi, postsənaye dövrünün hazırkı mərhələsində insan cəmiyyətinin inkişafına dair yeni məqsəd formalaşmışdır. Bu məqsəd ***inklüziv inkişafdır.*** İnklüziv inkişaf haqqında anlayışların təkamülü şəkil 2.16.-da təqdim edilmişdir.

Şəkildə insan cəmiyyətinin tarixi inkişaf prosesində inklüziv cəmiyyətin anlayış və mahiyyətinin dəyişməsi haqqında məlumat təqdim olunmuşdur. Sənayeləşməyə qədərki dövrün ilk mərhələlərində cəmiyyətin inklüziv olması insanların sağ qalmasını və minimal tələblərin qarşılanmasını təmin edirdi. Bəşəriyyətin inkişafının sonrakı mərhələlərində gəlirlər və istehlakın səviyyələrinə görə fərqlər əmələ gəlmişdi və daim artmaqda idi. İnsan cəmiyyətinin inkişafının sənayeləşmə və postsənaye mərhələlərində gəlir və istehlakda müşahidə edilən fərqlər ən yüksək səviyyəyə çatmışdı. Yaranmış vəziyyətdə inklüziv cəmiyyətə keçmək zərurəti əmələ gəlmişdi. Bu səbəbdən tarixi proses «yoxsulluqda bərabərlikdən rifahda bərabərliyə» kimi səciyyələndirilə bilər.

Şübhəsiz ki, inklüziv inkişaf heç də bütün insanların maddi vəziyyətinin tam eyni olmasını nəzərdə tutmur. İnklüziv inkişafın formalaşması cəmiyyətin idarə edilməsinin elə üsuludur ki, o, hər bir vətəndaş üçün layiqli ömür sürmək imkanı yaradır.

Qeyd edilməlidir ki, inklüziv inkişaf yalnız o halda mümkün ola bilir ki, bu prosesin əsasında uğurla həyata keçirilən davamlı inkişaf dursun. Yalnız uzunmüddətli və uğurlu inkişaf əsasında inklüziv inkişafın planlaşdırılması və həyata keçirilməsi mümkündür. Azərbaycan Respublikası innovativ idarəetmə texnologiyalarının tətbiqi nəticəsində innovativ inkişafın bir çox göstəricilərinə görə dünya liderləri sırasına daxil olmuşdur. Dünya Bankı, BMT, digər beynəlxalq inkişaf təşkilatlarının hesabatlarında davamlı inklüziv inkişaf sahəsində Azərbaycanın qazandığı nailiyyətlər barədə bilgilər hazırkı dərsliyin növbəti bölmələrində

təqdim olunmuşdur. Bu bilgilər, eyni zamanda Azərbaycan Respublikasında ilk dəfə işlənilmiş və davamlı inklüziv inkişafın təmini üçün istifadə olunmuş yeni idarəetmə texnologiyalarını əhatə edir.

İnklüziv cəmiyyətin qurulmasını təmin etmək üçün bu prosesin planlaşdırılması və idarə edilməsi sahəsində mükəmməl biliklərin olması vacib şərtdir. Bunun üçün, ilk növbədə, inklüziv inkişafın davamlı olması, gələcək nəsillər üçün də qorunub saxlanılmasını şərtləndirən amillər haqqında məlumatlar olduqca əhəmiyyətlidir. İnklüziv inkişafı səciyyələndirən göstəricilər haqqında bilgilər dərsliyin növbəti bölməsində təqdim olunmuşdur.

### *2.8. Özümüzü sınayaq: sual və tapşırıqlar*

1. Cəmiyyətin inkişafında pozitiv və neqativ tendensiyalar hansılardır?
2. Davamlı inkişaf nədir və onun başlıca elementləri hansılardır?
3. Davamlı inkişaf termini ilk dəfə nə zaman və nə üçün yaranıb?
4. Davamlı inkişaf prinsiplərinin formalaşması üçün hansı qlobal forumlar keçirilib?
5. Davamlı inkişaf məqsədlərinin reallaşdırılmasında hökumət, qeyri-hökumət təşkilatları və özəl sektorun rolu nədən ibarətdir?
6. Davamlı inkişaf məqsədləri nədir və nə zaman qəbul edilib?
7. Davamlı inkişaf məqsədlərinin başlıca qrupları hansılardır?
8. İnklüziv inkişaf nədir? «İnklüzivlik» termininin mənasını izah edin.
9. Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində insan inkişafı məqsədləri hansılardır?
10. Azərbaycan Respublikasının davamlı inkişafı barədə nə deyə bilərsiniz?

# 3. İNKLÜZİV İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ VƏ ƏSAS GÖSTƏRİCİLƏRİ

*Davamlı inklüziv inkişaf göstəriciləri. İnklüziv inkişafı səciyyələndirən iqtisadi artım və məşğulluq göstəriciləri. Yoxsulluqla mübarizə və gəlirlərin paylanmasının inklüziv inkişaf üçün əhəmiyyəti. İnklüziv inkişafın demoqrafik və ekoloji indikatorları. İnklüziv inkişaf indeksi.*


3.1. Bölmənin məqsədi
3.2. Açar söz və anlayışlar
3.3. Davamlı inklüziv inkişafın əsas göstəriciləri və indikatorları
3.3.1. İnklüziv inkişaf göstəricilərinin əsas qrupları
3.3.2. Ümumdaxili məhsul inklüziv inkişaf amili kimi
3.3.3. Əhalinin məşğulluğu inklüziv inkişaf indikatoru kimi
3.3.4. Əhalinin ömür müddəti davamlı inklüziv inkişaf indikatoru kimi
3.4. İnklüziv inkişafın sosial indikatorları
3.4.1. İnklüziv inkişafın sosial indikatorlarının ümumi təsnifatı
3.4.2. Yoxsulluqla mübarizə inklüziv inkişaf indikatoru kimi
3.4.3. Gəlirlərin paylanması inklüziv inkişafın indikatoru kimi
3.4.4. Median gəlirlər inklüziv inkişafın indikatoru kimi
3.5. İnklüziv inkişaf prosesinin davamlılığını səciyyələndirən indikatorlar
3.5.1. İnklüziv inkişafın davamlılığını səciyyələndirən göstəricilərin ümumi təsnifatı
3.5.2. Xarici borcun həcmi
3.5.3. Demoqrafik asılılıq davamlı inklüziv inkişafın göstəricisi kimi
3.5.4. Qlobal iqlim dəyişmələrinə təsir davamlı inklüziv inkişafın göstəricisi kimi
3.6. İnklüziv inkişaf indeksi
3.7. Özümüzü sınayaq: sual və tapşırıqlar

### *3.1. Bölmənin məqsədi*

Müasir dövrdə bəşəriyyət bir sıra ciddi çağırışlarla üzləşir. Çağırışları qarşılayarkən inkişaf proseslərinin davamlılığını və inklüzivliyini təmin etmək üçün istifadə olunan texnologiyaların daim yenilənməsi vacib şərtdir. Bu isə dövlət idarəçiliyində, ərazi və müəssisələrin idarə edilməsində istifadə olunan biliklərin daim yenilənməsini tələb edir. Dərsliyin əvvəlki bölmələrində göstərilmişdir ki, hazırda bəşəriyyət bir çox iqtisadi, sosial, ekoloji, demoqrafik və siyasi təzyiqlərlə üz-üzədir. İnsanların qarşılaşdığı problemlər arasında yoxsulluq, gəlir və istehlakda kəskin fərqlər əsas yer tutur. Bu, eyni zamanda orta ömür müddəti, həyat keyfiyyətinə də aiddir. Belə fərqlər həm bir ölkə daxilində, həm də ölkələr arasında müşahidə edilməkdədir. Yaranmış vəziyyət terrorizmin və hərbi münaqişələrin genişlənməsini, tənzim olunmayan miqrasiyanın, qaçqın və daxili köçkünlərin sayının artmasını şərtləndirir. Bu neqativ proseslər iqtisadi, sosial və humanitar fəsadlarla yanaşı, insanları ciddi ekoloji problemlərlə də üz-üzə qoyur. Ekoloji problemlər arasında ***qlobal iqlim dəyişmələri*** və ***biomüxtəlifliyin qorunması*** xüsusi əhəmiyyət daşıyır. Son illərdə iqlim dəyişmələrinin nəticəsi kimi qəbul edilən fırtına və sunamilərin sayının artması, onların şiddətliliyi, bu proseslərin iqtisadi, sosial və humanitar fəsadları problemin nə dərəcədə aktual olmasından xəbər verir.

Aydındır ki, bu neqativ proseslərin qarşısının alınması və insanların rifahının yüksək səviyyədə təmin olunması davamlı inklüziv inkişaf prinsiplərini nəzərə alan yeni idarəçilik texnologiyalarının tətbiqindən keçir. Bu məqsədlərə çatmaq baxımından inklüziv inkişafı, onun davamlılığını təmin edən proseslərin planlaşdırılması və idarə edilməsi sahəsində çalışanların müvafiq bilik və bacarığa malik ol-

maları vacib şərtdir. Hazırkı bölmənin məqsədi bu sahədə təhsil alanlara müvafiq biliklərin təqdim edilməsidir. Dərslikdə ilk dəfə olaraq inklüziv inkişafın indikatorları haqqında məlumat verilir, onlardan inkişaf proseslərin planlaşdırılması və idarə edilməsi proseslərində istifadə qaydaları göstərilir. Bu indikatorlar əsasında hesablanan ***inklüziv inkişaf indeksi***, ondan monitorinq gedişində istifadə yolları barədə məlumatlar da bölmədə yer alıb.

### *3.2. Açar söz və anlayışlar*

*İnklüziv İnkişaf İndeksi (İİİ); Davamlı inkişaf; Əmək bazarı; Əməyin səmərəliliyi; Alıcılıq Qabiliyyəti Pariteti; G 20 («böyük iyirmilik»); Kvintil nisbəti; Median gəlirlər; Mütləq yoxsulluq; Nisbi yoxsulluq; İstixana qazları.*

### *3.3. Davamlı inklüziv inkişafın əsas göstəriciləri və indikatorları*

#### *3.3.1. İnklüziv inkişaf göstəricilərinin əsas qrupları*

«İnklüziv inkişaf» termini son zamanlar geniş istifadə olunmaqdadır. İnklüziv inkişaf siyasəti ölkənin və ya bölgənin hərtərəfli inkişafını nəzərdə tutur. İnklüziv inkişafın prinsiplərinə əsasən, bu prosesin müsbət nəticələri hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır. İnklüziv inkişaf ölkələrdə həyata keçirilən bütün milli və beynəlxalq proqramları, iqtisadiyyatın hər sahəsini əhatə etməlidir.

Beynəlxalq standartlara əsasən, inklüziv inkişaf vəziyyətinin qiymətləndirilməsi, bu sahədə ölkələrarası müqayisələr 12 müxtəlif göstərici əsasında aparılır. Üç əsas

qrupda cəmləşdirilə bilən bu göstəricilərlə (indikatorlarla) ölkələrdə inklüziv inkişafın vəziyyəti müxtəlif iqtisadi, sosial, demoqrafik və ekoloji parametrlər əsasında müəyyən edilir (şəkil 3.17.).

Şəkil 3.17.-də dərc olunmuş məlumat göstərir ki, inklüziv inkişafın vacib şərtlərindən biri iqtisadi artım və iqtisadi inkişafdır. İqtisadi əsas olmadan inklüziv inkişaf məqsədlərinə çatmaq mümkün deyil. Lakin iqtisadi artım inklüziv inkişaf üçün yalnız şərait yaratmış olur. Bu imkanlardan istifadə etməklə, uğurlu sosial siyasətin həyata keçirilməsi inklüziv inkişafın vacib şərtidir.

Lakin inklüziv inkişaf, inkişaf edən cəmiyyətin qurulması bu iki vacib şərtin – uğurlu iqtisadi və sosial siyasətin mövcudluğu ilə məhdudlaşmır. Bu prosesin davamlı olması, yəni gələcək nəsillər üçün keçərli olması da vacib şərtdir. Bu səbəbdən şəkil 3.17.-də iqtisadi, sosial və davamlılıq sahələrini əhatə edən hər üç qrup təqdim olunmuşdur.

İnklüziv inkişaf edən cəmiyyətin qurulması yalnız bu prosesləri idarə edən mexanizmlərin kompleks şəkildə tətbiqi nəticəsində mümkündür. Birincisi, inklüziv inkişafı




***Şəkil 3.17.*** *İnklüziv inkişaf indikatorlarının əsas qrupları*

yalnız kifayət qədər maddi və maliyyə mənbələrinin mövcud olduğu cəmiyyətdə həyata keçirmək olar. İkincisi, cəmiyyətdə elə bir sosial siyasət həyata keçirilməlidir ki, yoxsulluq, aclıq və hər hansı digər məhrumiyyət aradan qaldırılmalı, gəlirlərdə, istehlakda kəskin qeyri-bərabərliyin qarşısı alınmalıdır. İnklüziv inkişafın təminatçısı kimi çıxış edən üçüncü qrup göstəricilər prosesin davamlı olması, gələcək nəsillər üçün də qorunub saxlanılması ilə əlaqədardır. Bu üç prinsip əsasında davamlı inkişaf indikatorları formalaşır.

İnklüziv inkişafın birinci qrup indikatorlarına elə göstəricilər aid edilə bilər ki, onlar iqtisadi potensialı və əmək ehtiyatlarını səciyyələndirsin. Dünya və ya ölkənin iqtisadi vəziyyəti, bir qayda olaraq, ***ümumi daxili məhsulun (ÜDM)*** həcmi əsasında qiymətləndirilir. Bu sahədə fəaliyyətin nə dərəcədə səmərəli olması ÜDM-nin dəyişmə dinamikası və digər ölkələrlə müqayisələr əsasında müəyyən edilir. Əhalinin ***məşğulluğu*** və ***əməyin səmərəliliyi*** ölkə iqtisadiyyatının vəziyyətini göstərən və inklüziv inkişafa təsir göstərən amillərdəndir. Əmək bazarının vəziyyəti, yüksək




***Şəkil 3.18.*** *İnklüziv inkişafın iqtisadi, məşğulluq və əmək ehtiyatlarını səciyyələndirən indikatorları*

ixtisaslı kadrlara olan tələbat inklüziv inkişafın vacib şərtidir. İnklüziv inkişafın iqtisadi indikatorları sırasında, eyni zamanda əmək məhsuldarlığı da var. Bu, iqtisadiyyatın idarə edilməsində mövcud vəziyyətin dəyərləndirilməsi üçün istifadə edilən indikatorlardandır (şəkil 3.18.).

Qeyd etmək lazımdır ki, bütün sadalanan göstəricilər inklüziv inkişafın iqtisadi və texnoloji təmini baxımından olduqca əhəmiyyətlidir.

### *3.3.2. Ümumdaxili məhsul inklüziv inkişaf amili kimi*

Ölkələrdə əlverişli iqtisadi vəziyyət mövcud inklüziv inkişafın planlaşdırılması, idarə edilməsi, bu prosesin davamlılığının təmin edilməsi üçün vacib şərtdir. Yalnız iqtisadi imkanların mövcudluğu şəraitində inklüziv inkişafın davamlılığı təmin oluna bilər. Bu zaman, həmçinin sosial proqramların həyata keçirilməsi üçün şərait yaradılır. İqtisadi imkanlar, eyni zamanda inkişafın innovativ xarakter daşımasına təminat verir.

Ölkənin və ya dünyanın iqtisadi potensialının qiymətləndirilməsi üçün fərqli üsullardan istifadə edilə bilir. Ən sadə, universal və geniş istifadə olunan üsul ÜDM-nin həcmi, bu göstəricinin dəyişmə dinamikasıdır.

Qlobal miqyasda vəziyyətin inklüziv inkişaf üçün nə dərəcədə əlverişli olması məqsədi ilə ÜDM-nin dünyada inkişaf tendensiyası təhlil edilmişdir. Beynəlxalq təşkilatların məlumatları əsasında həyata keçirilmiş təhlilin nəticələri şəkil 3.19.-da təqdim edilib. Təhlillər göstərir ki, dünyada iqtisadi göstəricilər, orta hesabla, artmaqdadır. Şəkil 3.19.-dan göründüyü kimi, Dünya Bankının məlumatlarına əsasən, 2017-ci ildə dünyada iqtisadiyyat 2,1 dəfə artmışdır. Mü-




***Şəkil 3.19.*** *Dünyada adambaşına ÜDM-nin artımı, 1000 ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla.*
*Məlumat mənbəyi: Dünya Bankı, 2018*

qayisə üçün qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında iqtisadi artım dünyanın orta göstəriciləri ilə müqayisədə daha sürətli olmuşdur. Dünya Bankının məlumatlarına görə, 17 il ərzində Azərbaycanda ÜDM-nin həcmi 4,8 dəfə artmışdır. Bu, dünyada müşahidə olunan ən yüksək nəticələrdən biridir. Azərbaycanda müşahidə edilən uğurlu iqtisadi artımın təhlili dərsliyin xüsusi bölməsində təqdim edilmişdir.

O da nəzərə alınmalıdır ki, şəkil 3.19.-da təqdim olunmuş məlumatlarda dünya üzrə orta göstəricilər əks olunub. Əslində, bəzi ölkələrdə iqtisadi artım templəri orta dünya göstəricilərindən xeyli yüksəkdir. Eyni zamanda Dünya Bankı və BMT-nin statistikasına görə, elə ölkələr də var ki, onlarda ÜDM-nin artım tempi daha aşağıdır. Bu, ilk növbə-




***Şəkil 3.20.*** *İqtisadiyyatları sürətlə inkişaf edən dünya ölkələrinin 2017-ci ildə 2000-ci illə müqayisədə adambaşına düşən ÜDM-nin artımı. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

də, iqtisadi inkişafda yüksək nəticələr əldə etmiş ölkələrə aiddir. Göstərilən xüsusiyyət onunla izah edilir ki, iqtisadi baxımdan böyük nailiyyət əldə etmiş bu ölkələrdə ÜDM-nin həcmi uzun müddətdir ki, yüksəkdir. Nəticə etibarilə həmin ölkələrdə iqtisadiyyatın dəfələrlə artımı artıq real deyil. Məsələn, Norveçdə 2000-ci ildə ÜDM-nin həcmi, alıcılıq pariteti nəzərə alınmaqla, 36 950 ABŞ dolları təşkil edirdi. 2017-ci ildə isə bu ölkədə ÜDM-nin həcmi 60 978 ABŞ dollarına çatıb. Norveçdə bu dövrdə iqtisadiyyatda artım 1,6 dəfə olub. İqtisadiyyatı istehsal həcminə görə Norveçdən iki dəfə kiçik olan Çilidə isə iqtisadi artımın 5,3 dəfə olduğu qeydə alınıb (şəkil 3.20.). Şübhəsiz ki, iqtisadiyyatın artımı inklüziv inkişafın vacib amilidir.

Şəkil 3.20.-də iqtisadiyyatı sürətlə inkişaf edən ölkələr haqqında məlumatlar verilib. Həmin dövrdə Azərbaycan

Respublikasının iqtisadiyyatı 4,8 dəfə artmışdır. Ölkəmizin inklüziv inkişaf potensialı sonrakı bölmələrdə təhlil edilib.

Beləliklə, aparılan təhlillər göstərir ki, dünyada ÜDM orta hesabla daim artmaqdadır. Bir çox ölkələrin iqtisadi potensialının artması da müşahidə edilir. Bəzi ölkələrdə artım daha yüksəkdir. Bu onu göstərir ki, bir çox ölkələrdə inklüziv inkişaf edən cəmiyyətin qurulması üçün iqtisadi şərait formalaşmışdır.

### *3.3.3. Əhalinin məşğulluğu inklüziv inkişaf indikatoru kimi*

Əhalinin məşğulluğu inklüziv inkişaf edən cəmiyyətin əsas iqtisadi göstəricilərindəndir. Bu göstərici, eyni zamanda əmək bazarının vəziyyətindən xəbər verir. Dünyanın müxtəlif ölkələrində məşğulluqla bağlı durum iqtisadiyyatın vəziyyəti və dövlətin sosial siyasəti ilə müəyyən edilir. İşsizlik və əhalinin fərqli qruplarının məşğulluq səviyyələri göstəricilərinə görə müxtəlif ölkələrdə əmək bazarının vəziyyəti barədə fikir yürütmək olur.

Avropa İttifaqı ölkələrində əmək bazarının vəziyyəti barədə Beynəlxalq Əmək Təşkilatının məlumatları əsasında təhlillər aparmaq olar. Bu təşkilatın hesabatına görə, Avropa İttifaqı ölkələrində əməkqabiliyyətli əhali arasında işsizlik 11–12 faiz təşkil edir. İtaliya, Fransada da durum eynidir. Həmin mənbəyə görə, «böyük iyirmilik» qrupuna daxil olan bir sıra ölkələrdə işsizlik daha yüksəkdir. Məsələn, İspaniyada əməkqabiliyyətli əhalinin 27 faizi işsizdir. Göstərilən rəqəmlər bütün əhaliyə aiddir. Gənclərə gəldikdə, Avropa İttifaqının bir sıra




***Şəkil 3.21.*** *Bəzi iqtisadi inkişaf etmiş ölkələrdə gənclər arasında işsizlik, %. Məlumat mənbəyi: BMT-nin hesabatı, 2017*

ölkələrində gənclər arasında işsizlik təxminən ümumi işsizlikdən 2 dəfə çoxdur. Bu vəziyyət Yunanıstanda, Portuqaliyada, İtaliyada və bəzi digər ölkələrdə müşahidə edilir. Bəzi iqtisadi inkişaf etmiş ölkələrdə işsizliyin səviyyəsi haqqında məlumatlar şəkil 3.21.-də əksini tapıb. Bu məlumatlar BMT tərəfindən 2017-ci ildə dərc edilmişdir.

Qeyd etmək lazımdır ki, məşğulluqla bağlı problemlər dünyanın digər ölkələrində də müşahidə edilməkdədir. Məsələn, «böyük iyirmilik» və ***BRICS*** qrupuna daxil olan Cənubi Afrika Respublikasında əməkqabiliyyətli əhalinin 25 faizi işsizdir.

Məşğulluq səviyyəsi ilə yanaşı, inklüziv inkişaf üçün ***əməyin səmərəliliyi*** göstəricisi də əhəmiyyətlidir. Əməyin səmərəliliyi ölkədə və yaxud hansısa təşkilat və ya

müəssisədə vahid zamanda istehsal olunmuş məhsulun miqdarı və dəyəri ilə ölçülür. Bu olduqca vacib iqtisadi göstəricidir.

Əməyin səmərəliliyi üç əsas amildən asılıdır. Birincisi – ölkə, müəssisə, yaxud digər dəyərləndirilən obyektin texniki və texnoloji səviyyəsidir. Müasir idarəetmə və istehsal texnologiyalarının istifadəsi əməyin səmərəliliyinin artırılmasının vacib şərtidir.

İşçilərin yüksək peşə hazırlığı, çalışdığı sahədə bilik və bacarıqlarını daim artırmaq səyləri əmək səmərəliliyinin yüksəldilməsinin digər vacib amilidir. Təbiidir ki, ölkə müəssisələrinin texnoloji baxımdan müasir tələblər səviyyəsində qurulması və işçilərin yüksək hazırlığı əməyin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması üçün vacib şərtdir. Nəticədə gəlirlərin artması və davamlı inklüziv inkişaf üçün üçüncü vacib amil olan ***sosial məsuliyyətli biznes*** inkişaf edir.

Bütün bu amillər uğurlu iqtisadi və sosial siyasətin həyata keçirilməsi üçün şərait yaradır. Bu isə, öz növbəsində, davamlı inklüziv inkişafa yol açır. Bu səbəbdən texnoloji tərəqqi, işçilərin bilik və bacarıqlarının daim artırılması, biznesin sosial məsuliyyətli fəaliyyəti inklüziv inkişaf üçün şərait yaradan vacib amillərdir.

### *3.3.4. Əhalinin ömür müddəti davamlı inklüziv inkişaf indikatoru kimi*

Son zamanlar dünyanın müxtəlif ölkələrində dərc edilmiş məlumatlardan aydın olur ki, insanların ömür müddəti keçmişdə müşahidə edilmiş və hazırda müşahidə ediləndən əhəmiyyətli dərəcədə çoxdur. Elmi və elmi-populyar jurnallarda dərc edilmiş məqalələrdə göstərilir ki, insanların



*Yaşlı insanlar*

uzunömürlülük potensialı ən azı 120-140 ildir. Reallıqda isə insanın nə qədər ömür sürməsi yaşadığı mühitin keyfiyyətindən, onun həyat tərzindən asılıdır. Beləliklə, aydın olur ki, həm hazırda müşahidə edilən orta ömür müddəti, həm də gələcəkdə gözlənilən ömür müddəti insanı əhatə edən iqtisadi, sosial və təbii mühit keyfiyyətinin indikatorudur. Bu səbəbdən də orta ömür göstəricisi inklüziv inkişafın indikatoru kimi istifadə edilə bilər.

Demoqrafik göstəricinin inklüziv inkişafın indikatoru kimi istifadəsi onunla əlaqədardır ki, orta ömür müddəti və əhalinin yaş strukturu iqtisadi potensialın çox önəmli göstəricilərindəndir. Ümumiyyətlə qeyd edilməlidir ki, insan cəmiyyətinin inkişafı tarixində insanların ömür müddəti daim artmışdır. Mövcud olan statistik məlumatların təhlili göstərir ki, son dövrlərə qədər orta ömür müddətinin az olmasının səbəbi bir sıra ölkələrdə uşaq ölümü səviyyəsinin yüksək olması ilə bağlı idi. Tarixi abidələrin və qədim




***Şəkil 3.22.*** *Dünyanın müxtəlif regionlarında kişilərin və qadınların orta ömür müddəti (yaş). Məlumat mənbəyi: BMT-nin Əhali Fondu, 2018*

əlyazmalarının təhlilindən aydın olur ki, qədimdə orta ömür müddəti 28-30 yaş təşkil edib.

İnsanların orta ömür müddəti XX əsrin əvvələrində yüksək deyildi. Məsələn, həmin dövrdə Avropa ölkələrində insanlar orta hesabla 42-45 il yaşayırdılar. Lakin hazırda uşaq ölümünün azalması, səhiyyənin inkişafı və sosial sahədə həyata keçirilən islahatlar nəticəsində dünyada, o cümlədən ölkəmizdə orta ömür müddəti artmışdır. Bir qayda olaraq, qadınların orta ömür müddəti kişilərinkindən daha yüksəkdir. Bu qanunauyğunluq bütün qitələrdə müşahidə olunur (şəkil 3.22.).

Qeyd etmək lazımdır ki, dünya statistikasına əsasən, planetimizdə son 80 ildə orta ömür müddəti 20 ildən

çox artmışdır. Bu onu göstərir ki, dünyada davamlı inklüziv cəmiyyətə keçid üçün şərait formalaşır. İnklüziv cəmiyyətə keçid bir sıra ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında daha tez baş verə bilər. Ölkəmizdəki imkanlar haqqında məlumat növbəti bölmələrdə təqdim edilmişdir.

Orta ömür müddətinin artma tendensiyası bütün dünyada müşahidə olunmaqdadır. Bununla əlaqədar bir sıra ölkələrdə qadınların və kişilərin təqaüdəçıxma yaşları artırılmışdır. Digər ölkələr isə bu tədbiri reallaşdırma imkanlarını dəyərləndirir. Dünyada orta ömür müddətinin artması, şübhəsiz ki, iqtisadi və sosial sahələrdə əldə edilmiş nailiyyətlər və tibb elminin inkişafı ilə bağlıdır. Bu sahədə yaranmış vəziyyət inklüziv inkişaf üçün şəraitin formalaşması kimi qiymətləndirilə bilər.

Beləliklə, aparılan təhlillər göstərdi ki, dünyada orta ömür müddətinin artması bir çox ölkələrdə inklüziv inkişafa keçid üçün şərait yaradıb. İqtisadi artım, demoqrafiya və məşğulluq sahəsində yaranmış vəziyyət inklüziv cəmiyyətin formalaşmasını və bu prosesin davamlı olmasını şərtləndirən vacib amildir.

## *3.4. İnklüziv inkişafın sosial indikatorları*

### *3.4.1. İnklüziv inkişafın sosial indikatorlarının ümumi təsnifatı*

Uğurlu sosial siyasətin həyata keçirilməsi inkişafın davamlılığı və inklüziv cəmiyyətin qurulması üçün şəraitin yaradılmasının vacib şərtidir. İnklüziv inkişafı şərtləndirən əsas sosial indikatorlar şəkil 3.23.-də təqdim edilib. Şəkildən göründüyü kimi, hazırkı mərhələdə in-




***Şəkil 3.23.*** *İnklüziv inkişafı səciyyələndirən sosial göstəricilər*

klüziv inkişafın planlaşdırılması və idarə edilməsi baxımından üç qrup sosial göstərici prioritet təşkil edir. Birinci qrup göstəricilər yoxsulluqla mübarizə ilə əlaqədardır. Yoxsulluqla mübarizə eyni zamanda davamlı inkişafın da vacib şərtidir. Yoxsulluq kimi məhrumiyyət bu və ya digər miqyasda bütün ölkələrdə mövcuddur və onunla mübarizə 2015-ci ildə keçirilmiş BMT Baş Assambleyasında və Dünya Sammitində bəşəriyyət üçün mühüm olan 17 qlobal məqsədlər sırasındadır.

Yoxsulluqla yanaşı, dövlətlərarası və dövlətlərdaxili gəlirlərin ədalətli bölünməsi də dünyada mövcud olan çox ciddi sosial problemlərdəndir. Bu səbəbdən həm ölkələr arasında, həm də ölkələr daxilində istehlakda mövcud olan kəskin fərqlərin aradan qaldırılması da inklüziv inkişaf baxımından önəmlidir. Məsələn, BMT və Dünya Bankı tərəfindən 2018-ci ildə dərc olunmuş məlumatlara görə, Norveçdə adambaşına gəlir ildə 63 350 ABŞ dolları təşkil edir. Afrikada yerləşən Liberiyada isə adambaşına gəlir ildə yalnız 700 ABŞ dolları təşkil edir ki, bu da Norveçdən 90 dəfə azdır. Bu, müxtəlif ölkələrin vətəndaşlarının

gəlirləri arasında kəskin fərqə misal kimi qəbul edilə bilər. Beynəlxalq statistikaya əsasən, bir ölkə daxilində gəlirlər və istehlakda müşahidə edilən kəskin fərqlər Braziliyada, Cənubi Afrika Respublikasında və bir sıra digər ölkələrdə qeydə alınmışdır. Bəllidir ki, yoxsulluq, gəlir və istehlakda mövcud olan kəskin fərqlər davamlı inklüziv inkişaf üçün risk kimi dəyərləndirilir. Bu səbəbdən göstərilən indikatorların təhlili əsasında hər hansı bir ölkənin inklüziv inkişafa nə dərəcədə hazır olması barədə nəticə çıxarmaq mümkündür.

Məlumdur ki, ölkələrdə əhali arasında gəlirlərin paylanmasında kəskin fərqlər mövcuddur və ya mövcud ola bilər. Belə bir şəraitdə ölkədə müəyyən edilən orta gəlir göstəricisi əhalinin bütün təbəqələrinin iqtisadi vəziyyətindən xəbər verə bilməz. Bu səbəbdən ölkənin inklüziv inkişaf naminə sosial siyasətinin qiymətləndirilməsi zamanı orta gəlirlər yox, ***median gəlirlər*** nəzərə alınır. Median gəlirlər İnklüziv İnkişaf İndeksinin hesablanmasında istifadə edilən sosial indikatordur. Median gəlirlərin inklüziv inkişafın indikatoru kimi istifadəsi hazırkı dərsliyin növbəti bölmələrində əsaslandırılır.

### *3.4.2. Yoxsulluqla mübarizə inklüziv inkişaf indikatoru kimi*

Aydındır ki, yoxsulluğun vəziyyəti hər hansı bir ölkənin ümumi inkişafının səviyyəsi haqqında anlayış yaradır. Eyni zamanda bəllidir ki, yoxsulluğun yüksək olması inklüziv inkişaf imkanlarını məhdudlaşdırır. Bu səbəbdən milli və beynəlxalq təşkilatlar yoxsulluğun aradan qaldırılmasına yönəldilmiş tədbirləri reallaşdırırlar. İnklüziv inkişaf edən cəmiyyətin qurulması zamanı yoxsulluqla mübarizə xüsusilə əhəmiyyətlidir. Göstərilənləri




***Şəkil 3.24.*** *Bəzi İƏİT ölkələrində yoxsulluğun səviyyəsi, əhalinin faizi. Məlumat mənbəyi: İƏİT statistikası, 2017*

nəzərə alaraq, inklüziv inkişafın indikatorları arasında yoxsulluq və onun səviyyəsi xüsusi əhəmiyyət daşıyır. Qeyd edilməlidir ki, davamlı inkişaf məqsədləri də 2030-cu ilə qədər dünyada yoxsulluğun ləğvini və ya ciddi miqyasda azaldılmasını nəzərdə tutur.

Yoxsulluq bu və ya digər səviyyədə dünyanın bütün ölkələrində müşahidə edilir. Bu, iqtisadi baxımdan yüksək inkişafa nail olmuş və ***İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT)*** üzv olan ölkələrdə yoxsulluğun səviyyəsinin təhlilindən aydın olur (şəkil 3.24.). Məlum olduğu kimi, İƏİT inkişafda yüksək nəticələr əldə etmiş 37 ölkənin birliyidir.

Cədvəldə təqdim olunmuş məlumatlardan aydın olur ki, hətta yüksək orta gəlirləri olan ölkələrdə də yoxsulluq mövcuddur. Lakin bu ölkələrdə yoxsulların faizi fərqlidir. İƏİT və «böyük yeddilik» (G 7) qrupuna daxil olan ölkələr

arasında yoxsulluğun ən aşağı səviyyəsi 5 faizdir. Yoxsulluğun bu səviyyəsi Çexiya, Finlandiya, Belçika və bəzi digər ölkələrdə müşahidə edilir. Ölkədə əhalinin orta gəlirlərinin yüksək səviyyədə olması yoxsulluğun aşağı səviyyədə olmasının qarantı deyil. Məsələn, İƏİT ölkələrinin bəzilərində əhalinin 15-20 faizi yoxsuldur. Belə ölkələr sırasına ABŞ, Türkiyə, İspaniya, Böyük Britaniya, İsrail və digərləri aiddir. Bu rəqəmlər onu göstərir ki, ölkədə yoxsulluğun səviyyəsi ölkənin zənginliyindən deyil, bu məhrumiyyətlə mübarizənin səmərəliliyindən asılıdır. Yoxsulluğun səviyyəsi inklüziv cəmiyyətin qurulması prosesinə təsir göstərən amildir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında yoxsulluğun səviyyəsi çox aşağıdır. Bu, ölkədə inklüziv inkişafa yönəldilmiş siyasətin həyata keçirilməsinin nəticəsidir. Azərbaycan Respublikasının yoxsulluqla mübarizə sahəsində toplanmış təcrübəsi dərsliyin xüsusi bölməsində təhlil edilir.

### *3.4.3. Gəlirlərin paylanması inklüziv inkişafın indikatoru kimi*

Yoxsulluq və aclıq insanların üzləşdiyi məhrumiyyətlər arasında ən mühümlərindəndir. Lakin əhali arasında gəlirlərin bölünməsində müşahidə edilən kəskin fərqlər də inklüziv inkişafı məhdudlaşdıran ciddi amildir. Gəlirlərin kəskin qeyri-bərabərliyi həm bir ölkə çərçivəsində, həm də ölkələr arasında müşahidə edilə bilər. Təsadüfi deyil ki, BMT və Dünya Sammiti tərəfindən qəbul edilmiş Davamlı İnkişaf Məqsədlərində 2030-cu ilə qədər gəlir və istehlakda müşahidə edilən kəskin qeyri-bərabərliyin azaldılması nəzərdə tutulub. Bəlli olduğu kimi, inklüziv inkişafın müsbət nəticələrini hər bir vətəndaş hiss etməlidir. Bu səbəbdən

əhali arasında gəlirlərin nə dərəcədə ədalətli bölünməsi inklüziv inkişafın indikatoru kimi istifadə olunmaqdadır.

Gəlirlərin əhalinin müxtəlif təbəqələri arasında ədalətli paylanmasının monitorinqi daim beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Bu monitorinq bir neçə üsulla aparıla bilər. Məlum olduğu kimi, onlardan biri xüsusi üsulla hesablanan Cini göstəricisidir. Praktikada bu göstərici iki cür ifadə oluna bilər: ***Cini əmsalı*** və ya ***Cini indeksi***. Hər iki yanaşmanın mahiyyəti eynidir. Fərq ondadır ki, ***Cini əmsalının*** dəyəri 0 və 1 arasında dəyişir. ***Cini indeksi*** isə 0 və 100 arasında dəyişir, dəyəri isə faizlə ifadə edilir. Bu o deməkdir ki, əgər Cini əmsalı 0,31-ə bərabərdirsə, o zaman Cini indeksi 31 olacaq. Hər iki göstərici əsasında belə qənaətə gəlmək olur ki, bu halda gəlirlər normal paylaşmadan 31 faiz kənarlaşır. Kənarlaşma nə qədər az olsa, gəlirlərin ölkədə bölünməsi ədalətli, bu sahədə həyata keçirilən sosial siyasət isə uğurlu hesab edilir. Cini göstəricisinin az olması ondan xəbər verir ki, ölkədə yalnız vətəndaşların çox az qisminin gəlirləri normal paylaşmadan fərqlənir.

Ölkədə inklüziv inkişaf sahəsində həyata keçirilən siyasətin nə dərəcədə uğurlu olmasını qiymətləndirmək məqsədi ilə də Cini göstəricisindən istifadə edilir. Beynəlxalq statistikaya əsasən, ən aşağı Cini indeksləri Şimali Avropa ölkələrində qeydə alınmışdır. Bu ölkələr arasında Norveç, İsveç, Finlandiya xüsusi yer tutur. Göstərilən ölkələrdə Cini indeksinin aşağı olması bu ölkələrdə uğurlu sosial siyasətin mövcudluğundan, ölkə vətəndaşlarının sosial təhlükəsizliklərinin yüksək səviyyədə təmin olunmasından xəbər verir. Cini əmsalının ən yüksək göstəriciləri Afrika, Asiya və Cənubi Amerika ölkələrində müşahidə edilir. Məsələn, Braziliyanın Cini indeksi 51,5, Panamanın 50,7, Kolumbiyanın 53,5, Cənubi Afrika Respublikasının 63,4-dür.

Qeyd etmək lazımdır ki, ölkənin zənginliyi ilə Cini göstəricisi arasında əlaqə müşahidə olunmur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) daxil olan ölkələrin Cini göstəricilərini müqayisə edərkən belə qənaətə gəlmək olar. Məlumdur ki, bu qrupa iqtisadiyyatda yüksək nəticələr əldə etmiş 37 ölkə daxildir. Bir qayda olaraq, bu ölkələr uğurlu iqtisadi və sosial siyasət həyata keçirmələri ilə fərqlənirlər. Bu qrupa daxil olan bəzi ölkələrin Cini əmsalları şəkil 3.25.-də təqdim olunub. Şəkildə təqdim olunmuş rəqəmlər BMT və Dünya Bankının hesabatlarından götürülüb.

Qeyd edildiyi kimi, Cini göstəricisi nə qədər aşağı olsa, dövlətin sosial siyasəti bir o qədər uğurlu hesab edilir və bu siyasətin bütün əhali arasında gəlirlərin bərabər bölünməsinə yönəldilməsi kimi dəyərləndirilir. Şəkil 3.25.-dən




***Şəkil 3.25.*** *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrində Cini İndeksi. Məlumat mənbəyi: İƏİT Statistikası, 2017*

aydın olur ki, gəlirlərin ədalətli bölünməsi Almaniya, Norveç, Finlandiyada müşahidə edilir. Digər ölkələrdə də Cini əmsalı yüksək deyil və bəzən nadir hallarda 40 faizlik həddi keçir. Əksinə, göstərildiyi kimi, Cənubi Amerika ölkələri üçün yüksək Cini göstəricisi daha xarakterikdir. Bu qitədəki ölkələrdə normal paylaşmadan 50, 60 faiz kənarlaşma qeydə alınıb.

Qeyd etmək lazımdır ki, müstəqilliyimizin bərpasından qısa müddət keçməsinə baxmayaraq, uğurlu sosial siyasət reallaşdığına görə Azərbaycan Respublikası böyük nailiyyətlərə imza atıb. Beynəlxalq təşkilatların məlumatlarına əsasən, Azərbaycanda Cini əmsalı İƏİT və «böyük yeddiliyə» daxil olan ölkələrlə müqayisə edilə bilər. İnklüziv inkişafın vacib şərti olan sosial siyasət haqqında ölkəmizə aid bilgilər dərsliyin xüsusi bölməsində təqdim olunub.

Ölkələrdə sosial siyasətin səmərəliliyinin qiymətləndirilməsində Cini əmsalı ilə yanaşı, digər – ***kvintil nisbəti*** adlı indikatordan da istifadə olunur. Sosial siyasətin səmərəliliyini dəyərləndirən bu indikatorun hesablanması zamanı əhali gəlirlərinə görə beş yerə bölünür ki, hər qrupda əhalinin 20 faizi təmsil olunur. Sonra 20 faiz ən zəngin qrup üçün müəyyən edilmiş orta gəlirin 20 faiz ən yoxsul təbəqənin orta gəlirini nəçə dəfə üstələdiyi müəyyən edilir. Alınmış rəqəm kvintil nisbətin qiyməti olaraq sosial siyasətin vəziyyətindən xəbər verir. Rəqəmin kiçik olması sosial siyasətin uğurunun, bu siyasətin davamlı inklüziv inkişaf maraqlarına xidmət etməsinin təzahürüdür. Kvintil nisbəti ifadə edən rəqəmin kiçik olması, eyni zamanda 20 faiz ən zəngin və 20 faiz ən yoxsul insanlar arasında olan və əhalinin 60 faizini təşkil edən orta sinfin daha kompakt və güclü olmasından xəbər verir.

Şəkil 3.26.-da təqdim olunmuş məlumatlar İƏİT-nin statistikasına, Dünya Bankının və BMT-nin 2017-2018-ci




***Şəkil 3.26.** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrində gəlirlərin paylanmasının kvintil təhlili.*
*Məlumat mənbəyi: İƏİT statistikası, 2017*

illərdə dərc edilmiş hesabatlarına əsaslanır. Kvintil analizin nəticələri göstərir ki, İƏİT ölkələri vahid iqtisadi və sosial siyasət çərçivəsində fəaliyyət göstərmələrinə baxmayaraq, gəlirlərin bölünməsi sahəsində fərqli nəticələr əldə ediblər. Hətta bəzi hallarda bu fərqlər 3 dəfə və ondan da artıq ola bilir. Şübhəsiz ki, əhalinin gəlirlərində fərqlərin böyük olduğu ölkələrdə inklüziv inkişaf edən cəmiyyətin qurulması bir o qədər də real deyil.

Bəlli olduğu kimi, Beynəlxalq inkişaf təşkilatlarının təhlillərinə görə, Azərbaycan Respublikası sosial sahənin inklüziv inkişaf naminə optimal idarə edilməsində yüksək nəticələr əldə etmişdir. Bu fəaliyyət haqqında biliklər hazırkı dərsliyin növbəti bölmələrində tədqiq edilir.

### *3.4.4. Median gəlirlər inklüziv inkişaf indikatoru kimi*

İnklüziv inkişafın planlaşdırılması və idarə edilməsi zamanı istifadə edilən sosial indikatorlar arasında fərdi və ya ev təsərrüfatlarının gəlirləri də nəzərə alınır. Bu zaman əhalinin orta gəliri deyil, ***median gəlirlər*** əsas götürülür.

Median gəlir elə bir göstəricidir ki, o, ölkənin, yaxud hər hansı ərazinin əhalisini iki yerə bölür: onların yarısının gəliri bu məbləğdən çox, digər yarısının gəliri isə, əksinə, bu məbləğdən azdır. Məsələn, əgər hər hansı bir ölkədə əhalinin median gəliri beş yüz şərti vahid təşkil edirsə, bu o deməkdir ki, əhalinin yarısının gəlirləri beş yüz şərti vahiddən çox, yarısınınkı isə azdır. Median gəlirlər müxtəlif




***Şəkil 3.27.*** *80 işçisi olan şərti müəssisədə orta və median gəlirlər arasındakı fərq: orta gəlir - 950 şərti vahid, median gəlir - 750 şərti vahid*

peşə sahibləri, məsələn, həkim, müəllim, mühəndis, çilingər və digər peşə sahibləri üçün hesablana bilər. Median gəlirlərin inklüziv inkişafın indikatoru kimi istifadə edilməsi ondan irəli gəlir ki, bu göstərici orta əməkhaqqı ilə müqayisədə vətəndaşların maddi durumunu daha dəqiq göstərə bilir. Bu, şəkil 3.27.-də təqdim edilmiş nümunədə də aydın görünür.

Şəkil 3.27.-də orta gəlir və median gəlir arasında olan fərqlər işçilərin sayı 80 nəfər olan bir müəssisə timsalında təhlil edilir. Şəkildən göründüyü kimi, bu təşkilatda ən yüksək gəlirə həmin müəssisənin investorları və rəhbərləri olan 3 əməkdaş malikdir. Onların toplam gəliri ayda 24 000 şərti vahid təşkil edir. Bütün istehsalat proseslərini idarə edən 5 texniki rəhbər işçinin toplam gəlirləri ayda 10 000 şərti vahid təşkil edir. Müəssisədə çalışan və peşə hazırlığı fərqli olan 72 fəhlənin aylıq toplam gəlirləri 42 000 şərti vahiddir. Deməli, müəssisənin 80 işçisinin toplam gəliri 76 000 şərti vahid, orta gəliri isə 950 şərti vahid təşkil edir. Median gəlir isə bu müəssisədə cəmi 750 şərti vahiddir. Bu müəssisədə çalışanların yarısı bu məbləğdən çox, yarısı isə az qazanır. Əgər bu şərti müəssisədə rəhbərlik öz əməkhaqlarını artırmaq barədə qərar qəbul etsə, əməkdaşların orta əməkhaqqısı da artacaq, median gəlirlər isə eyni səviyyədə qalacaq. Göründüyü kimi, median gəlir vətəndaşların maddi durumunun daha real göstəricisidir və bu səbəbdən inklüziv inkişafın qiymətləndirilməsində istifadə edilir.

Qeyd edilməlidir ki, median gəlirlər haqqında məlumatlardan yoxsulluğun qiymətləndirilməsində də istifadə edilir. Məlumdur ki, yoxsulluq özünü müxtəlif şəkildə büruzə verə bilər. Məsələn, mütləq yoxsulluq anlayışı mövcuddur ki, bu vəziyyətin bir sıra təzahürləri mə-

lumdur. Dünyada yoxsulluq dedikdə çox zaman bilavasitə ***mütləq yoxsulluq*** nəzərdə tutulur. Lakin ***«mütləq yoxsulluq»***la yanaşı, ***«nisbi yoxsulluq»*** anlayışı da məlumdur. Nisbi yoxsulluq ***median gəlirlər*** vasitəsilə müəyyən edilir. Ölkənin, ərazinin, yaxud hər hansı bir ixtisas sahibinin gəliri median gəlirdən iki dəfə az olarsa, bu zaman o, nisbi yoxsullar qrupuna aid edilə bilər. Məsələn, əgər bir mühəndisin gəliri mühəndislər qrupu üçün müəyyən edilmiş median gəlirdən iki dəfə azdırsa, o, nisbi yoxsul hesab edilir. Bu eyni dərəcədə hər hansı bir ölkənin, yaxud şəhərin sakininə də aid edilə bilər. Məsələn, əgər bir sakinin gəliri median gəlirdən iki dəfə azdırsa, o, nisbi yoxsullar qrupuna aid edilir.

Qeyd edilməlidir ki, median gəlirlər yalnız şəxslər üçün yox, eyni zamanda ev təsərrüfatları üçün də hesablana bilir. ***Ev təsərrüfatlarının gəlirləri*** deyəndə həmin evin sakinləri vasitəsilə daxil olan bütün pul vəsaitləri, ev təsərrüfatında istehsal edilən kənd təsərrüfatı və digər məhsulların dəyəri, pulsuz, yaxud güzəştli ödəmə ilə alınan xidmətlərin dəyəri nəzərdə tutulur.

Beləliklə, təqdim olunmuş məlumatlardan aydın olur ki, sosial siyasət davamlı inklüziv inkişafın vacib şərtidir. Sosial siyasətin səmərəliliyi bir sıra göstəricilər əsasında müəyyən edilir. Yoxsulluğun səviyyəsi, əhali arasında gəlirlərin bölünməsi, median gəlirlər bu göstəricilərə aiddir. İnklüziv inkişafın xüsusiyyəti ondadır ki, onun nəticələrini hər bir vətəndaş öz həyatında hiss edir. Bu səbəbdən bütün sosial göstəricilər, o cümlədən median gəlirlərin artması inklüziv inkişafın vacib şərtidir.

## *3.5. İnklüziv inkişaf prosesinin davamlılığını səciyyələndirən indikatorlar*

### *3.5.1. İnklüziv inkişafın davamlılığını səciyyələndirən göstəricilərin ümumi təsnifatı*

Bəllidir ki, davamlı inkişaf insan cəmiyyətinin idarə edilməsinin elə bir üsuludur ki, o, hazırkı nəsillərin rifahını təmin edir, gələcək nəsillərin inkişaf imkanlarını isə məhdudlaşdırmır. Dünya ictimaiyyəti davamlı inkişafı XXI əsrin və üçüncü minilliyin əsas prioriteti kimi qəbul etmişdir. Davamlı inkişafa keçidi təmin etmək üçün 2015-ci ilin sentyabr ayında keçirilən BMT-nin Baş Assambleyası və Dünya Sammiti 2030-cu ilədək nail olunası davamlı inkişaf məqsədlərini müəyyənləşdirmişdir. Davamlı inkişaf məqsədləri, eyni zamanda inklüziv inkişafa da xidmət edir. İnklüziv inkişaf edən cəmiyyətin qurulması və onun davamlılığının təmin edilməsi, gələcək nəsillərin maraqlarına xidmət etməsi, bu proseslərin optimal idarə edilməsi üçün davamlı inklüziv inkişaf prosesini səciyyələndirən indikatorlar haqqında biliklərin olması vacibdir.

Təhlillər əsasında müəyyən edilmişdir ki, gələcək nəsillərin inklüziv inkişafı üçün risklər müxtəlif səbəbdən yarana bilər. Bu səbəblərdən biri təbii, maddi və maliyyə ehtiyatlarından istifadənin kifayət dərəcədə optimal olmamasıdır. Ətraf mühitin çirklənməsi, qlobal ekoloji problemlər, o cümlədən iqlim dəyişmələri davamlı inklüziv inkişaf üçün mövcud olan digər bir risk mənbəyidir. Bu, eyni dərəcədə digər ekoloji problemlərə: ətraf mühitin çirklənməsinin insanların sağlamlığına və ***bioloji müxtəlifliyin (biomüxtəlifliyin)*** tükənməsinə təsirə də aiddir. Demoqrafik siyasətin reallaşdırılması zamanı yol verilən səhvlər də gələcək nəsillərin inklüziv inkişaf imkanlarını




***Şəkil 3.28.*** *İnklüziv inkişafın davamlılığını səciyyələndirən indikatorlar*

məhdudlaşdırır. İnsan inkişafı, əhalinin bilik və bacarıqlarının inkişafı davamlı inklüziv inkişafın əsas amilidir.

İnklüziv inkişafın davamlı olması yalnız o halda mümkündür ki, bu sahədə fəaliyyətin planlaşdırılması və idarə edilməsi zamanı hazırkı və gələcək nəsillərin maraqları nəzərə alınsın. Bu səbəbdən inklüziv inkişaf sahəsində həyata keçirilən tədbirlər zamanı gələcək nəsillərin həyat keyfiyyətinə təsir göstərə bilən amillərin əhəmiyyəti mütləq dəyərləndirilməlidir. Şəkil 3.28.-də inklüziv inkişafın davamlılığını səciyyələndirən indikatorlar haqqında məlumatlar təqdim olunmuşdur. Bu indikatorlardan inklüziv inkişaf indeksinin hesablanması prosesində istifadə olunur. Şəkildən göründüyü kimi, bu indikatorlar bəzi iqtisadi, demoqrafik və ekoloji göstəriciləri əhatə edir.

İnklüziv inkişafın davamlılığını və gələcək nəsillər üçün də keçərli olmasını səciyyələndirən iqtisadi indikator kimi xarici borcun həcmindən istifadə olunur. Eyni məqsədə xidmət edən inklüziv inkişafın digər iqtisadi göstəricisi kimi əmək ehtiyatlarının vəziyyəti təhlilə cəlb edilir. Bu zaman kəmiyyət indikatoru olaraq ***əhalinin asılılıq***

***səviyyəsi*** kimi demoqrafik göstəricidən istifadə təklif edilmişdir.

İqlimin qlobal dəyişmələri davamlı inklüziv inkişaf üçün növbəti risk mənbəyidir. Bu səbəbdən ***istixana qazlarının*** atmosferə tullanılan həcmi davamlı inklüziv inkişaf indikatorları sırasına daxil edilmişdir. Bütün bu indikatorlar əsasında inklüziv inkişafın davamlılığını və gələcəkdə də müşahidə olunub-olunmayacağını qiymətləndirmək mümkündür.

Bu bölmədə inklüziv inkişafın davamlı olmasına təsir göstərən amillər haqqında bilgilər təqdim edilir. Bu biliklər hazırkı və gələcək nəsillər üçün davamlı inklüziv inkişafın uğurlu planlaşdırılması və idarə edilməsi baxımından zəruridir.

### *3.5.2. Xarici borcun həcmi*

Ölkənin xarici borcunun həcmi davamlı inklüziv inkişafı səciyyələndirən indikatorlardan biridir. Bu indikator inklüziv inkişafın davamlı olması üçün çox önəmlidir. Məlumdur ki, dövlətin xarici borcu daimi xidmət tələb edir. Bu o deməkdir ki, alınan borca görə borc alan ölkə borc verən təşkilata müqavilədə nəzərdə tutulmuş faizlər ödəməlidir. Bu ödəmələrin həcmi alınan borcun həcmindən asılıdır. Borcun həcmi yüksək olduqda, ödənməli faizlər də yüksək olur. Dövlət borcu yüksək olarsa, elə bir vəziyyət yarana bilər ki, hazırkı nəsillərin aldığı borcların ağırlığı gələcək nəsillərin probleminə çevrilər. Bu səbəbdən, qəbul olunmuş standartlara görə, xarici borcun həcmi davamlı inklüziv inkişafın indikatorlarındandır.

Beynəlxalq statistikada ölkədə xarici borc ilə bağlı vəziyyət xüsusi göstərici ilə müəyyən edilir. Həmin göstərici xarici borcun həcmi və ölkənin iqtisadi potensialı




***Şəkil 3.29.*** *Bəzi ölkələrin xarici borcu, ÜDM-nin faizi.*
*Məlumat mənbəyi: Beynəlxalq Valyuta Fondu, 2018*

arasında nisbəti göstərir. Əgər xarici borc ölkənin iqtisadi potensialının az hissəsinə bərabərdirsə, o halda inklüziv inkişaf davamlı hesab edilə bilər. Əgər xarici borc böyükdürsə və ÜDM-nin əhəmiyyətli hissəsini təşkil edirsə, o halda bu borc gələcək nəsillər və inklüziv inkişaf üçün risk törədir.

Şəkil 3.29.-da təqdim olunmuş məlumatlar ölkələrin xarici borclarının XXI əsrin ikinci onilliyinə mövcud olan vəziyyətini əks etdirir. Şəkildən göründüyü kimi, müxtəlif ölkələrdə xarici borcla bağlı yaranmış vəziyyət fərqlidir. Çin Xalq Respublikasının xarici borcu yüksək deyil və ÜDM-nin yalnız 9 faizini təşkil edir. ABŞ-ın xarici borcu ölkə ÜDM-nin 100 faizinə yaxındır. Avropa İttifaqı ölkələrində xarici borc ÜDM ilə eyni səviyyədədir. Bu qrupa daxil olan ölkələr arasında ən böyük borc Yu-

nanıstanındır. Bu ölkənin xarici borcu ÜDM-nin 175 faizini təşkil edir.

Göründüyü kimi, xarici borcun həcmi ölkənin iqtisadi durumundan və bu sahədə həyata keçirilən siyasətdən asılıdır. Aydın olur ki, iqtisadi baxımdan yüksək inkişafa malik olan bir sıra ölkələrin xarici borcları çox yüksəkdir. Azərbaycan Respublikasının xarici borcu isə yüksək deyil. Bu sahədə bilgilər dərsliyin xüsusi bölməsində təqdim edilmişdir.

### *3.5.3. Demoqrafik asılılıq davamlı inklüziv inkişafın göstəricisi kimi*

İnklüziv inkişafın uzunmüddətli perspektivdə təmin edilməsi demoqrafik vəziyyət amilindən də çox asılıdır. Tarixi məlumatlar göstərir ki, 1000-ci ildə dünyada əhalinin sayı 300 milyona yaxın olmuşdur. Statistikaya görə, XX əsrin əvvəllərində dünya əhalisinin sayı 1,6 milyarda çatmışdır. XX əsrin ortalarında, 1950-ci ildə əhalinin sayı 2,5 milyard təşkil etmişdir. Hazırda dünyada 7,5 milyard insan yaşayır. BMT Əhali Fondunun proqnozlarına görə, 2050-ci ildə planetimizdə əhalinin sayı 10 milyarda çatacaq.

Dünyada əhalinin sayının artması ilə yanaşı, adambaşına istehlak da kəskin surətdə artmışdır. Yer üzündə əhali sayının belə sürətlə artması bir tərəfdən Asiya və Afrika ölkələrində yüksək doğum səviyyəsinin, digər tərəfdən isə əhali artımına təsir göstərən orta ömür müddətinin artmasının nəticəsidir. Bu iki faktor, eyni zamanda əhalinin yaş strukturunun dəyişməsindən də xəbər verir. İnklüziv inkişafın davamlılığı baxımından əhalinin yaş strukturunun dəyişməsi bu və ya digər ölkədə əməkyaşlı əhali ilə asılı yaşda əhalinin say nisbəti ilə bağlıdır. Do-

layısı ilə, ***əməkqabiliyyətli əhali*** ilə ***asılı yaşda*** olan əhalinin nisbəti davamlı inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi üçün çox önəmlidir. Beynəlxalq standartlara görə, asılı yaşda olan qrupa 0-14 və 65-dən yuxarı yaşlılar, əməkqabiliyyətli əhaliyə isə 15-64 yaşında olanlar aiddir. Demoqrafik asılılığın qiymətləndirilməsi hər yüz əməkqabiliyyətli vətəndaşın payına düşən uşaq və yaşlı şəxslərin sayının müəyyən edilməsi əsasında aparılır.

Asılılıq səviyyəsinə, eyni zamanda demoqrafik yük də deyirlər. Bu göstərici müxtəlif ölkələrdə fərqlidir. Beynəlxalq statistikaya görə, 100 əməkqabiliyyətli şəxsin payına ən çox asılı yaşlı şəxsin düşməsi faktı İsrail, bəzi Qərbi Avropa ölkələrində müşahidə edilməkdədir. Bu əskikliyi aradan qaldırmaq üçün bəzi ölkələrdə xüsusi proqramlar əsasında digər ölkələrdən vətəndaşların miqrasiyası təşkil edilir.




***Şəkil 3.30.*** *Müxtəlif ölkələrdə demoqrafik asılılıq.*
*Məlumat mənbəyi: BMT, Əhali Fondu, 2018*

Müxtəlif ölkələrdə mövcud asılılıq səviyyəsini göstərən məlumatlar şəkil 3.30.-da təqdim olunmuşdur.

Qeyd edilməlidir ki, əhalinin asılı qrupunda uşaq və yaşlıların sayından və nisbətindən asılı olaraq, demoqrafik yük müxtəlif cür qiymətləndirilir. Əgər asılılar qrupunda uşaqların sayı yaşlılardan əhəmiyyətli dərəcədə çoxdursa, bu, ***proqressiv demoqrafik struktur*** kimi dəyərləndirilir. Asılı qrupda uşaqların payı çox olan proqressiv demoqrafik struktur bir sıra Asiya və Afrika ölkələrində müşahidə olunur. Bu ölkələr sırasına Pakistan, Hindistan, Banqladeş, Nigeriya, Somali və bir sıra digər ölkələr daxildir. Proqressiv demoqrafik strukturla yanaşı, ***reqressiv demoqrafik struktur*** da məlumdur. Belə strukturun xüsusiyyəti ondadır ki, asılı qrupda əsas etibarilə yaşlılar təmsil olunmuşdur. Bu qruplarda 0-14 yaşlı əhali azlıq təşkil edir. Bir sıra ölkələrin, o cümlədən Avropa İttifaqına daxil olan ölkələrin demoqrafik strukturu reqressiv tipə aiddir. Yaranmış vəziyyətdən çıxış kimi bu ölkələr xarici işçi qrupunun cəlb edilməsi məqsədi ilə planlaşdırılmış miqrasiya siyasəti həyata keçirirlər.

Azərbaycan Respublikasında demoqrafik yük yüksək deyil və əhalinin demoqrafik strukturu proqressiv tip kimi səciyyələndirilir. Ölkəmizdə əhalinin demoqrafik strukturu inklüziv inkişafın davamlılığı baxımından əlverişli kimi qiymətləndirilə bilər. Bu xüsusiyyət həm də ölkənin inklüziv inkişaf əmsalına müsbət təsir göstərir. Azərbaycan Respublikasında davamlı inklüziv inkişafın planlaşdırılmasına və idarə edilməsinə dair biliklər dərsliyin növbəti bölmələrində təqdim olunur.

### *3.5.4. Qlobal iqlim dəyişmələrinə təsir davamlı inklüziv inkişafın göstəricisi kimi*

Bəşəriyyət qarşısında duran ən aktual qlobal problemlər arasında planetimizdə iqlim dəyişmələrinin qarşısının alınması xüsusi əhəmiyyət daşıyır. Qlobal iqlim dəyişmələrinin neqativ fəsadları artıq müşahidə edilməkdədir. Mütəxəssislərin fikirlərinə görə, son illər müşahidə edilən iqlim anomaliyaları, o cümlədən tezləşmiş və güclənmiş sunamilər, fırtınalar, daşqınlar, ***biomüxtəlifliyin*** tükənməsi və digər oxşar hadisələr qlobal iqlim dəyişmələri ilə əlaqədardır. Bəzi tədqiqatçılar zəlzələlərin tezləşməsi və güclənmə proseslərini də iqlim dəyişmələri ilə əlaqələndirirlər. Okeanların səviyyəsinin qalxması, suyun tərkibinin dəyişməsi, canlı aləm üçün digər belə fəsadlar da iqlim dəyişmələri ilə bağlıdır. Müxtəlif qitələrdə və fərqli mövsümlərdə ənənəvi iqlim sikllərindən müşahidə edilən




*Meksikada qlobal iqlim dəyişmələrinin fəsadları*



*Biomüxtəliflik*

kənarlaşmalar da qlobal iqlim dəyişmələrinin fəsadları kimi dəyərləndirilir.

Qlobal iqlim dəyişmələrinin başvermə səbəbləri kimi müxtəlif hadisələr göstərilir. Lakin aydındır ki, bu proseslərin baş verməsində insan fəaliyyətinin xüsusi rolu var. İnsanın təsərrüfat fəaliyyəti qlobal iqlim dəyişmələrinə müxtəlif yolla təsir edə bilir. Məsələn, meşələrin qırılması və bunun nəticəsi kimi meşəsizləşmə prosesi, sənaye, nəqliyyat, kənd təsərrüfatında fəaliyyət nəticəsində atmosferdə istixana qazlarının toplanması, ozon qatının dağılması və s. qlobal iqlim dəyişmələrinə təsir göstərən amillər kimi qəbul edilir.

Qlobal iqlim dəyişmələrinə daha çox təsir göstərən amil kimi yanacaq istifadəsinin genişlənməsi göstərilir.




***Şəkil 3.31.*** *Dünyada 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı atmosferə atılan karbon qazının qramla miqdarı. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

Bu istiqamətdə insanın fəaliyyəti atmosferə karbon qazının ($CO_2$) və digər istixana effekti yaradan qazların atılması ilə əlaqələndirilir. Bu səbəbdən karbon qazının atmosferə atılması, tullanan qazın miqdarı davamlı inklüziv inkişafın təmin edilməsinin vacib şərtidir.

Bunları nəzərə alaraq, $CO_2$-nin hər hansı bir ərazidə atmosferə atılması səviyyəsindən davamlı inklüziv inkişafın indikatoru kimi istifadə təklif edilmişdir. Qlobal iqlim dəyişmələrinə təsir göstərən bu amilin kəmiyyət göstəricisi kimi ÜDM-nin müəyyən bir həcminin istehsalı zamanı atmosferə atılan karbon qazının miqdarı götürülür. Ən geniş istifadə edilən üsul: 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı atmosferə atılan karbon qazının ($CO_2$) miqdarı (qram yaxud kiloqramla). Dünyada bu sahədə yaranmış vəziyyət şəkil 3.31.-də təqdim edilmişdir.




***Şəkil 3.32.*** *Dünya ölkələri tərəfindən il ərzində adambaşına karbon qazının atmosferə atılmasının tonla miqdarı. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

Şəkil 3.31.-dən aydın olur ki, dünyada texnoloji tərəqqi nəticəsində ÜDM-nin hər bir vahidinin istehsalı zamanı atmosferə atılan karbon qazının ($CO_2$) miqdarı azalmaqdadır. Alternativ enerjidən istifadənin genişlənməsi, ənənəvi enerji mənbələrindən istifadənin səmərəliliyinin yüksəldilməsi nəticəsində ÜDM-nin istehsalı zamanı karbon və digər istixana qazlarının atmosferə atılması daha az müşahidə edilir. Atmosferə atılan karbon dioksidin ümumi emissiyalarına gəldikdə, bir çox mənbədən göründüyü kimi, dünyada bu rəqəm daim artmaqdadır. Şəkil 3.32.-də bir sıra dünya ölkələri tərəfindən atmosferə atılan istixana qazları barəsində məlumatlar təqdim olunmuşdur.



*İstixana qazlarının atmosferə atılması*

Şəkil 3.32.-dəki məlumatlar göstərir ki, atmosferə istixana qazlarının atılması aktual qlobal problem kimi qalmaqdadır. Bəzi ölkələrdə istixana qazlarının atmosferə adambaşına atılma səviyyəsi yüksəkdir və artmaqdadır. Nəzərə alınmalıdır ki, dünyada əhalinin sayı da çoxalır. Bu onu göstərir ki, atmosferə atılan istixana qazlarının miqdarı və qlobal iqlim dəyişmələrinə təsirlər də artmaqdadır. Bəzi ölkələrin qlobal iqlim dəyişmələrinə təsiri xüsusilə böyükdür. Məsələn, nəzərə alınsa ki, Çin Xalq Respublikasının əhalisinin sayı 1,4 milyarddır, deməli, bu ölkə ətraf mühiti istixana qazları ilə daha çox çirkləndirir. ABŞ əhalisinin sayı 2017-ci ilin yekununa görə 325,7 milyondur. Nəzərə alınsa ki, bu ölkədə ildə adambaşına 16,5 ton $CO_2$ atmosferə atılır, bəlli

olur ki, ABŞ da iqlim dəyişməsinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. O da qeyd edilməlidir ki, ABŞ 2017-ci ilin iyun ayında iqlim dəyişməsinə dair çərçivə konvensiyasından çıxmışdır. Bu, ətraf mühitin istixana qazları ilə çirklənməsi ilə əlaqədar yaranmış çətin vəziyyəti daha da gərginləşdirir.

Göründüyü kimi, davamlı inklüziv inkişaf indikatoru olan istixana qazlarının atmosferə atılması ilə dünyada yaranmış vəziyyət birmənalı deyil. Bu göstərici davamlı inklüziv inkişaf indeksində də öz əksini tapır. Atmosferə yüksək həcmdə istixana qazları atan ölkələrin inklüziv inkişaf indeksi yuxarı olmur.

Qeyd edilməlidir ki, son on beş ildə Azərbaycan Respublikasında atmosferə atılan $CO_2$-nin miqdarı kəskin surətdə azalmışdır. Ölkəmizin bu istiqamətdə qazandığı nailiyyətlər dərsliyin xüsusi bölməsində təqdim edilmişdir.

Beləliklə, deyə bilərik ki, inklüziv inkişafın indikatorları barədə bilgilər bu prosesin planlaşdırılması və səmərəli idarə edilməsi üçün şərait yaradır.

### *3.6. İnklüziv inkişaf indeksi*

Dərsliyin bu bölməsində təqdim olunmuş bilgilərə əsaslanıb deyə bilərik ki, bir sıra indikatorlar vasitəsilə hər hansı bir ölkənin inklüziv inkişafa keçid üçün hazırlığını dəyərləndirmək olar. İnklüziv cəmiyyətin formalaşması prosesinin əsasında mövcud maddi və insan resurslarının olması durur. Bu iki amilin təbiəti və onların vəziyyətinin dəyərləndirilmə üsulları dərsliyin bu bölməsində təqdim edilmişdir. İqtisadi indikatorların təhlili əsasında cəmiyyətin inklüziv cəmiyyət səviyyəsinə keçməyə hazır olması qiymətləndirilir. Lazım olduğu halda inklüziv inkişaf edən

cəmiyyətin səviyyəsinə qalxmaq üçün tədbirlər planlaşdırılır və həyata keçirilir.

İnklüziv inkişafın iqtisadi bazasını lazımi səviyyəyə qaldırandan sonra növbəti mərhələdə sosial sahənin vəziyyətinin təhlilinə başlanılır. Sosial indikatorların təhlili əsasında cəmiyyətin sosial durumunun inklüziv cəmiyyətin tələblərinə uyğun olması müəyyən edilir. Ehtiyac olduğu halda bu istiqamətdə mövcud olan çatışmazlıqlar müəyyənləşdirilir və onların bərpası üçün tədbirlər həyata keçirilir. İnklüziv inkişafın üçüncü komponenti olan və onun davamlılığının təmin edilməsində əhəmiyyətli rol oynayan indikatorlar da eyni yolla təhlil edilir və ehtiyac olduğu halda təkmilləşdirilir.

Beləliklə, iqtisadiyyat, sosial sahə və prosesin davamlılığına aid olan 12 müxtəlif indikatorun təhlili əsasında ölkənin inklüziv inkişaf edən cəmiyyətə keçid potensialı qiymətləndirilir. Aydındır ki, bu dəyərləndirmə hansısa kəmiyyət göstəriciləri əsasında həyata keçirilməlidir. Bu məqsədlə ***İnklüziv İnkişaf İndeksi*** adlı göstəricidən istifadə edilir. Bu indeksin hesablanması beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Hesablamalarda istifadə olunan indikatorlar haqqında biliklər hazırkı dərslikdə təqdim edilmişdir.

***İnklüziv inkişaf indeksi*** beynəlxalq inkişaf institutları tərəfindən hesablanır. Son dəfə bu hesablamalar Dünya İqtisadi Forumu (Davos, İsveçrə) tərəfindən dərc edilmişdir. Forumun bilgilərinə görə, Azərbaycan Respublikasının bu sahədə qazandığı nailiyyətlər çox yüksəkdir. Bu uğurların əsasında duran proseslər haqqında bilgilər dərsliyin növbəti bölmələrində təqdim olunmuşdur.

### *3.7. Özümüzü sınayaq: sual və tapşırıqlar*

1. İnklüziv inkişafı xarakterizə edən indikator qruplarını sadalayın.
2. İnklüziv inkişafın iqtisadi indikatorları hansılardır?
3. İnklüziv inkişafın sosial indikatorları hansılardır?
4. İnklüziv inkişafın davamlılığını xarakterizə edən indikatorları sadalayın və təsvir edin.
5. Median gəlir nədir və bu göstəricidən necə istifadə edilir?
6. Demoqrafik yük səviyyəsi nədir?
7. Demoqrafik strukturun proqressiv və reqressiv tipləri hansılardır?
8. Xarici borcun həcmi inklüziv inkişafa necə təsir edir?
9. Əhali arasında gəlirlərin bölünməsini xarakterizə edən hansı göstəricilərdən istifadə edilir?
10. Cini indeksi və Kvintil nisbəti nədir?

# 4. İNKLÜZİV İNKİŞAFIN İDARƏ EDİLMƏSİNDƏ MÜASİR TEXNOLOGİYALAR

*Cəmiyyətin inkişafında idarəetmə texnologiyalarının rolu. Biliyə əsaslanan inkişaf inklüziv inkişafın amili kimi. İnklüziv inkişafın idarə edilməsində inklüziv texnologiyalar. Komplementar texnologiyaların inklüziv inkişafın idarə edilməsində istifadəsi. İnklüziv inkişaf məqsədlərinin həyata keçirilməsində kompensasion texnologiyaların rolu. Sinergetik, komplementar və kompensasion texnologiyalar kompleksinin inklüziv inkişaf prosesində istifadəsi.*


*4.1. Bölmənin məqsədi*
*4.2. Açar söz və anlayışlar*
*4.3. İnklüziv inkişafın formalaşmasında müxtəlif amillərin rolu*
*4.4. İnklüziv inkişaf edən cəmiyyətdə təbii ehtiyatların rolu*
*4.5. İnklüziv cəmiyyətin formalaşmasında maliyyə resurslarının rolu*
*4.6. İnsan inkişafı inklüziv inkişafın amili kimi*
*4.7. İdarəetmə texnologiyalarının inklüziv inkişafın təşkilində əhəmiyyəti*
*4.8. İnklüziv inkişaf məqsədlərinin formalaşması*
*4.9. İnklüziv inkişafın idarə edilməsində innovativ texnologiyalar*
*4.10. İnklüziv inkişafın idarə edilməsində sinergetik texnologiyalar*
*4.11. İnklüziv inkişafın idarə edilməsində komplementar texnologiyalar*
*4.12. İnklüziv inkişafın idarə edilməsində kompensasion texnologiyalar*
*4.13. Özümüzü sınayaq: sual və tapşırıqlar*

## 4.1. Bölmənin məqsədi

Dərsliyin ilk bölmələrində göstərilmişdir ki, bəşəriyyət cəmiyyət inkişafının hazırkı mərhələsində bir sıra yeni və güclənən çağırışlarla üzləşmişdir. Bu çağırışlar fərqli sahələrə – iqtisadi, sosial, ekoloji və humanitar sahələrə aiddir. Dünyada iqtisadi və sosial sahələrdə müşahidə edilən böhranlar, bir çox ölkələri əhatə etmiş hərbi münaqişələr, tənzimlənməyən miqrasiya, qlobal iqlim dəyişmələri – bütün bu proseslərin ciddi fəsadları cəmiyyətin inkişafının idarə olunması sahəsində yeni yanaşmaların formalaşmasını tələb edir. Dünya ictimaiyyəti tərəfindən qəbul edilmişdir ki, inklüziv inkişaf bu çağırışlara layiqli cavabdır. İnklüziv cəmiyyətin qurulması, ilk növbədə, bu prosesi şərtləndirən amillər haqqında biliklərin olmasını zəruri edir.

Dərsliyin bundan əvvəlki bölməsi inklüziv cəmiyyətin formalaşmasını müəyyən edən amillərin öyrənilməsinə həsr olunmuşdur. Müəyyən edilmişdir ki, iqtisadi və sosial indikatorlar, ətraf mühitin keyfiyyəti haqqında məlumatlar inklüziv inkişafın planlaşdırılması və idarə edilməsində istifadə oluna bilər.

İnklüziv inkişaf edən cəmiyyətin formalaşması bu prosesə təsir göstərən, onun sürətini artıran və keyfiyyətini yüksəldən amillər haqqında biliklərin olmasını tələb edir. Bu biliklər inklüziv inkişafın vəziyyəti haqqında məlumatların alınması, bu yolla inkişaf edən cəmiyyətin formalaşması üçün olduqca əhəmiyyətlidir. Lakin bu məqsədə çatmaq üçün davamlı inklüziv cəmiyyətin qurulmasını təmin edən dövlət idarəçilik texnologiyaları, onların tətbiqi haqqında biliklərin olması da vacibdir.

Aydındır ki, inklüziv inkişafın təmin edilməsilə əlaqədar problemlərin həlli yalnız daim yeniləşən bilik, müasir idarəetmə texnologiyaları vasitəsi ilə həll edilə bilər. Hazırkı bölmədə təqdim olunmuş bilgilər göstərir ki, cəmiyyətin inklüziv inkişaf yolu yalnız idarəetmə proseslərinin optimallaşdırılmasından, iqtisadi və sosial sahədə fəaliyyəti həyata keçirərkən innovativ texnologiyalardan istifadədən keçir. Bölməni təqdim etməkdə məqsəd iqtisadi, sosial, ekoloji və humanitar sahədə mövcud problemlərin vahid layihə çərçivəsində həlli yolları sahəsində biliklərin formalaşdırılmasıdır. ***Sinergetik, komplementar və kompensasion*** idarəetmə texnologiyaları, onlardan ayrılıqda və kompleks şəkildə yararlanmaq inklüziv inkişafın idarə edilməsində çox önəmli əhəmiyyət daşıyır. Bölmədə təqdim olunmuş məlumatlara əsaslanıb davamlı inklüziv inkişaf naminə bilik və vərdişləri formalaşdırmaq mümkündür.

### *4.2. Açar söz və anlayışlar*

*İdarəetmə metodları; Sinergizm; İnkişaf proseslərinin idarə edilməsində sinergetik texnologiyalar; Komplementarlıq; İnkişaf proseslərinin idarə edilməsində komplementar texnologiyalar; Kompensatorluq; İdarəetmədə kompensator texnologiyalar; İnsan inkişafı; İnsan inkişafı indeksi; Alıcılıq qabiliyyəti pariteti (AQP); İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı; Benefisiar.*

### *4.3. İnklüziv inkişafın formalaşmasında müxtəlif amillərin rolu*

Müasir dünya çox müxtəlifdir. Bu müxtəliflik həm təbii, həm mədəni, həm də iqtisadi və sosial sahələrdə müşahidə edilir. Bu gün dünyada rəsmi tanınan 197 ölkə mövcuddur ki, onların 193-ü BMT üzvü kimi fəaliyyət göstərir. BMT, Dünya Bankı, digər beynəlxalq təşkilatlar tərəfindən dərc edilən hesabatlardan aydın olur ki, bu ölkələrin iqtisadi və sosial göstəriciləri, onların inklüziv cəmiyyətə keçid üçün mövcud potensialları fərqlidir. Bu fərqlər həm təbii ehtiyatların, həm də iqtisadi, sosial və insan potensialının zənginliyinə aiddir. Dünyada əhalisi yüz milyonlarla olan bir sıra ölkələr məlumdur ki, onların iqtisadi, sosial və insan potensialının hazırkı vəziyyəti inklüziv inkişaf üçün əlverişli hesab edilə bilməz. Əhalisinin sayı milyardlarla olan Çin və Hindistanda insan potensialı yetərli sayılsa da, inklüziv inkişafın təmini üçün zəruri iqtisadi, sosial və ekoloji göstəricilər tələb olunan səviyyədə deyil.

Aparılan təhlillər göstərir ki, hər hansı bir ölkənin inklüziv inkişafı bir çox amillərdən asılıdır. Bu amillərə ölkənin ərazisinin böyük və ya kiçikliyi, əhalinin sayı aid deyil. Aydındır ki, inklüziv inkişaf edən ölkənin formalaşması biliklərə əsaslanmalıdır. Bu, ilk növbədə, inklüziv cəmiyyətin formalaşması üçün ən optimal idarəetmə texnologiyalarının seçilməsindən, bu sahədə mövcud olan bilik və bacarıqlardan asılıdır.

İnklüziv inkişaf üçün əlverişli şəraitin yaradılması ölkələrdə ehtiyatların zənginliyi ilə əlaqədardır. Bu, həm təbii, həm də maliyyə ehtiyatlarına aid edilə bilər. Bu iki ehtiyat bir-biri ilə sıx bağlıdır. Təbii ehtiyatların

zənginliyi, onlardan səmərəli istifadə ölkəyə maliyyə vəsaitlərinin cəlbini təmin edir. Digər tərəfdən, maddi vəsaitin ölkəyə daxil olması təbii ehtiyatların yeni mənbələrinin axtarışı, bu sahədə tədqiqatların aparılması, istismarda olan təbii ehtiyatların işlənilmə texnologiyalarının təkmilləşdirilməsi üçün şərait yaradır. Maliyyə mənbələrinin mövcudluğu elmin və keyfiyyətli təhsilin, insan potensialının inkişafına xidmət edir. Bu isə inklüziv inkişafın vacib şərtidir. Məlumdur ki, insan potensialının inkişafı innovasiyaların vacib mənbəyidir ki, bu da inklüziv inkişafa xidmət edir.

Dünya Bankı və digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış hesabatların təhlili əsasında qənaətə gəlmək olur ki, təbii ehtiyatların zənginliyi özlüyündə inklüziv inkişaf üçün kifayət deyil. Məsələn, 2018-ci ilin sentyabr ayında Dünya Bankı tərəfindən dərc edilmiş hesabatlara əsasən, Afrika ölkəsi olan Ekvatorial Qvineyada il ərzində adambaşına gəlir, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, 24 817 ABŞ dolları təşkil edib. Təxminən bu səviyyədə gəlirlər Avropa ölkəsi olan Yunanıstanda da qeydə alınmışdır. İqtisadi imkanların eyni səviyyədə olmasına baxmayaraq, BMT-nin hesabatına əsasən, Yunanıstan 193 ölkə arasında 29-cu, Ekvatorial Qvineya isə 136-cı yerdədir. Davos Dünya İqtisadi Forumunun 2018-ci il üçün hazırladığı hesabata əsasən, Xorvatiyanın inklüziv inkişaf indeksi 4,49-a bərabərdir və bu ölkə keçid iqtisadiyyatına malik ölkələr arasında yeddinci yerdədir. Ekvatorial Qvineya isə bu siyahıda ümumiyyətlə təmsil olunmayıb. Bu onu göstərir ki, iqtisadi imkanlar inklüziv inkişaf üçün vacib olsa da, inklüziv inkişafa zəmanət verə bilməz.




*Şəkil 4.33. İnklüziv inkişafa təsir göstərən əsas amillər*

Bu misal göstərir ki, maddi imkanlarla yanaşı, digər amillər də mövcuddur ki, onların istifadəsi inkişafa yönəlik uğurları şərtləndirir. İdarəetmə bu amillər arasında ən önəmlisidir. İnsanların ümumi təhsili, mədəniyyəti inklüziv cəmiyyətin formalaşmasının vacib şərtidir (şə-kil 4.33.).

Beləliklə, aydın olur ki, inklüziv cəmiyyətin formalaşdırılması, onun davamlılığı və gələcək nəsillər üçün təmin edilməsi bir sıra amillərin mövcudluğundan asılıdır. Müxtəlif amillərin ayrılıqda və kompleks şəkildə inklüziv inkişafa təsirinə dair bilgilər hazırkı dərsliyin növbəti bölmələrində təhlil edilir.

## *4.4. İnklüziv inkişaf edən cəmiyyətdə təbii ehtiyatların rolu*

Bəşəriyyətin qlobal maraqlarına cavab verən inklüziv inkişaf dünyanın bütün ölkələri üçün prioritetdir. İnklüziv inkişafın əhəmiyyəti ondadır ki, bu innovativ inkişaf yolu dövlətin

hərtərəfli inkişafını təmin edir. Eyni zamanda hər bir vətəndaş real həyatda inklüziv inkişafın müsbət nəticələrini hiss edir.

Şəkil 4.33.-də inklüziv inkişaf edən cəmiyyətin formalaşması üçün əhəmiyyət daşıyan amillər haqqında məlumat təqdim olunmuşdur. Bu amillər inklüziv cəmiyyətə keçidin planlaşdırılması və idarə edilməsi üçün vacibdir. Onu da qeyd edək ki, inklüziv inkişafa təsir göstərən amillərin əhəmiyyəti müxtəlif ölkələrdə fərqli ola bilər. Hazırkı bölmədə təbii ehtiyatların mövcudluğu və zənginliyi, onların optimal idarə edilməsinin inklüziv inkişafa təsiri təhlil edilir.

Müstəqil beynəlxalq ekspertlərin dəyərləndirmələrinə əsasən, bəzi ölkələr təbii ehtiyatlarla o dərəcədə zəngindir ki, bu ehtiyatlar «yerə səpələnən pul» kimi səciyyələndirilir. Bu ölkələrdə olan təbii ehtiyatların təxmini dəyəri haqqında məlumatlar cədvəl 4.2.-də təqdim edilib.

***Cədvəl 4.2.*** Ən çox təbii ehtiyatlara malik ölkələr

| Ölkə | Əsas təbii ehtiyatlar | Təbii ehtiyatların təxmini dəyəri |
|---|---|---|
| **Rusiya Federasiyası** | Meşə, neft, qaz, kömür, qızıl | 75 trilyon ABŞ dolları |
| **ABŞ** | Meşə, neft, qaz, kömür, qızıl, mis | 45 trilyon ABŞ dolları |
| **Səudiyyə Ərəbistanı** | Neft, qaz | 34,4 trilyon ABŞ dolları |
| **Kanada** | Meşə, neft, uran | 33,2 trilyon ABŞ dolları |
| **İran** | Neft, qaz | 27,3 trilyon ABŞ dolları |
| **Çin Xalq Respublikası** | Meşə, kömür | 23 trilyon ABŞ dolları |

Cədvəl 4.2.-də göstərilir ki, hazırda bir sıra ölkələrdə təbii ehtiyatlar kifayət qədər çoxdur və bu təbii ehtiyatların spesifik xüsusiyyətləri var. Belə ki, Rusiya Federasiyasında, ABŞ, Kanada və Çin Xalq Respublikasında təbii ehtiyatların bir hissəsi bərpa olunandır. Məsələn, Rusiya Federasiyasında təbii ehtiyatların ümumi dəyərindən 28,5 trilyon ABŞ dolları meşə ehtiyatlarının payına düşür. Bu o deməkdir ki, Rusiya Federasiyasının təbii ehtiyatlarının ən azı 38 faizi bərpa olunandır və onların istismarı zamanla məhdudlaşdırıla bilməz. ABŞ-da meşə ehtiyatlarının dəyəri 11 trilyon ABŞ dolları təşkil edir. Bu o deməkdir ki, bərpa olunan təbii ehtiyatlar bu ölkənin bütün ehtiyatlarının 24,4 faizini təşkil edir.

Müxtəlif ölkələrdə təbii ehtiyatların zənginliyi inklüziv inkişaf üçün əlverişli şərt kimi dəyərləndirilir. Təbii ehtiyatlar, eyni zamanda bərpa olunan qrupa aid olarlarsa, inklüziv inkişafın davamlılığı imkanları daha da genişlənir.

Beynəlxalq dəyərləndirmələrə görə, çox yüksək təbii ehtiyatlara malik ölkələr sırasına Avstraliya, Braziliya, İraq, Venesuela, Çin, İran, Kanada, Səudiyyə Ərəbistanı, Rusiya, ABŞ və s. daxildir. Bu qrupa aid olan bəzi ölkələr üçün 2018-ci ildə İnklüziv İnkişaf İndeksləri hesablanmışdır. Şəkil 4.34.-də təbii ehtiyatlarla zəngin ölkələrin inklüziv inkişaf indeksləri haqqında məlumatlar təqdim olunmuşdur. Şəkildə yalnız beynəlxalq təşkilatlar tərəfindən inklüziv inkişaf indeksləri hesablanan ölkələr haqqında məlumatlar verilib.

Şəkil 4.34.-də zəngin təbii ehtiyatlara malik ölkələr sırasında beynəlxalq təşkilatların təsnifatına görə Azərbaycan Respublikasına aid məlumatlar da verilib. Məlumdur ki, Azərbaycan təbii sərvətlərə malik olsa da,



*Azərbaycan Respublikasında «Şahdəniz» qaz-kondensat yatağı*

beynəlxalq təsnifata görə, ölkəmiz təbii sərvətlərlə zəngin ölkələr qrupuna daxil deyil. Lakin Azərbaycan inklüziv inkişaf əmsalına görə bir sıra təbii ehtiyatlarla zəngin ölkələri də geridə qoyub. Bu onun nəticəsidir ki, müstəqilliyimizin bərpasından sonra, xüsusilə son 15 ildə, Azərbaycan iqtisadi və sosial sahələrdə, həmçinin təbii ehtiyatların optimal idarə edilməsi sahəsində çox yüksək nəticələr əldə etmişdir. Beynəlxalq təşkilatların dəyərləndirmələrinə görə, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi bir çox inkişaf etmiş ölkələrinkindən üstündür. Bu ölkələr arasında «böyük yeddilik» (G7), İƏİT, Avropa İttifaqına üzv dövlətlər də vardır.

Şəkil 4.34.-dəki məlumatlardan aydın olur ki, təbii sərvətlərin zənginliyi inklüziv inkişaf sahəsində yüksək nəticələrin alınmasına zəmanət vermir. Bu ondan irəli gəlir ki,




***Şəkil 4.34.*** *Təbii ehtiyatları zəngin olan ölkələr və Azərbaycan Respublikasının inklüziv inkişaf indeksləri.*
*Məlumat mənbəyi: Ölkələrin inklüziv inkişaf indeksləri, Davos, 2018*

təbii sərvətlərlə zəngin olan ölkələrin inklüziv inkişaf indeksləri əhəmiyyətli dərəcədə fərqlənə bilər. Məsələn, Avstraliyanın inklüziv inkişaf indeksi (İİİ) çox yüksəkdir və 5,36 təşkil edir. Təbii ehtiyatlarla zəngin olan Braziliyada İİİ cəmi 3,93 bərabərdir, yəni Avstraliyanın göstəricisindən 1,4 dəfə azdır. Düşünmək olar ki, belə böyük fərqin mövcudluğu təbii ehtiyatların müxtəlif səmərə ilə idarə edilməsinə bağlıdır. Eyni zamanda qeyd edilməlidir ki, Azərbaycan Respublikasında təbii ehtiyatlar Braziliya ilə müqayisədə nisbətən azdır. Buna baxmayaraq, Azərbaycanın inklüziv inkişaf indeksi Braziliyadan xeyli yüksəkdir və 4,69 təşkil edir.

Təqdim olunmuş məlumatlar, onların təhlili göstərir ki, təbii ehtiyatlar ölkənin uğurlu inkişafı və bu prosesin

inklüzivliyi baxımından çox önəmlidir. Lakin ən yüksək nailiyyətlərin əldə edilməsi bu ehtiyatların idarə edilməsindən asılıdır. Səmərəli idarəetmə isə insan potensialından, əhalinin bilik və bacarıqlarından, təhsil səviyyəsindən asılı ola bilər. Məsələn, BMT-nin məlumatlarına görə, inklüziv inkişaf sahəsində daha yüksək nəticələr əldə etmiş Avstraliyada əhalinin 94,4 faizinin ən azı orta təhsili var. Braziliyada isə bu rəqəm cəmi 53,6 faiz təşkil edir.

Təbii ehtiyatların inklüziv inkişafın vacib amili olması şübhəsizdir. Lakin aparılan təhlillərdən aydın olur ki, bu sahədə uğurların qazanılması optimal idarəetmədən, mövcud bilik və bacarıqların təkmilləşdirilməsindən asılıdır. Bunu Azərbaycan Respublikasının timsalında da müşahidə etmək olar. Azərbaycanın uğurlarını təmin edən yeni innovativ idarəetmə texnologiyalarına aid biliklər dərsliyin sonrakı bölmələrində təqdim olunmuşdur.

### *4.5. İnklüziv cəmiyyətin formalaşmasında maliyyə resurslarının rolu*

Hər hansı bir planlaşdırılmış layihənin, yaxud tədbirin həyata keçirilməsi üçün maliyyə mənbələrinin mövcudluğu və həcmi olduqca vacib şərtdir. Bu, şübhəsiz ki, bütün növ fəaliyyətlərə, o cümlədən inklüziv inkişafın planlaşdırılmasına və idarə edilməsinə aiddir. Maliyyənin olmaması və ya çatmaması hər hansı bir layihənin həyata keçirilməsi imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Bu səbəbdən maliyyə mənbələrindən, o cümlədən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi üçün nəzərdə tutulan vəsaitlərdən səmərəli istifadə edilməlidir. Dərsliyin

bu bölməsində inklüziv inkişaf üçün nəzərdə tutulmuş maliyyə vəsaitlərinin optimal idarə edilməsinə dair biliklər təqdim edilir.

Təhlillər göstərir ki, mövcud olan maddi imkanlarla inklüziv inkişaf edən cəmiyyətin formalaşması arasında əlaqələr məhduddur. Elə bu səbəbdən də eyni iqtisadi imkanlara malik ölkələr inklüziv inkişaf sahəsində fərqli nailiyyətlər əldə edirlər. Cədvəl 4.3.-də müxtəlif ölkələrdə mövcud gəlirlərlə inklüziv inkişaf arasında əlaqə nümayiş etdirilib. Gəlirlər adambaşına ümumdaxili məhsulun həcmi, inklüziv inkişaf isə müvafiq indeks vasitəsi ilə dəyərləndirilir.

Cədvəl 4.3.-də keçid iqtisadiyyatına malik ölkələrin iqtisadi potensialı haqqında və inklüziv inkişaf göstəriciləri barədə məlumatlar təqdim edilmişdir. Cədvəldə təqdim olunmuş məlumatlar göstərir ki, iqtisadi imkanlar və inklüziv inkişaf arasında bilavasitə əlaqə müşahidə olunmur. Avropa İttifaqının üzvü olan iki ölkənin göstəricilərinin müqayisəli təhlili bu məqama aydınlıq gətirməyə imkan verir. Məsələn, Macarıstanda adambaşına ümumdaxili məhsulun həcmi, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, ildə 28 375 ABŞ dolları təşkil edir. Bu, Avropa İttifaqının üzvü olan Polşanın eyni göstəricisindən azdır. Polşada ümumdaxili adambaşına gəlir, alıcılıq qabiliyyəti paritetini nəzərə almaqla, 29 291 ABŞ dolları təşkil edir. Buna baxmayaraq, Macarıstanın inklüziv indeksi 4,74-ə bərabərdir. Göründüyü kimi, Macarıstanda inklüziv inkişaf sahəsində qazanılan nəticələr iqtisadi baxımdan daha zəngin olan Polşada qazanılan nəticələrdən yüksəkdir.

**Cədvəl 4.3.** Bəzi, o cümlədən Avropa İttifaqı və İƏİT üzvü olan ölkələrin inklüziv inkişaf indeksləri və ÜDM-nin həcmi. Məlumat mənbələri: Dünya Bankı, Dünya İqtisadi Forumu, 2018

| Ölkə | İnklüziv inkişaf indeksi | Adambaşına gəlirlər (ÜDM) , ABŞ dolları AQP* ilə |
|---|---|---|
| **Litva** | 4,86 | 32 095 |
| **Macarıstan** | 4,74 | 28 375 |
| **Azərbaycan** | **4,69** | **17 398** |
| **Latviya** | 4,67 | 27 598 |
| **Polşa** | 4,61 | 29 291 |
| **Rumıniya** | 4,43 | 25 840 |
| **Bolqarıstan** | 4,41 | 20 329 |
| **Qazaxıstan** | 4,26 | 26 409 |
| **Türkiyə** | 4,26 | 27 916 |
| **Rusiya** | 4,20 | 25 533 |

* Alıcılıq qabiliyyəti pariteti

Bu qanunauyğunluq digər bir müqayisədə də öz təsdiqini tapıb. Bu müqayisədə keçmiş Sovet İttifaqının üzvü olmuş üç ölkə – Azərbaycan, Qazaxıstan və Rusiya Federasiyasının göstəriciləri tutuşdurulur. Bu üç ölkə arasında inklüziv inkişaf sahəsində ən yüksək nəticələri Azərbaycan Respublikası qazanmışdır. Beynəlxalq təşkilatların dəyərləndirmələrinə görə, Azərbaycan Respublikasında ***İnklüziv İnkişaf İndeksi (İİİ)*** 4,69-a bərabərdir. Qazaxıstan və Rusiya Federasiyasında inklüziv inkişaf indeksləri, müvafiq olaraq, 4,26 və 4,20-yə bərabərdir. O

da qeyd edilməlidir ki, Azərbaycan Respublikasında adambaşına ümumdaxili məhsul göstəricisi Qazaxıstan və Rusiyadan aşağıdır. Bu, bir daha göstərir ki, inklüziv inkişaf sahəsində qazanılan nəticələr daha çox bu sahənin optimal idarə edilməsi ilə əlaqədardır.

Cədvəl 4.3.-də 10 ölkədəki gəlirlərin səviyyəsi və inklüziv inkişaf indekslərini əks etdirən məlumatlar təqdim olunmuşdur. Beynəlxalq təşkilatların məlumatlarına əsasən, bu qrupda adambaşına ən aşağı gəlirlər Azərbaycan Respublikasında müşahidə edilmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikası inklüziv inkişaf göstəricilərinə görə, bu qrupda üçüncü yerdədir. Bu, bir daha göstərir ki, cəmiyyətin hərtərəfli inkişafını təmin edən, vətəndaşların rifahının yüksəlməsinə müsbət təsir göstərən inklüziv inkişaf yalnız iqtisadi imkanlarla məhdudlaşmır. İnklüziv inkişaf sahəsində qazanılan nailiyyətlərin əsasında innovativ idarəetmə texnologiyalarının rolunun olması şübhəsizdir.

Bu qənaət adambaşına gəlirləri yüksək olan ölkələrdə inklüziv inkişaf vəziyyətinin təhlilindən də aydın olur. Cədvəl 4.4.-də adambaşına gəlirləri 50 000 və ondan çox ABŞ dolları olan ölkələr haqqında məlumatlar təqdim edilmişdir. Cədvəldə ölkələr adambaşına gəlirlərin həcmi əsasında sıralanmışdır.

Cədvəl 4.4.-də təqdim olunmuş məlumatlar bir daha göstərir ki, ölkələrdə hətta gəlirlərin çox yüksək səviyyədə olması belə müvafiq dərəcədə inklüziv inkişafı təmin etmir. Məsələn, cədvəl 4.4.-də adları çəkilən 8 ölkə arasında ABŞ gəlirlərin səviyyəsinə görə üçüncüdür. Lakin bu ölkə inklüziv inkişaf göstəricisinə görə həmin qrupda son yerdədir. Cədvəldən göründüyü kimi, ABŞ-da adambaşına gəlirlər İsveç vətəndaşlarının gəlirlərindən 19 faiz

çoxdur. Amma buna baxmayaraq, İsveçdə İnklüziv İnkişaf İndeksi ABŞ-dan 21 faiz yüksəkdir. İsveçin nümunəsi bir daha göstərir ki, hətta az vəsait hesabına davamlı inklüziv inkişaf sahəsində yüksək nəticələr almaq mümkündür.

**Cədvəl 4.4.** Adambaşına gəlirləri yüksək olan ölkələrdə inklüziv inkişaf göstəriciləri

| Ölkə | İnklüziv inkişaf indeksi | Adambaşına gəlirlər (ÜDM) , ABŞ dolları, AQP nəzərə alınmaqla |
|---|---|---|
| **İsveçrə** | 6,06 | 65 006 |
| **Norveç** | 6,08 | 60 978 |
| **ABŞ** | 4,60 | 59 531 |
| **İslandiya** | 6,07 | 53 518 |
| **Niderland** | 5,61 | 52 541 |
| **Avstriya** | 5,36 | 52 537 |
| **Almaniya** | 5,27 | 50 715 |
| **İsveç** | 5,76 | 50 069 |

Göstərilən fərqin əsasında həmin ölkələrdə həyata keçirilən sosial siyasət durur. Bu iki ölkədə inklüziv inkişafın sosial göstəricilərinin müqayisəsi qeyd edilənlərin sübutudur. Bu ölkələrdə ***Cini indeksini*** müqayisə etdikdə, o da aydın oldu ki, bu göstərici İsveçdə daha aşağıdır. Bu onu göstərir ki, İsveçdə ABŞ ilə müqayisədə gəlirlər daha ədalətli bölünür. Göstərilən müqayisələrdən belə qənaətə gəlmək olar ki, maliyyənin həcmi inklüziv inkişaf

üçün o halda daha əhəmiyyətlidir ki, bu mənbə düzgün idarə edilsin.

Beləliklə, təqdim olunmuş məlumatlar göstərir ki, inklüziv inkişafın idarə edilməsi kompleks yanaşma tələb edir. Təbii ehtiyatların zənginliyi, maliyyə mənbələrinin mövcudluğu inklüziv inkişafın vacib şərtləri olsa da, onlar uğurların qazanılması üçün yetərli deyil. Göstərilən mənbələrin düzgün idarə edilməsi inklüziv inkişaf və onun davamlılığını təmin edən əsas şərtdir. Bu isə insan potensialının inkişafından asılıdır. İnklüziv inkişafın insan potensialının inkişafından asılılığına dair biliklər növbəti bölmədə təqdim olunur.

### *4.6. İnsan inkişafı inklüziv inkişafın amili kimi*

Hazırkı bölmədə inklüziv inkişafın insan inkişafı ilə əlaqəsi təhlil edilir. Bəlli olduğu kimi, *«**insan inkişafı**»* termini insanların təhsil səviyyələrinin yüksəlməsini, onların sağlamlıq göstəricilərinin və maddi durumlarının yaxşılaşmasını nəzərdə tutur. Beynəlxalq standartlara görə, insan inkişafının kəmiyyət göstəricisi ***insan inkişafı indeksidir***. Aydındır ki, insan inkişafının səviyyəsi inklüziv inkişafa təsir göstərən vacib amildir. Bu ondan irəli gəlir ki, yalnız insan inkişafının yüksək, təhsil, bilik və bacarıqların lazımi səviyyədə olduğu halda inklüziv inkişaf üçün önəmli olan təbii və maliyyə ehtiyatları düzgün idarə edilə bilər. İnklüziv inkişafın insan inkişafından asılılıq dərəcəsini öyrənmək üçün xüsusi təhlillər aparılmışdır. Bu təhlillərin məqsədi insan inkişafı və inklüziv inkişaf indeksləri arasında olan əlaqələrin müəyyən olunmasıdır. Təhlillərin nəticələri cədvəl 4.5.-də təqdim edilmişdir.

**Cədvəl 4.5.** Yüksək iqtisadi nailiyyətlər əldə etmiş ölkələrdə insan inkişafı reytinqi və inklüziv inkişaf göstəriciləri

| Ölkə | Adambaşına ÜDM, ABŞ dolları, AQP | İnklüziv inkişaf indeksi | İnsan inkişafı indeksinə görə reytinq |
|---|---|---|---|
| **Norveç** | 60 978 | 6,08 | 1 |
| **Avstriya** | 52 557 | 5,36 | 2* |
| **İsveçrə** | 65 006 | 6,06 | 2* |
| **Almaniya** | 50 715 | 5,27 | 4 |
| **Niderland** | 52 541 | 5,61 | 7 |
| **İspaniya** | 53 518 | 6,07 | 9 |
| **Kanada** | 46 374 | 5,06 | 10 |
| **ABŞ** | 59 531 | 4,60 | 10 |
| **İsveç** | 50 069 | 5,76 | 14 |
| **Finlandiya** | 45 191 | 5,33 | 23 |
| **Qətər** | 128 378 | -** | 33 |
| **Səudiyyə Ərəbistanı** | 53 844 | -** | 38 |
| **Bəhreyn** | 47 526 | -** | 47 |
| **Küveyt** | 71 943 | | 51 |

*- Avstriya və İsveçrə eyni insan inkişafı indeksinə malikdir və bu səbəbdən ikisinin də reytinqi eynidir.
**- Bu ölkələr üçün inklüziv inkişaf indeksi hesablanmayıb.

Təhlilin birinci mərhələsində insan inkişafı ilə inklüziv inkişaf arasında əlaqəni öyrənmək üçün bu prosesin vəziyyəti iqtisadiyyatı yüksək dərəcədə inkişaf etmiş ölkələrdə təhlil edilmişdir. Müqayisəli təhlil üçün elə ölkələr seçilmişdir

ki, orada, Dünya Bankının məlumatlarına görə, illik adambaşına gəlir, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, 45 min ABŞ dollarından az olmasın.

Cədvəl 4.5.-də təqdim olunmuş məlumatlar insan inkişafı sahəsində ən yüksək nəticələr əldə etmiş ölkələrə aiddir. Cədvəldə ölkələrin düzümü onların insan inkişafı sahəsində qazandıqları nəticəyə və dünyadakı reytinqlərinə əsaslanır. Cədvəldən göründüyü kimi, adambaşına yüksək gəlir yüksək səviyyədə insan inkişafına zəmanət vermir. Məsələn, ildə adambaşına gəliri 60 978 ABŞ dolları olan Norveç insan inkişafı göstəricilərinə görə dünyada birinci yerdədir. Qətərdə isə əhalinin illik adambaşına gəliri Norveçdən iki dəfə çoxdur – 128 378 ABŞ dolları təşkil edir. Buna baxmayaraq, bu ölkə insan inkişafı indeksinə görə Norveçdən geridədir. Qətər insan inkişafı göstəricilərinə görə dünya reytinqində yalnız 33-cü yerdədir. İqtisadi imkanları Qətərdən iki dəfə az olan Norveç isə uzun illərdir ki, insan inkişafı göstəricilərinə görə dünyada birinci yerdə qərarlaşıb.

İnsan inkişafı indeksinin daha yüksək olması daha yüksək təhsil, daha dərin bilik və bacarıq, eyni zamanda daha sağlam əhali deməkdir. Bu üstünlüklər inklüziv inkişaf üçün olduqca önəmlidir. Bu səbəbdən yüksək insan inkişafı inklüziv inkişaf üçün yaxşı şəraitin olmasından xəbər verir.

### *4.7. İdarəetmə texnologiyalarının inklüziv inkişafın təşkilində əhəmiyyəti*

Hazırkı dərsliyin öncəki bölmələrindən aydın oldu ki, inklüziv cəmiyyətin formalaşması və onun davamlılığını təmin etmək üçün bir çox amillərin birgə təsiri olduqca

önəmlidir. Göstərilmişdir ki, təbii ehtiyatların zənginliyi uğurlu inklüziv inkişaf üçün şərait yaradan vacib amildir. Dərsliyin öncəki bölmələrində təqdim olunmuş müqayisəli təhlillərdən aydın oldu ki, maliyyə imkanları da inklüziv inkişafın önəmli amilidir. Eyni zamanda göstərilmişdir ki, ölkənin inklüziv inkişafı və bu prosesin davamlılığı üçün insan inkişafının yüksək səviyyədə olması vacib şərtdir. Yalnız müasir təhsil, yaxşı biliklər və yüksək peşəkarlıq inklüziv inkişafı təmin edə bilər.

Bütün göstərilən amillər, o cümlədən təbii, maddi, maliyyə və insan resursları inklüziv inkişaf edən cəmiyyətin qurulması baxımından çox önəmli amillərdir. Lakin bu amillər zəruri olsa da, inklüziv inkişafın təmini üçün yetərli hesab edilə bilməz. İnklüziv inkişaf edən cəmiyyətin qurulması yalnız o halda mümkündür ki, bütün sadalanan amillər hazırkı və gələcək nəsillər naminə düzgün idarə edilsin. Bu səbəbdən inklüziv inkişafı




***Şəkil 4.35.*** *İnklüziv inkişaf məqsədlərinə çatmaqda resurslar, insan potensialı və idarəetmənin rolu*

təmin edən amillər arasında idarəetmə amili həlledici roll oynayır (şəkil 4.35.).

Uğurlu inklüziv inkişafa nail olmaq üçün müxtəlif amillərin rolu şəkil 4.35.-də təqdim olunmuşdur. Şəkildəki məlumatlardan aydın olur ki, maddi və maliyyə ehtiyatları, insan potensialının mövcudluğu çox vacib olsa da, səmərəli idarəetmə olmadan hədəflənən məqsədlərə çatmaq mümkün deyil. Şəkil 4.35.-də inklüziv inkişaf elementləri olan amillərin miqyası göstərir ki, məhz idarəetmə inklüziv inkişaf üçün həlledici amildir.

Hər hansı bir prosesin, o cümlədən inklüziv inkişafın idarə edilməsində uğurların qazanılması ilk növbədə düzgün planlaşdırmaya və daim yenilənən idarəetmə texnologiyalarına əsaslanır. Bu sahədə fəaliyyət ardıcıllığı sxematik olaraq şəkil 4.36.-da təqdim olunmuşdur.

Şəkildən göründüyü kimi, inklüziv cəmiyyətə keçid sahəsində uğurların əldə edilməsi, ilk növbədə, məqsədlərin formalaşdırılmasından başlayır. Məqsədlərin düzgün hədəflənməsi isə təbii, insan və maliyyə ehtiyatlarının ən op-




***Şəkil 4.36.*** *İnklüziv inkişafın planlaşdırılması və idarə edilməsinin əsas mərhələləri*

timal istifadəsinə yol açır. İnklüziv inkişaf sahəsində məqsədlərin formalaşması prosesinə ictimaiyyətin cəlb edilməsi vacibdir. İctimaiyyətin iştirakı həm inklüziv inkişaf məqsədlərinin formalaşması, həm də fəaliyyətin planlaşdırılması mərhələsində əhəmiyyətlidir. Bu məqsədlə gələcək layihə və onun iqtisadi, sosial, ekoloji perspektivləri barədə ictimaiyyətin fikri öyrənilir və bu, qərar qəbulu zamanı nəzərə alınır.

İnklüziv inkişafın planlaşdırılmasına ictimaiyyətin cəlb edilməsi bir neçə yolla həyata keçirilə bilər. İctimaiyyətlə görüşlər, ictimai dinləmələr, şəxsi görüşlər birinci mərhələnin optimal idarə edilməsi üçün olduqca əhəmiyyətlidir. Bu proseslərə qeyri-hökumət təşkilatlarının, müstəqil ekspertlərin, mətbuat nümayəndələrinin cəlb edilməsi faydalı olur. Ümumiyyətlə, inklüziv inkişaf edən cəmiyyətin formalaşması sahəsində maraqlı olan hər bir şəxsin və ya təşkilatın fikirlərinin öyrənilməsi, zəruri halda deyilənlərin nəzərə alınması müasir idarəetmənin vacib bir üsuludur.

İnklüziv inkişaf edən cəmiyyətin formalaşmasının ikinci mərhələsi planlaşdırmadır. Bu mərhələdə ən vacib və məsuliyyətli məqam icraçının seçilməsidir. Bu zaman nəzərə alınmalıdır ki, icraçı bu mərhələni planlaşdırılmış zaman kəsiyində və yüksək keyfiyyətlə yerinə yetirmək potensialına malik olmalıdır. İcraçı, bir qayda olaraq, müstəqil müsabiqə – ***tender*** nəticəsində müəyyən edilir. Tenderdə, bir qayda olaraq, bir neçə təşkilatın iştirakı vacib şərtdir. Bu mərhələdə əsas məqsəd ***texnoloji geriləmə ilə inkişaf*** fenomeninin qarşısının alınmasıdır. Göstərilən riskin qarşısının alınması inklüziv inkişafın davamlı olması üçün çox önəmlidir.

Çox zaman inklüziv inkişafın təmin edilməsi üçün cəmiyyətin tələblərinə cavab verən müvafiq müəssisələrin, ya-

xud istehsalatın yaradılması zəruri olur. Bu mərhələni həyata keçirən təşkilat tender, yaxud müsabiqə nəticəsində seçilir.

İnklüziv inkişafın davamlılığı, bu vəziyyətin gələcək nəsillər üçün təmin edilməsi ən vacib problemlərdəndir. Bu məqsədə çatmağın ən optimal yolu inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində bilik və bacarıqların daim yeniləşdirilməsidir. Bu baxımdan inklüziv inkişaf sahəsində bilik və bacarıqların daim artırılması olduqca əhəmiyyətlidir. Bu, eyni zamanda inklüziv inkişafa yönəldilmiş ehtiyatların optimal idarə edilməsinə xidmət edir. İnklüziv inkişafın səmərəli idarə edilməsi sahəsində Azərbaycan Respublikasının təcrübəsi buna əyani sübutdur. Ölkəmizdə istifadə olunan innovativ texnologiyalar haqqında bilgilər növbəti bölmələrdə təqdim olunur.

### *4.8. İnklüziv inkişaf məqsədlərinin formalaşması*

Göstərildiyi kimi, inklüziv inkişafın uğurlu planlaşdırılması son hədəflərin düzgün seçilməsindən asılıdır. Eyni zamanda bəllidir ki, hər hansı bir ölkədə inklüziv inkişafın vəziyyəti ***inklüziv inkişaf indeksi*** əsasında müəyyən edilir. Xatırlatmaq lazımdır ki, bu indeks üç qrup göstərici əsasında hesablanır. Birinci qrupa aid göstəricilər iqtisadiyyatın artımı və inkişafı ilə bağlıdır. İnklüziv inkişafın ikinci qrup indikatorları ölkələrin sosial göstəricilərini əks etdirir. İnklüziv inkişafın davamlılığını və bu sahədə qazanılmış nəticələrin gələcək nəsillər üçün də qorunub saxlanılmasını səciyyələndirən göstəricilər isə üçüncü qrupa aiddir. Hər 3 qrup inklüziv inkişaf üçün vacibdir və bu sahədə fəaliyyətin reallaşdırılması zamanı nəzərə alınmalıdır.

Aydındır ki, müxtəlif ölkələrdə inklüziv inkişafı müəyyən edən bu göstəricilər – qruplarda qazanılmış nailiyyətlər

fərqli ola bilər. Məsələn, hansısa ölkə iqtisadi artımda yüksək nəticələr əldə edə, sosial sahədə isə bir o qədər uğurlu olmaya bilər. Eyni zamanda mümkündür ki, ölkə iqtisadi artımda və sosial sahədə uğurlu olsun, lakin inklüziv inkişafın vacib amili olan davamlılıq göstəricilərinə görə geridə qalsın. Göstərilən səbəbdən inklüziv inkişaf sahəsində gələcək fəaliyyəti planlaşdırarkən, bu sahədə vəziyyətin təhlili və məqsədlərin düzgün müəyyən edilməsi ilk addım kimi nəzərdə tutulur. Bu prosesin idarə edilməsinə aid qərarların qəbulu zamanı və inklüziv inkişafı müəyyən edən göstəricilərin təkmilləşməsi prosesində, əsasən, nəzərə alınası göstəricilər şəkil 4.37.-də təqdim olunmuşdur.




***Şəkil 4.37.*** *İnklüziv inkişafın idarə edilməsi prosesində fəaliyyətin planlaşdırılması zamanı nəzərə alınmalı indikatorlar*

İnklüziv inkişaf sahəsində uğurlu idarəetmə məqsədlərin dəqiq müəyyənləşdirilməsindən başlayır. Öncəki bölmədə göstərildiyi kimi, ehtiyatların səmərəli istifadəsi uğurların vacib amilidir. Eyni zamanda məlumdur ki, üç qrup amil inkişafın inklüzivliyini müəyyən edir. Bunlar iqtisadi, sosial göstəricilər və inkişaf prosesinin davamlılığını müəyyən edən indikatorlardır. Şəkil 4.37.-dən aydın olur ki, inklüziv inkişaf edən cəmiyyətin formalaşmasında ilk növbədə hansı indikatorlar nəzərə alınmalıdır.

Şəkil 4.37.-də təqdim edilmiş məlumatlar inklüziv inkişaf indeksinin hesablanması zamanı istifadə olunur. Müxtəlif ölkələrdə bu indikatorların vəziyyəti fərqli ola bilər. Bu səbəbdən müxtəlif ölkə və ya ərazilərdə inklüziv inkişaf sahəsində fəaliyyət planlaşdırılarkən bu xüsusiyyətlər nəzərə alınmalıdır.




***Şəkil 4.38.*** *İnklüziv inkişaf edən cəmiyyətin formalaşmasına hazırlıq dərəcəsinin müəyyən edilməsi*

İnklüziv inkişaf sahəsində fəaliyyətin planlaşdırılması zamanı məqsədlərin düzgün müəyyənləşdirilməsi ilə yanaşı, bu məqsədlər naminə mövcud olan maddi vəsaitlərin və insan potensialının düzgün istifadəsi də önəmlidir. Bu məqsədlə fəaliyyətin planlaşdırılması zamanı bir sıra amillərin nəzərə alınması vacibdir (şəkil 4.38.).

Qeyd edildiyi kimi, belə təhlil və qiymətləndirmələrin məqsədi inklüziv inkişafın uğuru və davamlılığı üçün hansı komponentlərin gücləndirilməsinə ehtiyac duyulduğunu üzə çıxarmaqdır. Göstərilən elementlərin hazırlıq dərəcəsi on ballıq sistem və ya faiz ilə dəyərləndirilə bilər. Məsələn, bu dəyərləndirmələr nəticəsində müəyyən edilir ki, cəmiyyət inklüziv inkişafa, əsasən, hazırdır, lakin yoxsulluq səviyyəsi, yaxud atmosferə atılan istixana qazlarının miqdarı azaldılmalıdır. Bu çatışmazlıqların aradan qaldırılması üçün gələcək işlərin həcmi müəyyən edilir və fəaliyyət planı formalaşdırılır.




*«ASAN xidmət». Azərbaycan Respublikası*

Qeyd edilməlidir ki, bu istiqamətdə fəaliyyəti planlaşdıran zaman müəyyən ardıcıllığın gözlənilməsi vacib şərtdir. Bu, həm də o baxımdan önəmlidir ki, inklüziv inkişaf üçün nəzərdə tutulmuş vəsaitlər səmərəli istifadə edilsin.

Bəllidir ki, inklüziv inkişaf yalnız səmərəli iqtisadiyyatın əsasında qurula bilər. Bu şərt yetərli olmasa da, məcburən tələb olunandır. Bu səbəbdən inklüziv inkişafa hazırlığın monitorinqi adambaşına gəlirlərin və məşğulluq vəziyyətinin qiymətləndirilməsindən başlayır. Yalnız iqtisadi baza hazır olandan sonra inklüziv inkişaf sahəsində digər fəaliyyətlərin zərurəti nəzərdən keçirilə bilər.

İnklüziv inkişaf tərəqqinin elə bir yoludur ki, o, iqtisadiyyat sahəsində qazanılan uğurları sosial sahəyə tətbiq edir. Hər hansı bir ölkə və ya ərazidə inklüziv inkişaf naminə sosial siyasətin monitorinqi zamanı ilk növbədə yoxsulluğun azalma dinamikası, median gəlirlərin səviyyəsi və əhali arasında gəlirlərin paylanması nəzərdən keçirilir. Gəlirlərin ədalətli paylanmasının dəyərləndirilməsi zamanı Cini indeksinin göstəricilərindən istifadə edilir.

Əgər monitorinq gedişində ölkədə həyata keçirilən siyasətin inklüziv inkişaf üçün tələb olunan iqtisadi və sosial bazanın yaradılmasını təmin etdiyi müəyyənləşərsə, prosesin nə dərəcədə davamlı olması məsələsi gündəmə gələr. Bir qayda olaraq, inklüziv inkişaf prosesinin davamlılığının dəyərləndirilməsi zamanı bir sıra xüsusi indikatorlardan istifadə olunur (şəkil 4.37.). Uzunmüddətli iqtisadi indikator kimi ölkənin xarici borcunun həcmi dəyərləndirilir. Bu parametrin kəmiyyət göstəricisi kimi xarici borcun ÜDM-nin neçə faizini təşkil etməsi əsas götürülür. Bu göstəricinin davamlılıq baxımından nəzərə alınması onunla əlaqədardır ki, xarici borc yüksək olduğu halda bu problemin həlli gələcək nəsillərin öhdəsinə qalır. Bu isə inklüziv inkişafın davamlılığına mənfi təsir göstərə bilər.

İnklüziv inkişaf edən cəmiyyətin davamlılığının monitorinqi zamanı demoqrafik göstəricilərin xüsusi dəyərləndirilməsinə ehtiyac var. Məlumdur ki, inklüziv inkişaf vəziyyətinin təhlili zamanı demoqrafik göstərici kimi ***əhalinin demoqrafik asılılıq*** səviyyəsi müəyyən edilir. Demoqrafik asılılıq dedikdə, hər hansı ölkədə 100 nəfər əməkqabiliyyətli (15-64) olanlarla asılı yaşındakılar (0-15 və 65, həmçinin daha yuxarı yaşlılar) nəzərdə tutulur. Asılılıq dərəcəsi yüksək olmayan cəmiyyət inklüziv inkişafa daha yaxındır.

İnklüziv inkişafın davamlılığının növbəti göstəricisi atmosferə atılan istixana qazlarının miqdarıdır. Bu sahədə yaranmış vəziyyət çox vaxt bir göstərici əsasında müəyyən edilir. Bu göstərici qlobal iqlim dəyişmələrinə təsir göstərən atmosferə atılan istixana qazlarıdır. Göstəricinin monitorinqi üçün iki üsuldan istifadə olunur. Ölkənin, ümumiyyətlə, iqlim dəyişmələrinə nə dərəcədə təsir göstərməsi adambaşına atmosferə atılan karbon qazının ($CO_2$) miqdarı ilə ölçülür. Bu halda atılan karbon qazının miqdarı tonla ölçülür. Digər göstərici 1 ABŞ dolları ÜDM-nin istehsalı zamanı atmosferə atılan karbon qazının miqdarıdır. Bu, adətən kiloqram və ya qramla ölçülür. İkinci göstərici ölkələrin çoxunda həyata keçirilən innovativ inkişafın təzahürü kimi qəbul edilir. Eyni iqtisadi səmərə üçün daha az enerji sərfi inklüziv inkişafın tələblərinə cavab verir. Müxtəlif ölkələrin göstəricilərinin müqayisəsi bu sahədə liderlərin müəyyən edilməsi üçün şərait yaradır. İnklüziv inkişaf şəraitində atmosferə atılan istixana qazlarının miqdarı çox olmur.

Beləliklə, aparılan monitorinq inklüziv cəmiyyətin təmin edilməsinin optimal planlaşdırılması və idarə edilməsinə yol açır. Monitorinq prosesi fəaliyyətin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və ayrılan vəsaitlərin optimal idarə edilməsi üçün şərait yaradır.

### *4.9. İnklüziv inkişafın idarə edilməsində innovativ texnologiyalar*

İnklüziv cəmiyyətin qurulması və onun davamlılığının gələcəkdə də təmin edilməsi dövlətin bu sahədə həyata keçirdiyi inkişaf strategiyasından asılıdır. Dövlətin inkişaf strategiyası ilə yanaşı, uğur qazanmaq baxımından – inklüziv inkişaf məqsədlərinə nail olmaq istiqamətində bu sahədə həyata keçirilən texnoloji siyasət də böyük əhəmiyyət daşıyır. Texnoloji siyasətin həyata keçirilməsi zamanı istifadə olunan idarəetmə texnologiyalarının əhəmiyyəti çox böyükdür. Düzgün seçilmiş idarəetmə texnologiyaları, planlaşdırılmış fəaliyyətin optimal maddi təminatı, insan potensialının səfərbər edilməsi inklüziv inkişaf sahəsində qoyulan məqsədlərə uğurla nail olunmasına zəmanət verir. Eyni zamanda innovativ texnologiyaların istifadəsi insan potensialının formalaşması üçün çox önəmli vasitədir. Ümumiyyətlə, səmərəli idarəetmə şəraitində qəbul edilən qərarlar ən aşağı sərfiyyat nəticəsində keyfiyyətcə ən yüksək nəticəni əldə etməyə şərait yaradır.

Son illər davamlı inkişafın idarə edilməsində yeni innovativ texnologiyaların tətbiqi xüsusi yer tutur. Davamlı inklüziv inkişaf prosesində belə texnologiyalardan kompleks şəkildə istifadənin nəzəri əsasları və tətbiqi yolları ilk dəfə Azərbaycan Respublikasında işlənilib. Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə iqtisadi və sosial sahəyə aid milli və beynəlxalq proqramlar həyata keçirilərkən ilk dəfə ***sinergetik, komplementar*** və ***kompensasion*** texnologiyalar kompleksindən istifadə edilmişdir. İdarəetmədə yüksək səmərə verən belə innovativ texnologiyaların istifadəsi nəticəsində Dünya Bankı, BMT, digər beynəlxalq təşkilatların hesabatlarına əsasən, Azərbaycan

Respublikası bir sıra iqtisadi, sosial və ekoloji göstəricilərinə görə dünya liderləri sırasındadır. Məsələn, Davosda keçirilmiş Dünya İqtisadi Forumunun 2018-ci ildə dərc edilmiş hesabatında dünya ölkələrinin ***İnklüziv İnkişaf İndeksləri (İİİ)*** haqqında məlumatları ictimaiyyətin diqqətinə çatdırılmışdır. Dərc edilmiş sənədə görə, Azərbaycan Respublikasında İİİ 4,69-a bərabərdir. Azərbaycan Respublikasının bu göstəricisi inkişafda yüksək nəticələr nümayiş etdirən bir sıra ölkələrdən daha yüksəkdir. Bu ölkələr arasında «böyük yeddilik» (G7) qrupuna, Avropa İttifaqına, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələr də vardır. İnklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində Azərbaycanın qazandığı nailiyyətlər hazırkı dərsliyin növbəti bölməsində təhlil edilir.




***Şəkil 4.39.*** *İnklüziv inkişafın idarə edilməsini təmin edən kompleks sistem*

İndi isə ölkəmizdə istifadə olunan innovativ idarəetmə texnologiyalarının yüksək səmərə verməsinin nümayişi üçün istifadə olunur.

Şəkil 4.39.-da inklüziv inkişaf və onun uzunmüddətli davamlılığını təmin edən texnologiyalar haqqında məlumatlar təqdim olunmuşdur. Qeyd edilməlidir ki, bu sistemin elementləri davamlı inkişafın idarə edilməsində bundan qabaq da istifadə oluna bilərdi. Lakin kompleks şəkildə vahid çoxkomponentli bir sistem kimi bu texnologiyalardan davamlı inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi üçün ilk dəfə Azərbaycanda istifadə edilmişdir.

Beləliklə, aydın olur ki, davamlı inklüziv inkişaf sahəsində formalaşmış yeni çağırışlar bu proseslərin idarə edilməsində yeni texnologiyaların formalaşmasını stimullaşdırır. Bu sahədə biliklər dövlətin, regionların idarə edilməsi üçün çox əhəmiyyətlidir.

## *4.10. İnklüziv inkişafın idarə edilməsində sinergetik texnologiyalar*

İdarəetmədə sinergetik texnologiyaların tətbiqi zamanı layihənin bir neçə iştirakçısı öz səylərini ümumi məqsədlər naminə və vahid plan çərçivəsində birləşdirir. Nəticədə layihənin səmərəliliyi artır, keyfiyyəti yüksəlir, xərcləri isə azalır. İdarəetmədə sinergetik texnologiyaların tətbiqi zamanı layihə iştirakçılarının bilik və bacarıqları daha səmərəli istifadə edilir. Eyni zamanda sinergetik texnologiyalar əsasında idarə edilən layihələr bu işə cəlb olunan personalın bilik və bacarıqlarının artırılması üçün şərait yaradır. Sinergetik texnologiyalar layihənin icrasına ayrılmış vaxt və vəsaitlərin qənaəti baxımından sərfəlidir.

Həyata keçirilən fəaliyyətin xüsusiyyətlərindən asılı olaraq, sinergetik effektin alınması üçün müxtəlif sayda və tərkibdə iştirakçı cəlb edilə bilər. İnklüziv inkişafla əlaqədar layihələrin icrasına, bir qayda olaraq, ilk növbədə, həm dövlət təşkilatları, həm də cari biznes cəlb edilir. Qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətinin nümayəndələri də ciddi iqtisadi və sosial problemlərin həllinə cəlb edilirlər. İnklüziv inkişafın idarə edilməsində sinergetik texnologiyaların tətbiqi zamanı iştirakçıların əlaqələri şəkil 4.40.-da göstərildiyi kimi təşkil edilə bilər. Qeyd edilməlidir ki, bu şəkildə sinergetik əlaqələrin yalnız bir qismi öz əksini tapmışdır.

Şəkil 4.40.-da sinergetik texnologiyaların istifadəsi ilə həyata keçirilən və inklüziv inkişafa yönəldilmiş iqtisadi və sosial layihələrin iştirakçıları haqqında məlumatlar təq-




***Şəkil 4.40.*** *İnklüziv inkişafın idarə edilməsində sinergetik texnologiyaların təşkili*

dim olunmuşdur. Sinergetik texnologiyaların idarəetmədə tətbiqinin bir nəticəsi də odur ki, dövlət proqramları milli proqramlara çevrilirlər, eyni zamanda onların həyata keçirilməsi prosesində vətəndaş cəmiyyəti və fərdi biznes iştirak edir.

Şəkildən göründüyü kimi, inklüziv inkişaf sahəsində sinergetik texnologiyalarla həyata keçirilən layihələrin əsas iştirakçısı dövlət təşkilatlarıdır. Dövlətin əsas funksiyası, ilk növbədə, inkişaf prosesi üçün əlverişli iqtisadi və hüquqi mühitin yaradılmasıdır. Azərbaycan Respublikasında sinergetik texnologiyaların istifadəsi ilə həyata keçirilən layihələrdə dövlət təşkilatlarının digər funksiyası inkişafın innovativliyini təmin etmək, bu məqsədlə elmin, təhsilin və mədəniyyətin inkişafına zəmin yaratmaqdır. Bu, eyni zamanda beynəlxalq əməkdaşlığa da aiddir.

Qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətinin nümayəndələri sinergetik texnologiyalarla həyata keçirilən layihələrin önəmli iştirakçılarıdır. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti cəmiyyəti məlumatlandırmaq, inklüziv inkişafla əlaqədar dəyişikliklərə hazırlamaq, ictimaiyyəti bu prosesin fəal iştirakçısına çevirməkdir. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti dövlət strukturlarının və vətəndaş cəmiyyətinin ümumi məqsədlər naminə səmərəli fəaliyyətinin parlaq nümunəsidir.

Davamlı inklüziv inkişafın idarə edilməsi bu prosesdə fərdi sektorun geniş iştirakını nəzərdə tutur. Onların funksiyaları iki əsas istiqaməti əhatə edir. İnklüziv inkişaf üçün böyük önəm daşıyan sosial məsuliyyətli biznesin inkişafı birinci istiqamətdir. İnnovativ texnologiyaların tətbiqi nəticəsində yaşıl iqtisadiyyatın inkişafı isə fərdi sektorun digər vacib funksiyasıdır (şəkil 4.40.).

## *4.11. İnklüziv inkişafın idarə edilməsində komplementar texnologiyalar*

Komplementar texnologiyalar davamlı inklüziv inkişafın idarə edilməsi sahəsində həyata keçirilən ümumi strategiyanın bir hissəsidir. Bu strategiya iqtisadi və sosial layihələr üzrə çalışan bütün iştirakçıların və xeyir götürənlərin ***(benefisiarların)*** maraq və potensiallarının təhlili əsasında işlənilir (şəkil 4.41.).

Şəkildən göründüyü kimi, inklüziv inkişaf layihələrinin icrasında komplementar texnologiyaların istifadəsi bu proseslə əlaqəsi olan bütün iştirakçıların maraqlarının nəzərə alınmasını hədəfləyir. Komplementar texnologiyaların sinergetik texnologiyalarla birgə tətbiqi nəzərə alınsa aydın olur ki, bu proses cəmiyyəti bütövlükdə əhatə edir. Bu misallardan görünür ki, innovativ idarəetmə




***Şəkil 4.41.*** *İnklüziv inkişafın idarə edilməsində komplementar texnologiyalar*



*Azərbaycan Respublikasında qlobal nəqliyyat-logistika mərkəzi*

texnologiyalarına əsaslanan inkişaf strategiyası inklüziv cəmiyyətin qurulmasının ən səmərəli yoludur.

Sinergetik və komplementar texnologiyaların birgə tətbiqinin iqtisadi və sosial layihələrin həyata keçirilməsi prosesində nə dərəcədə əhəmiyyətli olmasına misal kimi Azərbaycandan beynəlxalq bazarlara neft və qaz çatdıran kommunikasiya sistemlərini göstərmək olar. Bütün cəlb edilmiş ölkələrin iqtisadiyyatlarına və onların sosial siyasətlərinə müsbət təsir göstərən bu layihələr, eyni zamanda ölkələr daxilində olan regionların inkişafına təkan verib. Qeyd etmək lazımdır ki, innovativ idarəetmə texnologiyalarının istifadəsi əsasında həyata keçirilmiş bu layihələr qlobal baxımdan da çox əhəmiyyətlidirlər və dünyada enerji təhlükəsizliyinə xidmət edirlər.

Müasir idarəetmədə komplementar texnologiyaların böyük əhəmiyyət daşımasına misal kimi Bakı-Tbilisi-Qars dəmiryolunun inşası və istismarını göstərmək olar. Bu dəmiryolu magistralının yaradılması regional və qlobal miqyasda inkişaf üçün yeni imkanlar açmışdır. Bu layihənin həyata keçirilməsi nəticəsində şərqdən qərbə və qərbdən şərqə yük daşımalarına sərf edilən vaxt əhəmiyyətli dərəcədə azalmışdır. Təbii ki, daşıma xərcləri də daha aşağı düşmüşdür. Bakı-Tbilisi-Qars layihəsinin icrası prosesinin idarə edilməsində kompensasion texnologiyaların əhəmiyyəti də böyük olmuşdur. Müasir idarəetmədə kompensasion texnologiyaların tətbiqi növbəti bölmədə təhlil edilir.

### *4.12. İnklüziv inkişafın idarə edilməsində kompensasion texnologiyalar*

Öncəki bölmədə müasir idarəetmədə komplementar texnologiyaların tətbiqinə misal kimi Bakı-Tbilisi-Qars dəmiryolunun tikilməsi göstərilmişdir. Bu nəqliyyat xətti yeni İpək yolunun bir hissəsi olmaqla, Cənub-Şərqi Asiyanı Avropa ölkələri ilə birləşdirən ən qısa yoldur. Bu layihənin idarə edilməsində ***sinergetik*** və ***komplementar*** texnologiyalarla yanaşı, ***kompensasion*** texnologiyalardan da istifadə edilmişdir.

Müasir idarəetmədə kompensasion texnologiyaların tətbiqi zamanı ümumi məqsədlər naminə birgə iqtisadi və ya sosial layihə üzrə tərəfdaşlara davamlı inklüziv inkişafın məqsədlərinə nail olmaq üçün xüsusi imtiyazlar verilir, yaxud əvəzsiz texniki, texnoloji və maliyyə dəstəyi göstərilir. Kompensasion texnologiyaların tətbiqinə misal kimi Bakı-Tbilisi-Qars dəmiryolunun tikilməsini göstərmək olar. Gürcüstan Respublikası dəmiryolunun bu ölkə ərazisindən keçən

hissəsinin tikilməsində və bərpa edilməsində maliyyə çətinlikləri ilə üzləşmişdi. Belə bir şəraitdə Azərbaycan Respublikası Gürcüstana güzəştli şərtlərlə kredit ayırdı, nəticədə dəmiryolu tikildi və hazırda fəaliyyətdədir.

İdarəetmədə kompensasion texnologiyaların tətbiqi dövlət siyasəti çərçivəsində həyata keçirilə bilər. Kompensasion texnologiyalar, eyni zamanda fərdi biznesin korporativ sosial məsuliyyətli siyasəti çərçivəsində də tətbiq edilə bilər. Kompensasion texnologiyalar həm milli, həm də xarici və beynəlxalq tərəfdaşlar üçün istifadə edilə bilər. Şəkil 4.42.-də kompensasion texnologiyalar və onların xüsusiyyətləri haqında məlumatlar verilib.

Kompensasion texnologiyaların tətbiqi zamanı istifadə olunan imtiyazlar ən çox milli fiziki və hüquqi şəxslər üçün



*Bakı-Tbilisi-Qars dəmiryolu xətti*

keçərlidir. Azərbaycan Respublikasının kompensasion texnologiyalardan istifadə təcrübəsi davamlı inklüziv inkişafın idarə edilməsində ən səmərəli təcrübə kimi qiymətləndirilə bilər. Milli qanunlara görə, bütün fiziki və hüquqi şəxslərin imtiyazlı kredit və vergilərdən istifadə etmək şansı vardır. Ucuz kreditlər, texniki və texnoloji dəstək ölkədə sahibkarlığın dəstəyinə yönəldilmiş siyasətin bir hissəsidir. Ölkənin iqtisadi və sosial sahədə qazandığı nailiyyətlərdə innovativ, o cümlədən kompensasion texnologiyaların rolu böyükdür.

Qeyd edilməlidir ki, hazırkı bölmədə təsvir edilmiş hər bir idarəetmə texnologiyası ayrılıqda davamlı inklüziv inkişafın idarə edilməsinin səmərəliliyinin artırılması üçün




***Şəkil 4.42.*** *İnklüziv inkişaf naminə iqtisadi və sosial layihələrin idarə edilməsində kompensasion texnologiyaların elementləri*

çox əhəmiyyətli bir alətdir. Bu, ayrı-ayrılıqda həm sinergetik, həm komplementar, həm də kompensasion texnologiyalara aiddir. Kompleks şəkildə istifadə etdikdə bu texnologiyaların əhəmiyyəti xüsusilə artmış olur. Bu səbəbdən sadalanan biliklər və onların əsasında formalaşan bacarıqlar uğurlu dövlət idarəçiliyi üçün əhəmiyyətlidir.

### *4.13. Özümüzü sınayaq: sual və tapşırıqlar*

1. Maddi və maliyyə resurslarının mövcudluğunun uğurlu inklüziv inkişafa zəmanət verməməsini misallarla nümayiş etdirin.
2. Adambaşına gəlirlərlə inklüziv inkişaf indekslərinin əlaqəli olmamasına dair Azərbaycan və keçmiş SSRİ ölkələri göstəricilərindən istifadə edərək misallar gətirin.
3. İnklüziv inkişaf göstəriciləri yüksək gəlirə malik ölkələrdə maliyyələşmə səviyyəsi ilə necə bağlıdır? Misallar gətirin.
4. İnklüziv inkişaf və insan inkişafı səviyyəsi arasında hansı əlaqə var? Misallar gətirin.
5. Başqa ölkələrlə müqayisədə Azərbaycanın inklüziv inkişaf göstəricilərinə aid misallar gətirin.
6. Demoqrafik asılılıq səviyyəsi nədir?
7. İnklüziv inkişafın qiymətləndirilməsi zamanı hansı ekoloji faktor nəzərə alınır?
8. Sinergetik idarəetmə texnologiyaları ilə bağlı misallar gətirin.
9. Komplementar idarəetmə texnologiyaları ilə bağlı misallar gətirin.
10. Kompensasion idarəetmə texnologiyaları ilə bağlı misallar gətirin.

# 5. AZƏRBAYCAN RESPUBLİKASININ İNKLÜZİV İNKİŞAFI

*İnklüziv inkişaf milli siyasətin prioriteti kimi. Davamlı inklüziv inkişaf naminə insan potensialının formalaşması. Azərbaycan Respublikasında inklüziv inkişafın iqtisadi indikatorları. İnklüziv inkişafın sosial göstəriciləri. İnklüziv inkişafın davamlılığını təmin edən amillər.*


5.1. Bölmənin məqsədi
5.2. Açar söz və anlayışlar
5.3. Azərbaycan Respublikasının inklüziv inkişafının ümumi indikatorları
5.4. Azərbaycan Respublikasının inklüziv inkişafına təsir göstərən iqtisadi indikatorların formalaşması
5.5. Azərbaycan Respublikasında yoxsulluğun azalması inklüziv inkişafın amili kimi
5.6. İnsan potensialının inkişafı inklüziv inkişafın amili kimi
5.7. Əhali arasında gəlirlərin paylanması
5.8. Median və modal gəlirlər inklüziv inkişaf göstəriciləri kimi
5.9. Ölkənin xarici borcu davamlı inklüziv inkişafın indikatoru kimi
5.10. Əhalinin demoqrafik strukturu inklüziv inkişaf riski kimi
5.11. Qlobal iqlim dəyişmələrinə təsirlərin azalması davamlı inklüziv inkişafın amili kimi
5.12. Özümüzü sınayaq: sual və tapşırıqlar

### *5.1. Bölmənin məqsədi*

Dünyada cərəyan edən hadisələrin təhlili göstərir ki, inklüzivlik səviyyəsinə yüksəldilmiş davamlı inkişaf bir çox ölkələr, o cümlədən Azərbaycan Respublikası üçün əsas prioritetlərdəndir. Davamlı inkişafda inklüzivliyin birincidərəcəli prioritetə çevrilməsinin əsas səbəbi ondadır ki, bu inkişaf yolunun hədəflədiyi məqsədlər dünya əhalisinin çoxunun maraqlarına cavab verir. İnklüziv inkişafın dünya ölkələri üçün cəlbedici olmasına səbəb bir də ondadır ki, bu proses nəticəsində dövlətlər hərtərəfli inkişaf edir, əhalinin rifahı yüksəlir.

İnkişafda yüksək səviyyəyə qalxmaq və bu prosesi gələcək nəsillər üçün də davamlı etmək Azərbaycan Respublikasının ümummilli məqsədidir. Dünyada inkişaf proseslərinin monitorinqini aparan beynəlxalq təşkilatların məlumatlarından bəlli olur ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra, qısa müddət ərzində davamlı inkişaf sahəsində yüksək nəticələr əldə edib və bu inkişafı inklüzivlik səviyyəsinə qaldıra bilib. Hazırkı bölmənin məqsədi Azərbaycan Respublikasında toplanmış təcrübəyə, qazanılan nailiyyətlərə əsaslanaraq, inklüziv inkişafın idarə edilməsi sahəsində yeni bilik və bacarıqların formalaşdırılmasıdır. Ölkəmizin timsalında inklüziv inkişaf edən cəmiyyətin göstəriciləri haqqında da biliklər yayılmaqdadır. Milli səviyyədə xüsusi əhəmiyyət daşıyan inklüziv inkişaf indikatorları haqqında biliklərin formalaşması hazırkı bölmənin məqsədlərindəndir. Dərsliyin hazırkı bölməsində inklüziv inkişafı təmin edən əsas iqtisadi, sosial və ekoloji nailiyyətlər haqqında məlumatlar verilir, Azərbaycan Respublikasının inklüziv inkişaf sahəsində dünya liderliyinə yüksəlməsi imkanları təhlil edilir. Azərbaycanın

inklüziv inkişaf göstəricilərinin digər ölkələrlə müqayisəli təhlili inklüziv inkişafın idarə edilməsi sahəsində biliklərin formalaşması və təkmilləşməsi baxımından əhəmiyyətlidir.

## 5.2. Açar söz və anlayışlar

*Əhalinin demoqrafik asılılığı; Cini indeksi; Palma üsulu; Modal gəlirlər; Median gəlirlər; Alıcılıq qabiliyyəti pariteti (AQP).*

## 5.3. Azərbaycan Respublikasının inklüziv inkişafının ümumi indikatorları

Dərsliyin öncəki bölmələrində göstərilmişdir ki, inklüziv inkişaf, onun davamlılığı hazırda dünya prioriteti kimi çıxış edir. Bu ondan irəli gəlir ki, inklüziv inkişaf cəmiyyətin hərtərəfli inkişafını təmin edir və əhalinin rifahını yüksəldir. Artıq bəlli olduğu kimi, müxtəlif ölkələrdə inklüziv inkişaf səviyyəsi xüsusi göstərici – ***İnklüziv İnkişaf İndeksi*** ilə dəyərləndirilir. İİİ bir sıra göstəricilər əsasında beynəlxalq təşkilatlar tərəfindən hesablanır və rəsmi hesabat şəklində nəşr edilir. İnklüziv inkişaf indeksinin hesablanmasında istifadə olunan indikatorlar haqqında əvvəlki bölmələrdə təqdim edilmiş məlumatlar bu sahədə biliklərin formalaşması üçün çox əhəmiyyətlidir.

Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Bu nailiyyəti təmin edən amillər haqqında məlumatlar şəkil 5.43.-də təqdim edilmişdir. Ölkə müstəqilliyinin bərpasından qısa müddət keçməsinə baxmayaraq, beynəlxalq dəyərləndir-

mələr göstərir ki, Azərbaycan Respublikasında inklüziv inkişafın vəziyyətini müəyyən edən bütün göstəricilər təkmilləşmişdir.

Artıq bəllidir ki, uğurlu inklüziv inkişafın təmin edilməsində iqtisadi imkanların mövcudluğu vacib şərtdir. Maliyyə və digər ehtiyatların məhdudluğu, insan potensialı ilə təminatın qənaətbəxş olmaması şəratində inklüziv inkişaf sahəsində layihənin reallaşması imkansızdır. İnklüziv inkişaf üçün potensialın mövcudluğu xüsusi iqtisadi göstəricilər əsasında müəyyən edilir. Bu iqtisadi göstəricilərə ölkədə adambaşına gəlirlər, əhalinin məşğulluq səviyyəsi və işsizlik aiddir. Əhalinin sağlamlıq göstəricisi kimi istifadə olunan orta ömür müddəti də inklüziv inkişafın vacib göstəricisidir. Şəkil 5.43.-dən aydın olur ki, hazırda inklüziv inkişaf edən cəmiyyətin formalaşması üçün iqtisadi şərait mövcuddur.

Məlum olduğu kimi, davamlı inklüziv inkişaf cəmiyyətin idarə edilməsinin elə bir üsuludur ki, onun tətbiqi zamanı birinci mərhələdə hərtərəfli iqtisadi artım təmin edilir. Eyni zamanda elə sosial siyasət həyata keçirilir ki, inklüziv inkişafın müsbət nəticələrini hər bir vətəndaş hiss edir. Azərbaycan Respublikasında sosial siyasət ölkənin ümumi inkişaf strategiyasının bir istiqamətidir. Son on beş ildə həyata keçirilən siyasət nəticəsində Azərbaycanın sosial inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bu, həm əhali arasında yoxsulluğun kəskin azalmasına, həm də gəlirlərin ədalətli bölünməsinə aiddir. Şəkil 5.43.-də bu nailiyyətlər öz əksini tapmışdır.

Azərbaycan Respublikasında ***median gəlirlərin*** artımı göstərir ki, inklüziv inkişaf siyasəti çərçivəsində həyata keçirilən siyasət ölkə əhalisinin həyatında müsbət dəyişikliklərdən xəbər verir. Qeyd edilməlidir ki, əhalinin me-

dian gəlirlərinin artımı ilə yanaşı, ev təsərrüfatlarının da median gəlirləri artmışdır. Median gəlirlərin artımı ölkədə İİİ-nin artımına təsir göstərən amillərdəndir.

Azərbaycan Respublikasının davamlı inklüziv inkişafının insanların həyatının yaxşılaşmasına, İİİ-nin yüksəlməsinə təsiri bir neçə göstərici əsasında qiymətləndirilir. Ölkədə əhalinin həyat şəraitinin yaxşılaşması yoxsulluq səviyyəsinin azalmasında da əksini tapıb. Yoxsulluq səviyyəsi inklüziv inkişaf indeksinin hesablanmasında istifadə olunan indikatorlardan biridir.

Məlum olduğu kimi, dünya ictimaiyyəti tərəfindən 2015-2030-cu illər üçün qəbul olunmuş davamlı inkişaf məqsədlərində yoxsulluqla mübarizənin gücləndirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasında son on beş ildə yoxsulluğun səviyyəsi xeyli azalmışdır. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Respublikasında qeydə alınmış yoxsulluq səviyyəsi dünyada ən aşağı göstəricilərdəndir. Şəkil 5.43.-dən göründüyü kimi, bu amil Azərbaycanda İİİ göstəricisinin artmasına təsir etmişdir.

Davamlı inklüziv inkişafın indikatorlarını öyrənən zaman aydın oldu ki, bu qrupa gəlirlərin əhali arasında bölünməsi də aiddir. Bu, gəlirlərin bölünməsində və istehlak həcmində hazırda bir çox ölkələrdə müşahidə olunan qeyri-bərabərliyin aradan qaldırılmasına yönəldilmişdir. Azərbaycan Respublikasında da bu göstəricilər təhlil edilmişdir. Əhali arasında gəlirlərin nə dərəcədə ədalətli bölünməsi xüsusi indikatorların istifadəsi ilə həyata keçirilir. Artıq bəlli olduğu kimi, ***Cini indeksi, Kvintil nisbəti*** və ***Palma göstəricisi*** bu indikatorlardandır. İİİ-nin hesablanması zamanı onlardan biri – Cini indeksi istifadə olunur. Şəkildən bəlli olur ki, bu göstərici Azər-




***Şəkil 5.43.*** *Azərbaycan Respublikasında İnklüziv İnkişaf İndeksinin artımını təmin edən amillər*

baycanda yüksəkdir və inklüziv inkişafın tələblərinə cavab verir.

Ölkələr üçün İİİ-nin hesablanması zamanı inklüziv inkişafın nə dərəcədə davamlı olması, bu vəziyyətin gələcək nəsillərin həyatında da müşahidə edilməsi imkanları öyrənilir. Bu şansların qiymətləndirilməsində üç qrup indikatordan istifadə olunur. Bunlar ölkənin xarici borcunun həcmi, əhalinin demoqrafik asılılıq səviyyəsi və atmosferə atılan istixana qazlarının miqdarıdır.

Şəkil 5.43.-də təqdim edilmiş məlumatdan aydın olur ki, hər üç indikator Azərbaycanda yüksək səviyyədədir. Deməli, ölkədə müşahidə edilən inklüziv inkişaf yüksək səviyyədədir və bu vəziyyətin gələcəkdə də davamlı olması şansı yüksəkdir.

Azərbaycan Respublikasında inklüziv inkişafın hansı səviyyədə olması və vəziyyətin gələcək perspektivlərinin dəyərləndirilməsi bu prosesə təsir göstərən bütün indikatorların öyrənilməsini tələb edir.

### *5.4. Azərbaycan Respublikasının inklüziv inkişafına təsir göstərən iqtisadi indikatorların formalaşması*

Azərbaycan Respublikasının iqtisadi göstəricilərinin təhlili davamlı inklüziv inkişafın idarə edilməsi sahəsində biliklərin formalaşması baxımından olduqca önəmlidir. Bu sahədə mövcud məlumatlar göstərir ki, müstəqilliyin qazanılmasından az zaman keçməsinə baxmayaraq, iqtisadiyyatın bütün sahələri üzrə müsbət nəticələr əldə edilmişdir. İlk növbədə qeyd edilməlidir ki, Dünya Bankının məlumatlarına əsasən, Azərbaycan Respublikasında adambaşına ÜDM-nin əhəmiyyətli dərəcədə artımı baş vermişdir. Şəkil 5.44.-də 1999-2017-ci illərdə ölkəmizdə adambaşına ÜDM-nin artım dinamikası təqdim olunmuşdur. Dünya Bankının standartlarına görə adambaşına ÜDM-nin göstəriciləri ABŞ dollarında, ***alıcılıq qabiliyyəti pariteti*** nəzərə alınmaqla göstərilmişdir.

Şəkil 5.44.-dən aydın olur ki, təhlil edilən dövrdə ölkədə adambaşına gəlir əhəmiyyətli dərəcədə artmışdır. Bu proses 2003-2017-ci illərdə böyük sürətlə getmişdir. Dünya Bankının 2018-ci ildə dərc etdiyi məlumatlara əsaslanan müqayisəli




***Şəkil 5.44.*** *Azərbaycan Respublikasında adambaşına ÜDM, ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

təhlil göstərir ki, həmin illərdə keçmiş Sovetlər Birliyinə daxil olan ölkələr arasında ən sürətli iqtisadi artım Azərbaycan Respublikasında qeydə alınmışdır.

Azərbaycan Respublikasının iqtisadi sahədə qazandığı nailiyyətlər ***«böyük iyirmilik» (G 20)*** qrupuna daxil olan ölkələrlə müqayisə edilmişdir. Məlum olduğu kimi, bu qrupa Avropa İttifaqının bütün üzvləri və dünyanın sürətlə inkişaf edən 19 ölkəsi daxildir. Bu ölkələr arasında Çin, Hindistan, Braziliya, Türkiyə, Rusiya və digərləri yer alıblar. Həmin ölkələrlə müqayisəli təhlilin nəticələri şəkil 5.45.-də təqdim edilir.

Şəkil 2017-ci ildə 2000-ci illə müqayisədə bəzi ölkələrdəki ÜDM-nin artım tempini nümayiş etdirir. Qeyd edilməlidir ki, bu qrupa daxil olan ölkələrdə iqtisadi göstəricilərin sürətli artımı izlənilib. Bu qrupa daxil olan




***Şəkil 5.45.*** *Dünya ölkələrində sürətlə artan iqtisadiyyat və Azərbaycan Respublikası: 2017-ci ildə 2000-ci illə müqayisədə adambaşı ÜDM-nin artımı, dəfə. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

bəzi ölkələrdə artım 2-3 dəfə olmuşdur. Bu istiqamətdə uğurlu nəticələr Rusiya, Türkiyə, Qazaxıstan, Hindistan və bəzi digər ölkələrdə müşahidə edilmişdir. Şəkildən o da aydın olur ki, həmin dövrdə adambaşına orta gəlirlərin 4 dəfədən çox artımı yalnız Çin Xalq Respublikasında və Azərbaycanda qeydə alınmışdır.

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasında adambaşına orta gəlirin artması ölkədə əhalinin sayının artması nəticəsində baş vermişdir (şəkil 5.46.).

Təqdim olunmuş təhlillərdən aydın olur ki, ölkə iqtisadiyyatı sürətlə artmaqdadır. Dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqi göstərir ki, hazırda Azərbaycan Respublikasında davamlı inklüziv inkişaf edən cəmiyyətin formalaşması üçün müvafiq iqtisadi baza yaranmışdır.




***Şəkil 5.46.*** *Azərbaycan Respublikasında əhalinin sayının 1999-2017-ci illərdə artım dinamikası, milyon nəfər. Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2018*

Ölkənin inklüziv inkişaf səviyyəsinin qiymətləndirilməsi və inklüziv inkişaf indeksinin hesablanması zamanı məşğulluğun və işsizliyin nəzərə alınması vacib şərtdir. Eyni zamanda inklüziv inkişafa dair qiymətləndirmələr apararkən orta ömür müddəti haqqında məlumatlar da çox önəmlidir. Bu məlumatlar ölkədə əhalinin sağlamlıq göstəricisi kimi qəbul edilir.

Azərbaycan Respublikasında sənayenin və kənd təsərrüfatının inkişafı, xidmətlərin genişlənməsi nəticəsində ölkədə əhəmiyyətli sayda yeni iş yerləri açılmışdır. İqtisadiyyatın diversifikasiyası və modernləşməsi əhalinin iqtisadiyyatın müasir sahələrində məşğulluğunu təmin etmişdir. Rəsmi statistik məlumatlara görə, hazırda ölkədə əmək-




***Şəkil 5.47.*** *Azərbaycan Respublikasında 1999-2017-ci illərə aid orta ömür müddətinin dəyişmə dinamikası.*
*Məlumat mənbəyi: Dövlət Statistika Komitəsi, 2018*

qabiliyyətli əhali arasında işsizliyin səviyyəsi 5 faiz təşkil edir. Nəzərə alınsa ki, son on ildə ölkə əhalisinin sayı 1,5 milyon artmışdır, belə bir şəraitdə əhalinin orta gəlirlərinin artması iqtisadiyyatın sürətlə inkişafından xəbər verir. Bu isə, öz növbəsində, inklüziv inkişaf üçün əlverişli mühitin olması deməkdir. Eyni zamanda statistik məlumatlara əsasən, 2018-ci ilin sonu üçün Azərbaycan Respublikasında orta ömür müddəti artıb və hazırda 75,4 il təşkil edir (şəkil 5.47.).

Beləliklə, Azərbaycan Respublikasının iqtisadi göstəricilərinin son illərdəki artım dinamikasının təhlili göstərir ki, həyata keçirilən inkişaf strategiyası inklüziv cəmiyyətin formalaşması üçün şərait yaradır.

### *5.5. Azərbaycan Respublikasında yoxsulluğun azalması inklüziv inkişafın amili kimi*

İnklüziv inkişafın xüsusiyyəti ondadır ki, iqtisadi sahədə əldə edilən nailiyyətlər dərhal əhalinin sosial problemlərinin həllinə yönəldilir. Bu səbəbdən inklüziv inkişaf vəziyyətinin dəyərləndirilməsi zamanı – inklüziv inkişafa dair indeksi hesablayarkən ölkədə yoxsulluğun vəziyyəti, onunla mübarizənin nəticələri təhlil edilir. Məlumdur ki, yoxsulluqla, xüsusən ***mütləq yoxsulluqla***, mübarizə qlobal prioritetlər sırasındadır. 2015-ci ilin sentyabr ayında BMT və Dünya Sammitində qəbul edilmiş 17 davamlı inkişaf məqsədi arasında yoxsulluqla mübarizəyə xüsusi diqqət ayrılıb.




***Şəkil 5.48.*** *Azərbaycan Respublikasında yoxsulluğun azalma dinamikası, %. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

Bununla əlaqədar, Azərbaycan Respublikasında inklüziv inkişafın vəziyyətini dəyərləndirərkən ölkədə yoxsulluğun azalma dinamikası təhlil edilmişdir. Təhlilin nəticələri şəkil 5.48.-də təqdim olunur.

Şəkildəki məlumatlardan aydın olur ki, XXI əsrin əvvəllərində ölkəmizdə əhalinin böyük bir hissəsi yoxsul sayılırdı. Yoxsulluq səviyyəsinə Ermənistan Respublikasının işğalçı siyasəti də təsir göstərmişdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi prosesində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olundu, bir milyona yaxın qaçqın və məcburi köçkün ordusu yarandı. Böyük ərazilərin iqtisadi dövriyyədən çıxarılması, bir milyondan çox didərginin olması ölkəmizdə yoxsulluqla bağlı vəziyyəti gərginləşdirmişdi. BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin şərtsiz azad edilməsi barədə qəbul etdiyi 4 qətnamə Ermənistan tərəfindən indiyədək icra olunmur.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasının beynəlxalq qanunlara əsaslanan siyasəti bütün işğal olunmuş ərazilərin qaytarılmasını, qaçqın və məcburi köçkünlərin doğma yerlərə qayıtmasını təmin edəcək. Hazırda işğal olunmuş ərazilərin bir qisminin azad edilməsi, onların iqtisadi, sosial, demoqrafik və ekoloji reabilitasiyası sübut edir ki, bu proses uğurlu olmalıdır.

Azərbaycan Respublikasında yoxsulluqla mübarizədə qazanılmış nəticələrin təhlili göstərir ki, bu problemin həllində bir neçə amil xüsusi əhəmiyyət daşıyır. Yoxsulluqla mübarizədə qazanılmış uğurların əsasında duran birinci amil ölkədə iqtisadiyyatın 4 qat artmasıdır. Bu amil sənaye, kənd təsərrüfatı, xidmət sahələrində böyük sayda yeni iş yerlərinin yaranmasına təkan verdi, əhalinin gəlirlərinin artmasını şərtləndirdi. Yoxsulluqla mübarizədə

qazanılmış uğurlu nəticələrin digər səbəbi insan potensialının inkişafı idi.

Qeyd etmək lazımdır ki, yoxsulluqla mübarizəyə yönəldilmiş milli proqramların həyata keçirilməsində beynəlxalq təşkilatların da töhfəsi olub. Müstəqillik qazandığımız ilk illərdə BMT-nin İnkişaf Proqramı, Dünya Bankı, BMT-nin Qaçqın və məcburi köçkünlər üzrə komissiyası, Dünya Ərzaq Təşkilatı və digər təşkilatlar yoxsulluqla mübarizədə ölkəmizə dəstək olublar. Bu təşkilatların Azərbaycan Respublikasında yoxsulluqla mübarizəyə dəstəyi müxtəlif şəkildə həyata keçirilib. Ərzaq və digər maddi vəsaitlərin ayrılması, texniki, texnoloji və ekspert məsləhətləri bu dəstəyin formalarındandır. Belə tədbirlərin Azərbaycanda yoxsulluğun azalmasına əhəmiyyətli təsiri olub.

Beləliklə, aydın olur ki, inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi prosesi ilk növbədə sosial sahədə mövcud problemlərin təhlillərindən başlanır. Məhrumiyyətlər, o cümlədən yoxsulluq, ən geniş yayılmış bir vəziyyətdir. Yoxsulluq bu və ya digər şəkildə bütün ölkələrdə müşahidə edilməkdədir. Bu məhrumiyyətin səbəblərinin dəqiq müəyyən edilməsi bu vəziyyətlə mübarizənin uğurunu təmin edir. Azərbaycan Respublikasının təcrübəsi göstərir ki, yoxsulluqla uğurlu mübarizə davamlı inklüziv inkişafın vacib amilidir.

## *5.6. İnsan potensialının inkişafı inklüziv inkişafın amili kimi*

Azərbaycan Respublikasında sosial problemlərin həllində, o cümlədən yoxsulluqla mübarizədə ***insan inkişafına*** yönəldilmiş fəaliyyət xüsusi əhəmiyyətə malikdir. Məlum olduğu kimi, insan inkişafının səviyyəsi ***İnsan İnkişafı İndeksi*** vasitəsi ilə dəyərləndirilir. BMT-nin hesabatlarına əsasən, Azərbaycan Respublikasında insan inkişafı indeksi ilbəil artmaqdadır və ölkəmiz 2010-cu ildən başlayaraq insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil olmuşdur.

Azərbaycan Respublikasında insan inkişafı indeksinin dəyişmə dinamikası şəkil 5.49.-da təqdim olunub.

Məlumdur ki, beynəlxalq standartlara görə, hər bir ölkə üçün insan inkişafı indeksi üç göstərici əsasında hesablanır. Onlardan biri təhsilin səviyyəsidir. Təhsil səviyyəsini iki göstərici səciyyələndirir: ölkədə əhalinin orta hesabla neçə il təhsil alması və gənclərin neçə faizinin təhsillə əhatə olunması. Bunlar çox vacib göstəricilərdir və bir tərəfdən əhalinin bilik səviyyəsi haqqında təsəvvür yaradırsa, digər tərəfdən ölkədə təhsilə olan marağı əks etdirir, 6-23 yaşlı gənclərin neçə faizinin təhsilə cəlb olunduğunu göstərir. Bu iki parametr davamlı inklüziv inkişaf cəmiyyətinin formalaşması baxımından oduqca əhəmiyyətlidir.

Ölkələrdə insan inkişafı səviyyəsinin digər göstəricisi əhalinin sağlamlığıdır. Bu sahədə də yaranmış vəziyyət iki göstərici əsasında müəyyən edilir. Onlardan biri əhalinin gözlənilən orta ömür müddətidir. Digər sağlamlıq göstəricisi kimi bir yaşına qədər körpələrin ölüm səviyyəsi götürülür. İnsan inkişafı indeksinin hesablan-




*Şəkil 5.49. Azərbaycan Respublikasında İnsan İnkişafı İndeksinin dinamikası. Məlumat mənbəyi: BMT, 2018*

ması zamanı iqtisadi göstərici kimi adambaşına gəlirin həcmi götürülür.

Ölkəmizdə adambaşına gəlirlərin artması, ümumiyyətlə, iqtisadi durumun yüksəlməsi dövlət səviyyəsində təhsil və səhiyyəyə diqqətin artması üçün şərait yaratmışdır. Müstəqilliyin bərpasından sonra Azərbaycanda təhsilin təkmilləşməsinə yönəldilmiş fəaliyyətə start verilmişdir. Həmin fəaliyyətin bir istiqaməti təhsilin maddi bazasının möhkəmləndirilməsidir. Bu fəaliyyət yeni tədris müəssisələrinin tikilməsi, yaxud əsaslı təmiri hesabına reallaşdırılır. Eyni zamanda tədris proqramlarının müasirləşməsi prosesi də həyata keçirilməkdədir. Dərc edilmiş məlumatlara görə, son 15 ildə ölkəmizdə üç mindən artıq yeni məktəb tikilib, yaxud əsaslı şəkildə yenidən qurulub. Həm orta, həm də

ali məktəblərin tədris proqramları müasirləşdirilmişdir. Bu tədbirlər ölkəmizdə təhsilin yüksək səviyyəsinin qorunmasını və inkişaf etdirilməsini təmin edir.

Azərbaycan Respublikasında insan inkişafının formalaşmasının xüsusiyyəti bir də ondadır ki, ölkəmiz bu sahədə yeni fənnin və müasir biliklərin tədris proqramlarına daxil edilməsinin təşəbbüskarıdır. Məsələn, ümummilli lider Heydər Əliyev tərəfindən təsdiqlənmiş milli təhsil konsepsiyasına görə, davamlı insan inkişafının orta ümumtəhsil məktəblərində tədrisinə 2001-ci ildən başlanılmışdır. Dünya səviyyəsində bu qlobal prosesə yalnız 4 il sonra, 2005-ci ildə start verilib. Həmin il BMT və UNESCO 2005-2014-cü illəri dünyada davamlı inkişaf sahəsində tədris onilliyi elan etmişdi. Bu prosesə 4 il öncə başlamış Azərbaycan Respublikasının təşəbbüsü «innovativ ideya və fəaliyyət» kimi dəyərləndirilmiş və ölkəmizin təşəbbüsü barədə məlumat BMT tərəfindən bütün dünyaya yayılmışdı.

Bu tendensiya 2015-ci ildə ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə davam etdirilmiş və ölkəmizin ali məktəblərində dünyada ilk dəfə yeni ixtisas – «davamlı inkişafın idarə edilməsi» ixtisası üzrə kadr hazırlığına başlanılmışdır.

Azərbaycan Respublikasında insan inkişafı indeksinin yüksəlməsinə idman və tibb bazasının gücləndirilməsi və genişlənməsi də təsir etmişdir. Ölkəmizdə 50 olimpiya mərkəzi, onlarla tibbi mərkəz yaradılıb. Bütün bu tədbirlər inklüziv inkişaf, bu prosesin davamlılığının təmini baxımından olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasının inkişaf strategiyası bir daha təsdiq edir ki, insan inkişafının yüksək səviyyədə olması davamlı inklüziv inkişafın vacib şərtidir.

### 5.7. Əhali arasında gəlirlərin paylanması

Ölkələrin inklüziv inkişaf sahəsində fəaliyyəti dəyərləndirilərkən, inklüziv inkişaf indeksi hesablanarkən əhali arasında gəlirlərin paylanması, bu sahədə mövcud bərabərsizlik nəzərə alınır. Beynəlxalq standartlara əsasən, gəlirlərin əhali arasında ədalətli bölünməsini əks etdirən kəmiyyət göstəricisi üç müxtəlif indikator əsasında müəyyən edilə bilər. Bunlar ***Cini indeksi, Kvintil nisbəti*** və ***Palma göstəricisidir.*** İnklüziv indeksin hesablanması zamanı əsasən Cini indeksindən istifadə olunur. Digər iki göstərici də köməkçi vasitə kimi inklüziv inkişafın dəyərləndirilməsi zamanı təhlillərə cəlb edilə bilər.

Məlumdur ki, Cini indeksi cəmiyyətdə qeyri-bərabər istehlakı, əhali arasında maddi təminata görə təbəqələş-




***Şəkil 5.50.*** *Azərbaycan Respublikasında və «böyük yeddilik» (G 7) ölkələrində Cini əmsalı. Məlumat mənbəyi: BMT, 2017*

məni səciyyələndirən bir göstəricidir. Deməli, bu göstərici hər hansı bir ölkənin, o cümlədən Azərbaycan Respublikasının inklüziv inkişaf edən cəmiyyətə keçidə hazırlığının təzahürüdür.

Sosial baxımdan inklüziv cəmiyyətin qurulmasında ölkələrin hazırlıq səviyyələri müqayisəli təhlillər əsasında müəyyən edilə bilər. Bu müqayisələrdə müxtəlif ölkələrin Cini əmsalından da istifadə olunması mümkündür. Azərbaycan Respublikasında gəlirlərin ədalətli bölünməsi dərəcəsinin dəyərləndirilməsi məqsədilə ölkəmizin Cini indeksi «böyük yeddilik» (G 7) ölkələrinin eyni göstəricilərilə müqayisə edilmişdir. Müqayisənin nəticələri şəkil 5.50.-də nümayiş olunub.

Bəllidir ki, Cini indeksi nə qədər az olsa, cəmiyyətdə gəlirlər və istehlaka görə təbəqələşmə də bir o qədər az olar. Bu, eyni zamanda o deməkdir ki, Cini indeksinin dəyəri nə qədər az olsa, gəlirlər cəmiyyətdə daha ədalətli bölünər. Bu isə inklüziv cəmiyyətin əsas tələblərindəndir. Şəkil 5.50.-də təqdim olunmuş məlumatlar göstərir ki, Cini indeksinə görə, Azərbaycan «böyük yeddilik» (G 7) ölkələri arasında yalnız Almaniyadan geridədir. Bu qrupa daxil olan digər 6 ölkənin Cini indeksi Azərbaycanınkından yüksəkdir. Deməli, Azərbaycan Respublikasında həyata keçirilən inkişaf strategiyası, bu sahədə aparılan siyasət inklüziv cəmiyyətin qurulmasına və onun davamlılığına yönəldilib.

Qəbul olunmuş standartlara görə, inklüziv inkişaf indeksinin (İİİ) hesablanması üçün yalnız Cini indeksindən istifadə edilməsi yetərlidir. Azərbaycan Respublikası üçün İİİ hesablananda Cini indeksindən istifadə olunub. Lakin ölkənin inklüziv inkişafa hazırlığını dəyərləndirmək üçün digər iki göstəricinin təhlili də faydalı ola bilər. Bu səbəbdən




*Şəkil 5.51. Azərbaycan Respublikasında və İƏİT ölkələrində Kvintil nisbətin dəyərləri. Məlumat mənbəyi: BMT, 2017*

inklüziv inkişafın idarə edilməsi üçün ***Kvintil nisbəti*** və ***Palma göstəricisi*** haqqında biliklər əhəmiyyətlidir. Azərbaycanda inklüziv cəmiyyətin qurulmasına hazırlıq dərəcəsini dəyərləndirərkən bu iki sosial göstəricidən də istifadə edilib.

Azərbaycan Respublikasının inklüziv inkişaf naminə həyata keçirdiyi strategiyanın səmərəliliyi sosial siyasəti səciyyələndirən digər göstərici – Kvintil nisbətin təhlili zamanı da özünü büruzə verdi. Artıq bəlli olduğu kimi, Kvintil nisbətin dəyərləndirilməsi zamanı əhali arasında 20 faiz ən zəngin olanların orta gəlirlərinin 20 faiz ən yoxsul əhalinin orta gəlirini neçə dəfə üstələdiyi müəyyən edilir. Alınmış rəqəm nə qədər aşağı olsa, ölkənin siyasəti sosial baxımdan bir o qədər ədalətli dəyərləndirilir. Şə-




***Şəkil 5.52.*** *Azərbaycan Respublikası və İƏİT ölkələrində Palma göstəricisi. Məlumat mənbəyi: BMT, 2017*

kil 5.51.-də Azərbaycan Respublikasında və İƏİT-nin bəzi ölkələrində Kvintil nisbəti müqayisə edilib.

Şəkil 5.51.-də İƏİT ölkələri və Azərbaycanda Kvintil nisbəti təhlil və müqayisə edilir. Müqayisə və qiymətləndirmələrdən aydın olur ki, Kvintil üsulu ilə dəyərləndirmələr zamanı Azərbaycan Respublikasının sosial siyasəti uğurlu hesab edilə bilər. Şəkil 5.52.-də aydın görürük ki, ölkəmizin sosial siyasət göstəriciləri dünya liderləri sırasına daxil olan İtaliya, Belçika, ABŞ, İsrail və Rusiyanın nailiyyətlərindən üstündür.

Yuxarıda qeyd olunduğu kimi, beynəlxalq statistikada Palma üsulu adı ilə tanınan və gəlirlərin paylanmasını dəyərləndirən digər bir göstərici də məlumdur. Əhali arasında gəlirlərin qeyri-bərabər paylanmasını səciyyələndirən bu göstərici 2011-ci ildən istifadə edilir. Palma

göstəricisinin yüksək olması əhali arasında gəlirlərin qeyri-bərabər paylanmasının təzahürüdür. Bu üsulla aparılan təhlillərin nəticələri şəkil 5.52.-də öz əksini tapıb. Təhlillərin nəticələrindən aydın olur ki, Azərbaycanda Palma göstəricisi yüksək deyil və inklüziv cəmiyyətin tələblərinə cavab verir. İƏİT ölkələri ilə müqayisələr də bu qənaəti təsdiqləyir.

Beləliklə, inklüziv inkişafın vacib göstəricilərindən olan gəlir və istehlakda qeyri-bərabərlik səviyyəsinin təhlili göstərir ki, Azərbaycan Respublikasında bu göstəricilər inklüziv inkişaf edən cəmiyyətin tələblərinə tam cavab verir. Bunu inkişafda yüksək iqtisadi nailiyyətlər qazanmış ölkələrlə müqayisələr nəticəsində də müşahidə etmək mümkündür.

Qeyd edilməlidir ki, Azərbaycanda gəlir və istehlakda bərabərsizliklə əlaqədar vəziyyətin dəyərləndirilməsi bu məqsədlə istifadə edilən üç üsulla qiymətləndirilib. Hər üç dəyərləndirmənin nəticələri göstərir ki, bərabərsizliklə əlaqədar sosial göstəricilər inklüziv inkişaf edən cəmiyyətin tələblərinə cavab verir.

## *5.8. Median və modal gəlirlər inklüziv inkişaf göstəriciləri kimi*

İnklüziv inkişaf edən cəmiyyətin formalaşması prosesi əhalinin maddi durumundan əhəmiyyətli dərəcədə asılıdır. Əhalinin layiqli həyat sürməsi, insanların yüksək maddi durumda olması inklüziv inkişafın vacib şərtidir. Bu səbəbdən inklüziv cəmiyyətin formalaşması prosesində əhalinin gəlirləri nəzərə alınır. Məlumdur ki, statistikada əhalinin gəlirləri müxtəlif cür ifadə edilə bilər (cədvəl 5.6.).

*Cədvəl 5.6.* Gəlirlərin qiymətləndirilməsi üçün istifadə olunan məlumat mənbələri

| Gəlir göstəriciləri | Hesablama üsulu | İİİ hesablanması üçün istifadə imkanı |
|---|---|---|
| **Əhalinin orta gəliri** | Adambaşına ÜDM | Real vəziyyəti əks etdirmir. Bu göstəriciyə görə hamının gəliri eynidir. |
| **Muzdlu işçilərin gəlirləri** | Müzdlu işçilərin orta əməkhaqqı | Real gəlirləri əks etdirmirlər. Maksimal və minimal qiymətlər arasında böyük fərq var. |
| **Modal gəlirlər** | Əhali arasında ən çox rast gəlinən gəlirlər | İİİ-nin hesablanmasında istifadə edilə bilər. |
| **Median gəlirlər** | Əhalini gəlirlərə görə iki yerə bölən gəlirlər: yarısı bu məbləğdən çox, digər yarısı isə az alır. | İİİ-nin hesablanmasında istifadə edilə bilər. |

Gəlirlərin göstəricisi kimi ən çox istifadə olunan indikator il ərzində hər adamın payına düşən ümumdaxili məhsulun (ÜDM) həcmidir. Bu, müxtəlif iqtisadi və sosial tədqiqatlarda ən çox istifadə olunan statistik göstəricidir. Bu göstərici həddən artıq ümumiləşdirilmişdir və ölkədə hər bir vətəndaşın maddi durumundan xəbər vermir. Bu onun nəticəsidir ki, bir çox ölkələrdə gəlirlər və istehlaklarda qeyri-bərabərlik mövcuddur. Məlum olduğu kimi, gəlir və istehlakda qeyri-bərabərliyin səviyyəsi Cini indeksi, Kvintil nisbəti və Palma göstəricisi kimi indikatorlarla müəyyən edilir. Tədqiqatlar göstərmişdir ki, Azərbaycan Respublikasında və bir sıra digər ölkələrdə istehlakda fərqlər yüksək deyil. Lakin hətta

belə bir şəraitdə bu ölkələrdə fərqlər az olsa da, qeyri-bərabərlik mövcuddur. Bu səbəbdən adambaşına ÜDM ölkədə gəlirlərin göstəricisi kimi inklüziv inkişafın planlaşdırılması və idarə edilməsində istifadə edilə bilməz. Bu öz təsdiqini onda tapır ki, bir sıra ölkələrdə ÜDM-nin əsasında hesablanmış adambaşına gəlir yüksək, inklüziv inkişaf isə bir o qədər yüksək deyil.

İnklüziv inkişaf indeksinin hesablanması üçün muzdlu işçilərin orta əməkhaqqından istifadə bir o qədər səmərəli hesab edilə bilməz. Rəsmi statistikaya görə, 2018-ci ilin əvvəlində Azərbaycan Respublikasında orta əməkhaqqı ayda 527 manat təşkil edirdi. Bu, 2017-ci illə müqayisədə 6 faiz artıqdır. Lakin bu rəqəm orta göstəricidir. Real həyatda isə bəzi vətəndaşların əmək haqqı bu orta gəlirdən dəfələrlə çox, digərlərinki isə az olur. Bu səbəbdən inklüziv inkişaf indeksinin hesablanmasında ***median gəlirlər*** göstəricisindən istifadə edilməkdədir. Bu zaman ölkə əhalisinin real gəlirləri haqqında daha dəqiq məlumat öyrənmək mümkündür. Qeyd edilməlidir ki, son illər Azərbaycanda əhalinin median gəlirləri daim artmaqdadır. Bu isə inklüziv inkişaf baxımından olduqca əhəmiyyətlidir.

Ekspertlərin fikirlərinə görə, inklüziv inkişaf indeksinin dəyərləndirilməsində köməkçi bir göstərici kimi ***modal gəlirlərdən*** də istifadə edilə bilər. Amma bu göstəricidən istifadəni məhdudlaşdıran amillər də mövcuddur. Məhdudiyyətlər, əsasən, onunla əlaqədardır ki, modal gəlirlər haqqında məlumatlar yalnız sorğular zamanı üzə çıxır. Bu yolla məlumatların toplanması problematik olduğu üçün həmin göstəricidən köməkçi kimi istifadə edilə bilər.

Beləliklə, bu bölmədə təqdim olunmuş məlumatlardan aydın olur ki, Azərbaycan Respublikasında həyata keçirilən siyasət ölkədə inklüziv inkişaf edən cəmiyyətin formalaşmasına yönəldilmişdir. Bölmədə təqdim olunmuş biliklər inklüziv inkişafın planlaşdırılmasında və idarə edilməsində elə üsulların istifadəsini nəzərdə tutur ki, onlar, eyni zamanda bu prosesin davamlılığını təmin edir.

İnklüziv inkişafın davamlı olması, bu prosesin gələcək nəsillər üçün də qorunub saxlanılması vacib şərtdir. Bunu təmin etmək üçün davamlı inklüziv inkişafın uzunmüddətli indikatorları haqqında biliklər formalaşdırmaq lazımdır. Azərbaycan Respublikasında toplanmış təcrübənin təhlili bu sahədə biliklərin artmasına xidmət edir.

## *5.9. Ölkənin xarici borcu davamlı inklüziv inkişafın indikatoru kimi*

İnklüzivlik prinsiplərinə əsaslanan cəmiyyətin formalaşması qlobal prioritetdir və dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Lakin hər hansı bir ölkənin inklüziv inkişaf sahəsində yüksək nəticələri yalnız o halda uğurlu hesab edilir ki, bu proses davamlı olur, gələcək nəsillər də ondan faydalana bilər. İnklüziv inkişafın uğurlu idarə edilməsi üçün bu prosesin uzunmüddətliliyini və davamlılığını təmin edən amillər haqqında biliklərin olması vacibdir. Beynəlxalq standartlara görə, inklüziv inkişaf prosesinin davamlılığına təsir göstərən amillərdən biri ölkənin xarici borcunun həcmidir. Öncəki bölmələrdə göstərilmişdir ki, ölkədə xarici borcun həcminin yüksək olması inklüziv inkişafın davamlılığını məhdudlaşdıran amillərdəndir. Bu onunla əlaqədardır ki, xarici borc üçün

hər il müvafiq faizlər ödənilməlidir. Əgər dövlət borcları yüksəkdirsə və uzun müddətə götürülmüşdürsə, o halda borcların illik xidmət haqqı və onların qaytarılması gələcək nəsillərin probleminə çevrilə bilər. Bu səbəbdən xarici borcun həcmi inklüziv inkişafın indikatorlarından biridir. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasının xarici borcunun həcmi yüksək deyil. Rəsmi statistikaya əsasən, ölkəmizin xarici borcu hazırda ölkənin ümumdaxili məhsulunun 18 faizini təşkil edir.

Qeyd edilməlidir ki, bəzi hallarda ölkənin xarici borcu illik ÜDM həcmində olur. Böyük xarici borc gələcək davamlı inklüziv inkişaf üçün risk amili olsa da, bəzi ölkələrdə düşünülmüş iqtisadi siyasət xarici borcun yüksəlməsi üçün əsas yaradır. Qeyd edildiyi kimi, Azərbaycan Respublikasında xarici borcun həcmi yüksək deyil və inklüziv inkişaf üçün risk yaratmır.

### *5.10. Əhalinin demoqrafik strukturu inklüziv inkişaf riski kimi*

Məlumdur ki, inklüziv inkişaf indeksinin hesablanması zamanı istifadə edilən indikatorlar arasında demoqrafik göstəricilər də mövcuddur. Əhalinin asılılıq dərəcəsi davamlı inklüziv inkişaf üçün risk yaradan amillərdəndir. Demoqrafiyada asılılıq göstəricisinin hesablanması zamanı hər yüz əməkqabiliyyətli şəxsin (15-64 yaş) payına düşən asılı yaşda (0-14, 65 və daha çox) olanların sayı nəzərə alınır. Azərbaycan Respublikasında hər 100 əməkqabiliyyətli şəxsin payına 38 asılı yaşda olan düşür. Qeyd edilməlidir ki, demoqrafik baxımdan bu, yaxşı nəticədir. Bu sahədə yaranmış vəziyyət şəkil 5.53.-də verilmişdir.




***Şəkil 5.53.*** *Azərbaycan Respublikasında əhalinin yaş strukturu, %.*
*Məlumat mənbəyi: Azərbaycan Respublikası*
*Dövlət Statistika Komitəsi, 2018*

Qeyd edildiyi kimi, beynəlxalq təşkilatların məlumatlarına əsasən, Azərbaycan Respublikasında inklüziv inkişaf indeksi kifayət dərəcədə yüksəkdir. Şəkil 5.53.-də təqdim olunmuş məlumatlar göstərir ki, ölkədə yaranmış demoqrafik vəziyyət gələcəkdə də inklüziv inkişafın yüksək səviyyədə olması üçün əlverişlidir. Rəsmi statistikaya görə, Azərbaycan Respublikası əhalisinin 70,7 faizi əməkqabiliyyətlidir. O ki qaldı demoqrafik asılı qruplara, burada asılılar, əsasən, cavanlar deyil. Bu o deməkdir ki, ölkə gələcəkdə də əməkqabiliyyətli əhali ilə təmsil olunacaq. Bu, inklüzivliyi gələcəkdə də qorumaq üçün vacib amildir.

### 5.11. Qlobal iqlim dəyişmələrinə təsirlərin azalması davamlı inklüziv inkişafın amili kimi

Məlumdur ki, qlobal iqlim dəyişiklikləri bir çox proseslərə mənfi təsir göstərir. Artıq aydındır ki, iqlimin qlobal dəyişmələri bir çox təbii fəlakətlərə səbəb olur (şəkil 5.54.).

Şəkil 5.54.-də qlobal iqlim dəyişmələrinin bəzi fəsadları haqqında məlumatlar təqdim edilib. Bu gün artıq müşahidə edilən klimatik anormallıqlar, okeanların səviyyəsinin və




***Şəkil 5.54.*** *Qlobal iqlim dəyişmələrinin bəzi fəsadları*

kimyəvi tərkibinin dəyişməsi, kənd təsərrüfatı üçün yararlı torpaqların itirilməsi, ərzaq və içməli su çatışmazlığı, biomüxtəlifliyin itirilməsi iqlim dəyişmələrinin fəsadlarının yalnız bir hissəsidir. Bu səbəbdən qlobal iqlim dəyişmələri davamlı inklüziv inkişafa təsir edən amil kimi qiymətləndirilir və inklüziv inkişaf indeksinin hesablanması zamanı nəzərə alınır.

Məlumdur ki, qlobal iqlim dəyişmələri atmosferə atılan istixana qazları ilə əlaqədardır. Bu təsirin qiymətləndirilməsi iki üsula əsaslanır. Bu üsulların biri il ərzində ölkədə adambaşına atmosferə atılan karbon qazının ($CO_2$) miqdarıdır və tonla göstərilir. İkinci üsulun tətbiqi zamanı 1 ABŞ dolları dəyərində ÜDM-nin istehsalı zamanı




**Şıkil 5.55.** *Atmosferə $CO_2$-nin atılmasının azalması dinamikası, 2000-2014-cü illər*, dəfə. Məlumat mənbəyi: Dünya Bankı, 2018.*
**2018-ci ildə dərc edilmiş son məlumatlar*

atmosferə atılan $CO_2$ miqdarı götürülür. Bu halda atmosferə atılan karbon qazının miqdarı kiloqram və ya qramla, ABŞ dolları ilə, ***alıcılıq qabiliyyəti pariteti*** nəzərə alınmaqla göstərilir. Qeyd edilməlidir ki, iqlim dəyişmələrinə təsirlərin dəyərləndirilməsi prosesində ikinci üsuldan daha çox istifadə olunmaqdadır. Bu onunla əlaqədardır ki, bu üsul daha çox məlumat ehtiva edir və iqtisadiyyatın inkişafında innovativ texnologiyaların istifadəsindən xəbər verir. Eyni dəyərdə ÜDM-nin istehsalı zamanı atmosferə daha az ***istixana qazlarının*** atılması istehsal prosesinin innovativ texnologiyalar əsasında idarə edilməsinə işarədir.

Azərbaycan Respublikası inklüziv inkişaf sahəsində yüksək nəticələr əldə etmişdir. Bu nailiyyətin əsasında məqsədyönlü siyasət durur. Siyasət ona yönəldilib ki, inklüziv inkişafın bütün indikatorlarının təkmilləşdirilməsinə nail olunsun. Bu fəaliyyət, eyni zamanda ölkənin beynəlxalq müqavilələrlə nəzərdə tutulmuş öhdəliklərinin yerinə yetirilməsi ilə əlaqədardır. Şəkil 5.55.-də keçmiş SSRİ ölkələrində istixana qazlarının atmosferə atılmasının azaldılması barədə məlumatlar təqdim edilmişdir.

Şəkil 5.55. göstərir ki, keçmiş SSRİ ölkələri on dörd il ərzində atmosferə atılan istixana qazlarının miqdarını azaltmışlar. Lakin beynəlxalq konvensiyaların tələblərinin yerinə yetirilməsi sahəsində ölkələrin fəaliyyəti fərqlidir. Bu sahədə ən yüksək səmərəlilik Azərbaycan Respublikası tərəfindən nümayiş etdirilmişdir. Bu göstəriciyə görə Azərbaycanın qazandığı nailiyyətlər bu gün Avropa İttifaqının üzvü olan keçmiş SSRİ daxilindəki ölkələrə də aiddir.

Şəkil 5.56.-dan görünür ki, Azərbaycan Respublikası inklüziv inkişafın bu göstəricisinə görə, neft və qaz ixrac




***Şəkil 5.56.*** *Neft və qaz istehsal və ixrac edən ölkələrdə atmosferə atılan istixana qazları: 1 ABŞ dolları dəyərində ÜDM-yə kq, APQ nəzərə alınmaqla. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

edən ölkələr arasında liderlər sırasındadır. Qeyd edilməlidir ki, bizim ölkə son on beş ildə 1 ABŞ dolları dəyərində ÜDM istehsal edərkən, atmosferə istixana qazlarının atılmasını 5 dəfə azaltmışdır. Bu səbəbdən davamlı inklüziv inkişafın sözügedən göstəricisinə görə Azərbaycan neft və qaz ixrac edən ölkələr arasında yalnız Norveçdən geridədir. Dünya Bankının məlumatlarına görə, bu qrupa aid olan ölkələr eyni iqtisadi nəticəni əldə etmək üçün Azərbaycanla müqayisədə atmosferə 2,5–4,5 dəfə çox istixana qazı ($CO_2$) atır.

Şəkildən göründüyü kimi, bu vacib göstəriciyə görə, Azərbaycan Respublikası Xəzəryanı ölkələr arasında da liderdir. Belə ki, eyni iqtisadi səmərəni qazanmaq üçün

Rusiya Federasiyası, İran İslam Respublikası, Qazaxıstan atmosferə Azərbaycandan 2,5 dəfə çox istixana qazı atır. Türkmənistanda isə bu rəqəm 4,5 dəfə çoxdur.

Qeyd etmək lazımdır ki, iqlim dəyişmələri kimi qlobal problemin baş verməsinə istixana qazlarının atmosferə atılması ilə yanaşı, dünyada meşə sahələrinin azalması da təsir göstərir. Dərc edilmiş ekspert dəyərləndirmələrinə görə, dünyada meşələrin sahəsi təxminən 6 milyon hektar azalıb. Azərbaycan Respublikasında, əksinə, meşələrin bərpası, yeni meşə sahələrinin salınması müşahidə edilməkdədir. Bu prosesdə dövlət təşkilatları ilə yanaşı, ictimai təşkilatların, vətəndaş cəmiyyətinin fəaliyyəti çox




***Şəkil 5.57.*** *Azərbaycan Respublikasında qorunan təbii ərazilərin sahəsinin dəyişmə dinamikası, hektar, 2003–2017-ci illər. Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2018*

böyük rol oynayır. İctimai təşkilatlar arasında İDEA hərəkatının, onun təsisçisi və rəhbəri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rolu xüsusi əhəmiyyətə malikdir.

Qeyd edilməlidir ki, uzunmüddətli davamlı inklüziv inkişaf üçün qorunan təbii ərazilərin çoxalması da olduqca önəmlidir. Azərbaycan Respublikasında davamlı inkişaf və onun inklüzivliyinin təmin olunmasına yönəldilmiş fəaliyyətlər arasında milli parkların, qoruqların, digər qorunan təbii ərazilərin artırılmasına xüsusi diqqət yetirilir. Nəticədə qorunan təbii ərazilərin artması müşahidə edilir (şəkil 5.57.).

Beləliklə, hazırkı dərslikdə təqdim olunmuş məlumatlar göstərir ki, iqtisadi və sosial inkişafın idarə edilməsində istifadə olunan innovativ texnologiyalar sahəsində bilik və bacarıqlar inklüziv inkişaf edən cəmiyyətin formalaşmasını və bu prosesin davamlılığını təmin edən əsas amildir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, Azərbaycan Respublikası bu istiqamətdə çox yüksək nəticələr əldə etmişdir. Bunu Azərbaycan Respublikasının nailiyyətlərinin digər ölkələrlə müqayisəsi göstərir. Dərsliyin növbəti bölməsi bu sahədə bilik və bacarıqların formalaşmasına həsr edilmişdir.

## *5.12. Özümüzü sınayaq: sual və tapşırıqlar*

1. Azərbaycanın hansı nailiyyətləri İİİ-nin artımına yol açıb?
2. Azərbaycanda inklüziv inkişafın iqtisadi indikatorlarını necə xarakterizə etmək olar? Misallar gətirin.

3. Azərbaycanda yoxsulluqla mübarizə mexanizmləri hansılardır? Nəticələri xarakterizə edin.
4. İnsan potensialının inkişafı inklüziv inkişafa necə təsir edir?
5. İnklüziv inkişaf şəraitində sosial siyasətin qiymətləndirilməsi üçün hansı indikatorlardan istifadə edilir?
6. Azərbaycanda Kvintil nisbəti və Palma əmsalı kimi göstəricilər necə xarakterizə edilir? Digər ölkələrlə müqayisələr aparın.
7. Median və modal gəlirlər nədir və İİİ-nin hesablanması zamanı onlardan necə istifadə edilir?
8. Ölkənin xarici borcu nədir və bu göstərici inklüziv inkişafa necə təsir göstərir?
9. Azərbaycan əhalisinin demoqrafik strukturu necədir?
10. Azərbaycanda istixana qazlarının atmosferə atılması dinamikasını necə dəyərləndirərdiniz?

# 6. AZƏRBAYCAN RESPUBLİKASININ İNKLÜZİV İNKİŞAFININ MÜQAYİSƏLİ QİYMƏTLƏNDİRİLMƏSİ

*İqtisadi və sosial strategiyalar davamlı inklüziv inkişafın amilləri kimi. İqtisadiyyatın diversifikasiyası. Xidmət sahələrində innovativ texnologiyalar. İqtisadi potensial və inklüziv inkişaf arasında korrelyasiya əlaqələri. Azərbaycan Respublikası və «böyük yeddilik», Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrdə inklüziv inkişafın vəziyyətinin müqayisəli dəyərləndirilməsi.*

*6.1. Bölmənin məqsədi*
*6.2. Açar söz və anlayışlar*
*6.3. Sənayenin diversifikasiyası və inklüziv inkişaf*
*6.4. İnklüziv inkişaf naminə aqrar sahənin inkişafı*
*6.5. Sosial innovasiyalar inklüziv inkişafı sürətləndirən amil kimi*
*6.6. Azərbaycan Respublikasının inklüziv inkişaf göstəricilərinin beynəlxalq müqayisəsi*
*6.7. «Böyük yeddilik» (G7), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin və Azərbaycan Respublikasının inklüziv inkişaf indekslərinin müqayisəsi*
*6.8. Özümüzü sınayaq: sual və tapşırıqlar*

### *6.1. Bölmənin məqsədi*

Hazırkı bölmənin məqsədi Azərbaycan Respublikası timsalında uğurlu inklüziv inkişafı təmin edən şərtlərin öyrənilməsi, bu biliklər əsasında müvafiq bacarıqların formalaşmasıdır. Bu məqsədə nail olmaq üçün inklüziv inkişafı təmin edən qlobal və milli strategiyalar, həmçinin inklüziv inkişafa və bu proseslərin davamlılığına kompleks şəkildə yol açan amil kimi iqtisadi, sosial və təbii ətraf mühitin qiymətləndirilməsinə dair biliklər, bu proseslərin idarə edilməsi sahəsində bacarıqlar dərindən təhlil edilir. Bu səbəbdən hazırkı bölmədə milli institutların sənaye, kənd təsərrüfatı, xidmət sahəsində səmərəli fəaliyyətinin xüsusiyyətlərini xarakterizə edən misallara geniş yer verilib. Dərsliyin bu bölməsi inklüziv inkişaf və onun gələcəkdə də davamlılığının təmin edilməsində əsas amilin bu prosesləri yeni ideya, biliklər və texnologiyalar əsasında səmərəli idarəetmə olması barədə biliklər formalaşdırır. Belə yanaşma müxtəlif ölkələrin inklüziv inkişaf səviyyələrinin müqayisəli qiymətləndirilməsinə uyğun əsaslandırılır. Azərbaycan Respublikasında inklüziv inkişaf sahəsində qazanılmış nailiyyətlər «böyük yeddilik» (G 7), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT), Avropa İttifaqına üzv ölkələrin göstəriciləri ilə müqayisə edilir. Eyni zamanda keçmiş Sovet İttifaqı ölkələrinin göstəriciləri də müqayisəli təhlilə cəlb edilir. Müqayisələr əsasında formalaşan biliklər ondan ibarətdir ki, inklüziv inkişaf sahəsində qazanılmış yüksək nailiyyətlərin əsasında düzgün müəyyən edilmiş strategiya, müasir biliklərə əsaslanan innovativ texnologiyalar durur. Düzgün seçilmiş strategiya və müasir idarəetmə texnologiyalarının tətbiqi nəticəsində davamlı inklüziv inkişaf sahəsində yüksək nəticələr hətta maliyyə vəsaitlərinin məhdudluğu şəraitində də mümkündür. Bu sahədə biliklər hazırkı bölmədə müzakirə edilir.

### *6.2. Açar söz və anlayışlar*

*Sənaye parklarının və sənaye məhəllələrinin rezidentləri; Bir kq neftdə olan enerjinin ekvivalenti.*

### *6.3. Sənayenin diversifikasiyası və inklüziv inkişaf*

Məlumdur ki, iqtisadiyyatın əsas istiqamətlərinin çoxtərəfli inkişafı və sosial sahədə sürətli tərəqqi inklüziv inkişafın əsas xüsusiyyətlərindəndir. Çox önəmlidir ki, ölkənin inklüziv inkişafının müsbət nəticələrini hər bir vətəndaş hiss edir. İnklüziv inkişaf sahəsində nəzərəçarpacaq nəticələr əldə etmək üçün ölkə iqtisadiyyatının inkişafı vacib şərtdir. Eyni zamanda önəmlidir ki, sənayenin inkişafı yüksək rəqabət qabiliyyətinə malik olan innovativ istehsal hesabına həyata keçirilsin. Bu amil ***texnoloji geriləmə ilə inkişafın*** qarşısının alınması baxımından olduqca əhəmiyyətlidir.

Göstərilən sahədə nailiyyətlər müxtəlif yollarla əldə edilə bilər. Bunların arasında uğurlu inklüziv inkişafı təmin edən əsas amil yeni biliklərə əsaslanan innovativ idarəetmə texnologiyalarıdır. Azərbaycan Respublikasının inklüziv inkişaf sahəsində qazandığı uğurların əsasında da innovativ idarəetmə texnologiyaları durur. Bunlardan ***sinergetik, komplementar və kompensasion*** texnologiyalar və onların birgə istifadəsi xüsusilə əhəmiyyətlidir. Bu texnologiyaların istifadəsinin səmərəliliyini Azərbaycan Respublikasının davamlı inklüziv inkişafın əsaslarından biri olan iqtisadi artım sahəsindəki uğurları da təsdiqləyir. Azərbaycan iqtisadiyyatının inkişafında qazanılmış yüksək nəticələr «böyük iyirmiliyə» (G 20) daxil olan ölkələrin iqtisadiyyatları ilə müqayisəli təhlildən də aydın olur. Azərbaycanda iqtisadi



*Sumqayıt Kimya Sənaye Parkı*

artım 2000-ci illə müqayisədə 2017-ci ildə 4,8 dəfə çox olmuşdur. Dünya Bankının hesabatlarına əsasən, həmin dövrdə dünyada yalnız bir ölkədə iqtisadi artım Azərbaycandan yüksək olmuşdur. Belə ki, Çin Xalq Respublikasında eyni dönəmdə iqtisadiyyat 5,2 dəfə artmışdır.

Aydındır ki, sürətli iqtisadi artım eyni zamanda iqtisadiyyatın diversifikasiyası, sənayenin şaxələnməsi üçün şərait yaradır. Bu isə, öz növbəsində, inkişaf prosesinin, o cümlədən inklüziv inkişafın gələcəkdə də davamlılığının təmini üçün vacib şərtdir. Sənayenin diversifikasiyasının əsas üstünlüyü ondadır ki, bu proses nəticəsində məhdud çeşiddə məhsul istehsal edən iqtisadiyyat şəraitində baş verə bilən risklər aradan qaldırılır. Müxtəlif istiqamətlərdə inkişaf etmiş iqtisadiyyat eyni zamanda əhalinin bilik və peşə hazırlığının yüksəlməsinə də xidmət edir. Bu isə inklüziv inkişaf üçün önəmli olan sosial risklərin aradan qalxmasına yol açır.



*Ələt Azad İqtisadi Zonası*

İnklüziv inkişaf məqsədlərinə nail olunması və bu prosesin gələcək nəsillər üçün davamlılığının təmin edilməsi üçün təkcə iqtisadi artım kifayət deyil. Artıq göstərildiyi kimi, bütün iqtisadiyyatın diversifikasiyası və innovativ idarəetmə texnologiyalarının tətbiqi inklüziv inkişafın vacib şərtidir. Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonrakı dövrün ilk illərində sənayenin əsas istiqamətini neft və qaz istehsalı, bu məhsulların ixracı təşkil etmişdir. Sənayenin bu istiqamətinin inkişafı, eyni zamanda iqtisadiyyatın digər sahələrinin inkişafı üçün də şərait yaratmışdır. Bu səbəbdən davamlı inklüziv inkişafı təmin etmək üçün sənayenin diversifikasiyası vacib şərt kimi dəyərləndirilirdi. Azərbaycanda bu, həm də qeyri-neft sektorunun inkişafı demək idi. Həm də iqtisadiyyatın yeni yaradılan istiqamətlərinin innovativ və yüksək rəqabət qabiliyyətinə malik olması önəmli amildir. İqtisadiyyatın qeyri-neft sahələrinin artım tempini səciyyələndirən məlumatlar şəkil 6.58.-də təqdim edilmişdir.




*Şəkil 6.58. Azərbaycan Respublikasında qeyri-neft sektorunun artım tempi, faiz, 2003-cü illə müqayisədə. Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2018*

Şəkildən göründüyü kimi, 2004-cü ildən sonra Azərbaycan Respublikasında qeyri-neft sektoru yüksək sürətlə inkişaf etmişdir. Bu proses iqtisadiyyatın diversifikasiyasına yönəldilmiş dövlət siyasətinin nəticəsidir. Ölkədə xüsusi sənaye parklarının və sənaye məhəllələrinin yaradılması qeyd edilən siyasətin təzahürüdür. Sənaye parkları və sənaye məhəllələrində fəaliyyət göstərən təşkilatlara xüsusi vergi və gömrük imtiyazlarının verilməsi sənayenin sürətlə artması və şaxələnməsi üçün şərait yaratmışdır. Bu səbəbdən hazırda ölkəmizdə yeddi sənaye parkı və dörd sənaye məhəlləsi fəaliyyət göstərməkdədir. Bunlar Abşeron yarımadasının müxtəlif rayonlarında, Sumqayıt, Mingəçevir, Neftçala, Hacıqabul, Sabirabad, Masallı və digər regionlarda fəaliyyət göstərirlər. Sənaye parklarının və sənaye məhəllələrinin yaradılması inklüziv inkişafın vacib şərti kimi çıxış edir. Onların təşkili

iqtisadiyyatın genişlənməsini, əhalinin məşğulluğunun artmasını, gəlirlərin yüksəlməsini təmin edir. Bu isə, öz növbəsində, əhalinin sağlamlığına və uzunömürlülüyünə müsbət təsir göstərir. Məlum olduğu kimi, əhalinin sağlamlığı və uzunömürlülüyü inklüziv inkişaf edən cəmiyyətin vacib göstəricisidir. Bu göstəricilərdən inklüziv inkişaf əmsalının hesablanması zamanı da istifadə edilir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında sənayenin diversifikasiyası istehsalat və idarəetmə texnologiyalarının modernləşməsi şəraitində baş verir. Ümumiyyətlə, beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, ölkədə təbii və iqtisadi ehtiyatlar böyük səmərə ilə istifadə edilməkdədir. Bunu enerjinin səmərəli istifadəsi timsalında aydın müşahidə etmək olar. Enerjidən yüksək səmərə ilə istifadə, eyni zamanda yeni və effektiv idarəetmə texnologiyalarının mövcudluğundan da xəbər verir.

Beynəlxalq standartlara görə, hər hansı bir ölkədə, yaxud iqtisadiyyatın müəyyən sahəsində enerjidən səmərəli istifadənin vəziyyəti bir neçə üsulla müəyyən edilir. Onlardan biri və ən çox istifadə edilən üsul ölkə və ya müəssisədə, ***alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla,*** 1000 ABŞ dolları dəyərində məhsulun istehsalına, yaxud həmin dəyərdə təqdim edilən xidmətlərə sərf edilmiş enerjinin miqdarıdır. Enerji vahidi kimi 1 kq neftdə olan enerjinin miqdarı qəbul edilmişdir. Bir bareldə təxminən 136 kq neft olur və onun miqdarı müxtəlif yataqlardan alınmış neftin tərkibi və xüsusiyyətlərindən asılıdır. Ölkədə və ya sənayedə istifadə edilən enerji müxtəlif mənbələrdən alına bilər. Bu enerji atom və istilik elektrik stansiyalarında istehsal oluna bilər, yaxud günəş, külək və ya hər hansı bir digər vasitə ilə əldə edilə bilər. Buna baxmayaraq, müqayisəli qiymətləndirmələrdə enerji vahidi kimi 1 kq neftdə olan enerjinin miqdarı standart vahid kimi istifadə olunur.



*Göygöl Milli Parkı*



*Şahdağ Milli Parkı*

Enerji vahidi kimi 1 kq neftdə olan enerji miqdarının seçilməsinin əsas səbəbi ondadır ki, müəyyən vaxt kəsiyində neftin qiyməti bütün dünyada eynidir. Bu isə müxtəlif ölkələrdə enerjidən nə dərəcədə səmərəli istifadə olunmasını müqayisə etməyə şərait yaradır. Aydındır ki, eyni dəyərdə olan məhsul üçün daha az enerjinin sərfi istehsal olunan məhsulun və ya təqdim edilən xidmətin maya dəyərini aşağı salır. Nəticədə həmin məhsulun və ya xidmətin rəqabət qabiliyyəti artmış olur. Belə şəraitdə nisbətən az enerji sərf edən iqtisadi fəaliyyət daha səmərəli hesab edilir və ölkədə gəlirlər artır. Bu isə inklüziv inkişafın, bu prosesin uzunmüddətli və davamlı olmasının vacib şərtidir. Digər tərəfdən eyni iqtisadi və ya sosial məqsədə nail olmaq üçün az enerjinin sərfi zamanı atmosferə karbon qazı ($CO_2$) və digər iqlim dəyişmələrinə təsir edən qazlar daha az atılır. Bu isə beynəlxalq prioritet olan iqlim dəyişmələrinə təsirlərin azaldılması deməkdir. Bəlli olduğu kimi, karbon qazının atmosferə atılmasının azaldılması inklüziv inkişaf əmsalının hesablanması zamanı istifadə edilən göstəricilərdəndir.

Enerji istifadəsində yüksək səmərəliliyin olmasının digər üstünlükləri də mövcuddur. Məsələn, məlumdur ki, hazırda dünyada istifadə edilən enerjinin təxminən 78 faizi neftdən, qaz, kömür və digər bərpa olunmayan mənbələrdən alınır. Bu mənbələrdən alınan enerjidən səmərəli istifadə olunması onların daha uzaq gələcək üçün qorunmasına xidmət edir. Bu, öz növbəsində, inklüziv inkişafın vacib şərtidir.

Azərbaycan Respublikası inklüziv inkişaf naminə enerji səmərəliliyinin daim artırılmasına xüsusi diqqət yetirir. Bu, ölkədə enerji səmərəliliyinin artırılması dinamikasına dair beynəlxalq müqayisələrdən də aydın olur (şəkil 6.59.). Şəkildə təqdim edilmiş məlumatlar Dünya Bankı tərəfindən 2018-ci ildə dərc olunmuşdur.




*Şəkil 6.59. Azərbaycan Respublikası və dünyada (orta) 1000 ABŞ dəyərində ÜDM-nin istehsalına sərf edilən enerji.*
*Məlumat mənbəyi: Dünya Bankı, 2018*

Şəkildən göründüyü kimi, Azərbaycan Respublikasında 1990-cı ildə enerjidən istifadə səmərəliliyi dünyada qeyd edilən orta göstəricidən iki dəfə az idi. Eyni vəziyyət 2000-ci ildə də müşahidə edilirdi. Lakin Beynəlxalq Bankın məlumatlarına əsasən, artıq 2008-ci ildə Azərbaycanda enerjidən istifadənin səmərəliliyi orta dünya göstəricilərindən 30 faiz yüksək olub. Bu vəziyyət hazırda da davam etməkdədir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası enerjidən səmərəli istifadə göstəricilərinə görə keçmiş SSRİ ölkələri arasında liderdir. Bu, keçmişdə SSRİ-nin tərkibindəki, hazırda müstəqil olan Latviya, Litva və Estoniyaya da aiddir. Şəkil 6.60. bunun bariz təzahürüdür.

Qeyd edilməlidir ki, Azərbaycanda enerji səmərəliliyi keçmiş SSRİ-nin digər ölkələrinin göstəricilərini bir neçə dəfə üstələyir. Məsələn, Azərbaycan və Qazaxıstan




***Şəkil 6.60.*** *Keçmiş SSRİ ölkələrində 1000 ABŞ dolları dəyərində ÜDM-nin istehsalına sərf edilən enerji (kq, neft ekvivalenti). Məlumat mənbəyi: Dünya Bankı, 2018*

iqtisadiyyatlarının strukturu çox yaxındır. Hazırda Qazaxıstanın ümumdaxili məhsulunun həcmi Azərbaycandan yüksəkdir. Buna baxmayaraq, bizim ölkədə eyni həcmdə ümumdaxili məhsulun istehsalına Qazaxıstandakından iki dəfə az enerji sərf edilir. Bu o deməkdir ki, eyni iqtisadi nəticəni almaq üçün Qazaxıstan Azərbaycandan iki dəfə çox enerji sərf edir. Eyni zamanda atmosferə də iki dəfə çox istixana qazları atılır. Məlum olduğu kimi, atmosferə atılan qazların miqdarı inklüziv inkişafın göstəricilərindən biridir və inklüziv inkişaf indeksinin hesablanmasında istifadə edilir.

Azərbaycan Respublikasının iqtisadiyyatında neft və qaz sənayesi xüsusi əhəmiyyətə malikdir. Lakin ölkədə enerji səmərəliliyinin yüksək olması bu amillə əlaqədar deyil. Neft və qaz istehsal və ixrac edən ölkələrin enerji




***Şəkil 6.61.*** *Neft və qaz ixrac edən ölkələrdə 1 vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş məhsul və xidmətlərin dəyəri, ABŞ dolları, AQP nəzərə alınmaqla. Məlumat mənbəyi: Dünya Bankı, 2018*

səmərəliliyi göstəricilərinin müqayisəli təhlili bunu nümayiş etdirir. Bu təhlildə enerji səmərəliliyi fərqli üsulla müəyyən edilmişdir. Bu üsül Dünya Bankı və digər beynəlxalq təşkilatlar tərəfindən iqtisadi və ekoloji monitorinq zamanı geniş istifadə edilən bir üsuldur. Göstərilən üsulun mahiyyəti ondan ibarətdir ki, onun tətbiqi zamanı bir vahid enerjinin istifadəsi ilə istehsal olunan ÜDM-nin dəyəri müəyyən edilir. İstehsal olunmuş ümumdaxili məhsulun dəyəri ABŞ dolları ilə, sərf edilmiş enerji 1 kq neft ekvivalenti ilə dəyərləndirilir. Dünya Bankı ilə yanaşı, bu üsuldan bir çox ***beynəlxalq inkişaf institutları*** da istifadə edir. Şəkil 6.61.-də neft və qaz istehsal və ixrac edən ölkələrdə enerjidən istifadə səmərəliliyinin müqayisəli təhlili aparılmışdır.

Şəkil 6.61.-dən aydın olur ki, neft və qaz istehsal və ixrac edən ölkələrdə enerji səmərəliliyində fərqlər müşahidə olunmaqdadır. Bu fərqlər bəzi hallarda çox yüksəkdir. Bəzi ölkələrin iqtisadiyyatı bir vahid enerji sərfi müqabilində 3–4 ABŞ dolları dəyərində ÜDM istehsal edirsə, digər ölkələrdə bu göstərici bir neçə dəfə çoxdur (şəkil 6.61.). Bir vahid enerjinin istifadəsi ilə ən çox məhsul istehsal edən, yaxud xidmət göstərən Meksika, Azərbaycan və Norveçdir. Bir vahid enerjinin istifadəsi nəticəsində bu ölkələrdə 11 ABŞ dolları dəyərində ÜDM istehsal olunur. Məlumdur ki, bir bareldə təxminən 136 kq neft olur. Dünya bazarında bir barel neftin qiyməti 70 ABŞ dolları olarsa, onda bir kq neftin qiyməti təxminən 0,51 ABŞ dolları təşkil edir. Deməli, enerjiyə təxminən 0,5 ABŞ dolları sərf edən Meksika, Azərbaycan və Norveç hər biri ayrılıqda 11 ABŞ dolları dəyəri olan ÜDM istehsal edir. Müqayisələr göstərir ki, bu, çox yüksək nəticədir. Şəkil 6.61.-də təhlilə cəlb edilən digər neft və qaz ixrac edən ölkələrdə enerji səmərəliliyi aşağıdır. Eyni miqdarda enerji müqabilində bu ölkələr Azərbaycandan 2,5–3,5 dəfə az məhsul istehsal edirlər və xidmətlər göstərirlər. Bəlli olduğu kimi, təbii resurslardan, o cümlədən enerji mənbələrindən səmərəli istifadə inklüziv inkişafın vacib amilidir. Bu səbəbdən Azərbaycan Respublikasında müşahidə edilən yüksək enerji səmərəliliyi inklüziv inkişaf prosesinə müsbət təsir göstərən amil kimi qiymətləndirilə bilər. Yüksək enerji səmərəliliyi eyni zamanda ölkənin innovativ yolla inkişaf etməsindən xəbər verir.

Aydındır ki, istehsalat prosesinin təşkilinin maddi təminatı enerji təminatı ilə əlaqədar xərclərlə məhdudlaşmır. Sənaye, kənd təsərrüfatı və xidmət sahələrində istehsalat prosesini təmin etmək üçün bir çox digər xərclər də mövcuddur. Bu xərclərə müəssisə və təşkilatlarda, o cümlədən




*Şəkil 6.62.* *İqtisadiyyatın sənaye sahəsində çalışan işçilərin orta əmək haqqı, manat. Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2018*

istehsal sahələrində iş yerlərinin yaradılması və daimi təkmilləşməsi, xammal və avadanlıqların alınması və quraşdırılması, istehsal olunmuş məhsulun qorunması və satılması, işçilərin əməkhaqqlarının ödənilməsi və s. aiddir. Enerji ehtiyatlarının yüksək səmərə ilə idarə edilməsi digər istehsalat və idarəetmə sahələrinin də yüksək səviyyədə təşkil edilməsindən xəbər verir. Bu isə inklüziv inkişafın vacib şərtidir. Bu səbəbdən enerjidən səmərəli istifadə bütün digər sahələrin səmərəli idarə edilməsi barəsində fikir söyləməyə imkan verir.

Beləliklə, təqdim edilmiş məlumatlardan belə bir qənaət hasil olur ki, sənayenin diversifikasiyası və modernləşməsi davamlı inklüziv inkişafın ən vacib şərtlərindən biridir. Resursların, o cümlədən enerji ehtiyatlarının yüksək səmərə ilə idarə edilməsi istehsalat və idarəetmə sahələrində müasir texnologiyaların istifadəsindən xəbər verir.

## 6.4. İnklüziv inkişaf naminə aqrar sahənin inkişafı

Artıq qeyd edildiyi kimi, inklüziv inkişaf iqtisadi və sosial siyasətin elə bir üsuludur ki, o, ölkənin hərtərəfli inkişafını təmin edir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edirlər. Bu sahədə planlaşdırılan nailiyyətlər aqrar sahənin inkişafını nəzərdə tutur. Aqrar sahənin inkişafı isə ölkənin iqtisadi, sosial və mədəni inkişafının vacib şərtidir. Aqrar sahənin inkişafı inklüziv inkişafın yalnız iqtisadi təminatı ilə əlaqədar deyil. İnklüziv inkişafın vacib şərti olan kəndlərin və kiçik şəhərlərin inkişafı da bilavasitə aqrar sektorun səviyyəsindən asılıdır.

Aydındır ki, inklüziv inkişafın formalaşması və bu prosesin davamlılığının təmini üçün sənaye ilə yanaşı, aqrar




***Şəkil 6.63.*** *Azərbaycan Respublikasında kənd təsərrüfatında istehsal edilən məhsulun dəyərinin artım dinamikası, milyon manat. Məlumat mənbəyi: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2018*



*Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı*

sahənin vəziyyəti də çox önəmlidir. İqtisadi əhəmiyyəti ilə yanaşı, aqrar sahə, eyni zamanda kənd yerlərinin demoqrafik strukturunun optimal səviyyədə saxlanılmasına xidmət edir. Bu sahədə biliklərin formalaşması hazırkı dərsliyin məqsədlərindəndir. Azərbaycan Respublikasında bu istiqamətdə həyata keçirilən innovativ siyasət həmin biliklərin formalaşması üçün əhəmiyyətlidir.

Aqrar parkların yaradılması Azərbaycan Respublikasında aqrar sahənin inkişafının mühüm istiqamətlərindən biridir. Hazırda ölkənin 30 rayonunda 45 aqrar park yaradılıb. Bu aqrar parklarda müasir bitkiçilik və heyvandarlıq kompleksləri fəaliyyət göstərir. Ölkənin müxtəlif regionlarında




*Müasir aqropark*

yaradılmış, müasir avadanlıqlarla təchiz edilmiş logistik mərkəzlər də aqrar sahənin inkişafına xidmət edir. Logistik mərkəzlər, eyni zamanda kənd təsərrüfatı müəssisələrinə və fərdi fermerlərə müxtəlif texniki və texnoloji dəstək göstərir.

Aqrar sektorun inkişafına müasir istixana komplekslərinin inşası da təsir edib. Hazırda ölkənin müxtəlif bölgələrində sahələri böyük olan istixana kompleksləri yaradılmışdır. Bu komplekslər inklüziv inkişafa nail olmaq baxımından da əhəmiyyətlidir.

Qeyd edilməlidir ki, innovativ idarəetmə texnologiyalarının tətbiqi nəticəsində iqtisadiyyatın aqrar sektorunun səmərəliliyi artmışdır. Şəkil 6.63.-də bu artım nümayiş etdirilib. Şəkildə 2003-cü ildən başlayaraq, 2017-ci ilə qədər aqrar sahədə istehsal olunan məhsulun dəyərinin artım dinamikası təqdim edilmişdir. Şəkildən göründüyü kimi,

son 15 ildə ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının dəyəri 4,5 dəfə artmışdır. Aqrar sahənin inkişafı yeni iş yerlərinin yaranmasına, əhalinin gəlirlərinin artmasına, kənd yerlərində demoqrafik strukturun optimallaşdırılmasına xidmət edir.

Azərbaycan iqtisadiyyatında aqrar sektorun inkişafı yeni emal müəssisələrinin və logistik mərkəzlərin yaranması üçün şərait yaradıb. Kənd təsərrüfatı məhsullarının daşınması və satışı sahəsində məşğulluq artıb. Bu isə bir sıra demoqrafik və sosial problemləri həll etməyə imkan verir. Aqrar sektoru və kəndlərin inkişafı yüksək peşə sahiblərinin miqrasiya prosesini azaltdığına görə kənd yerlərində demoqrafik vəziyyət yaxşılaşıb. Məşğulluğun artması, gəlirlərin yüksəlməsi, iqtisadiyyatın diversifikasiyası, ümumiyyətlə, regional inkişaf inklüziv inkişaf göstəricilərinin yaxşılaşması üçün şərait yaradıb.

### *6.5. Sosial innovasiyalar inklüziv inkişafı sürətləndirən amil kimi*

Davamlı inklüziv inkişaf məqsədlərinə nail olunmasında sosial innovasiyalar mühüm rol oynayır. Azərbaycan Respublikasında ilk dəfə tətbiq edilən «ASAN xidmət» belə innovativ texnologiyalardandır. Ölkə Prezidenti İlham Əliyevin 2012-ci ilin iyul ayında imzaladığı fərmanla Azərbaycanda Sosial İnnovasiyalara dair Dövlət Agentliyi yaradıldı. Agentliyin tərkibində əhaliyə xidmət göstərən mərkəzlərin formalaşması prosesinə başlanıldı. «ASAN xidmət» mərkəzlərində vahid bir məkanda on dövlət təşkilatı və çox sayda fərdi sektor nümayəndələri əhaliyə xidmət göstərir. «ASAN xidmət» mərkəzlərində əhaliyə ümumi sayı 300-dən çox xidmət təqdim edilir. Mərkəzlərdə




*Şəkil 6.64. «ASAN xidmət» mərkəzlərinə müraciətlərin sayı, milyon*

şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, xarici pasportların verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, sahibkarlığa dair sənədlərin verilməsi və s. həyata keçirilir. Hazırda ölkədə 13 «ASAN xidmət» mərkəzi var. Onların 5-i Bakıda, digər «ASAN xidmət» mərkəzləri Gəncə, Sumqayıt, Sabirabad, Bərdə, Masallı, Qəbələ, Quba və Mingəçevirdə fəaliyyətdədirlər. Hər mərkəz gündə 1500-2000 nəfərə xidmət göstərir. «ASAN xidmət» mərkəzləri 2018-ci il üçün 23 milyondan çox insana xidmət göstərmişdir. 2018-ci ildə Şamaxı şəhərində «ASAN xidmət» mərkəzinin yaradılmasına dair qərar qəbul edilmişdir.

Şəkil 6.64.-də göründüyü kimi, «ASAN xidmət» mərkəzlərinə müraciətlər ilbəil artmaqdadır. Artıq qeyd edildiyi kimi, 23 milyon adam «ASAN xidmət» mərkəzlərinin xidmətlərindən istifadə edib. Qeyd etmək lazımdır ki, Azərbaycanın sosial innovasiyalar sahəsində irəli sürdüyü təşəbbüslər

geniş beynəlxalq dəstək qazanıb. 2015-ci ildə BMT-nin Baş Qərargahı Azərbaycanın «ASAN xidmət»ini xüsusi mükafatla təltif edib. Bu mükafat «Dövlət xidmətlərinin təkmilləşməsi» sahəsində fəaliyyət üçün verilib. Hazırda bəzi Avropa və Asiya ölkələri bu təcrübədən bəhrələnmək niyyətindədir.

«ASAN xidmət» mərkəzləri, eyni zamanda əhaliyə ən müasir səviyyədə xidmətlər göstərə bilən yeni nəsil dövlət qulluqçularının formalaşması mərkəzi kimi də çıxış edir. Bu məqsədə nail olmaq üçün «ASAN xidmət» mərkəzlərində gənclərdən təşkil olunmuş könüllülər fəaliyyət göstərirlər. Onlar əhaliyə müxtəlif sahələr üzrə sənədləşmələr zamanı köməklik göstərirlər. Hər il «ASAN xidmət» mərkəzlərində 2000 könüllü işə cəlb edilir. Xidmət mərkəzlərində fəaliyyət göstərən gənclər, eyni zamanda bu sahədə nəzəri biliklərini də artırırlar. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında «ASAN xidmət» könüllüləri üçün xüsusi məruzələr, seminarlar, dövlət xadimləri və alimlərlə görüşlər keçirilir.

### *6.6. Azərbaycan Respublikasının inklüziv inkişaf göstəricilərinin beynəlxalq müqayisəsi*

İnklüziv inkişaf nisbətən yeni anlayışdır və son illərdə xüsusi populyarlıq qazanmışdır. Bu onunla əlaqədardır ki, inklüziv inkişaf və onun gələcək nəsillər üçün davamlılığının təmini beynəlxalq cəmiyyət tərəfindən qlobal prioritet kimi qəbul edilmişdir. İnklüziv inkişaf insan cəmiyyəti tərəqqisinin elə yoludur ki, o, bəşəriyyət qarşısında duran iqtisadi, sosial və ekoloji problemləri optimal şəkildə həll edir. Həll olunası problemlər arasında əhalinin rifahının yüksəldilməsi, müxtəlif əhali qrupları arasında

müşahidə edilən gəlirlərdə kəskin qeyri-bərabərliyin aradan qaldırılması əsas yer tutur. Bunun üçün əhalinin məşğulluğunun artırılması vacib şərtdir. İnklüziv inkişafa mənfi təsir göstərən digər amil qlobal iqlim dəyişmələridir. Bu proseslərə nəzarət bəşəriyyətin qarşısında duran aktual problemdir. Uğurlu inklüziv inkişafın təmin edilməsində ölkənin xarici borcunun həcmi də çox önəmli göstəricidir. Bu, gələcək nəsillərin iqtisadi təhlükəsizliyi baxımından da vacibdir. Bütün bu göstəricilər inklüziv inkişaf əmsalını formalaşdıran göstəricilərdir.

İnklüziv inkişaf mövzusunun aktuallığını nəzərə alaraq, Davos Dünya İqtisadi Forumu müxtəlif ölkələrdə qeyd edilən göstəricilərlə bağlı vəziyyətin monitorinqini həyata keçirib. Aparılmış tədqiqatlar nəticəsində 2018-ci ilin yanvar ayında dünya ölkələrində inklüziv inkişafın vəziyyəti haqqında hesabat dərc edilib. Hesabatda dünya ölkələrində İnklüziv İnkişaf İndeksi haqqında məlumatlar göstərilib. Hesabata görə, dünyada inklüziv inkişaf sahəsində ən yüksək nəticələr Norveç tərəfindən qazanılıb. Bu ölkənin İnklüziv İnkişaf İndeksi (İİİ) 6,08 təşkil edir. Hesabatda təqdim edilmiş məlumatlara görə, inklüziv inkişafın ən aşağı səviyyəsi Mozambikdə müşahidə edilməkdədir. Bu ölkədə İİİ 2,47 təşkil edir. Bütün digər ölkələrin inklüziv inkişaf indeksləri qeyd edilən maksimum və minimum göstəricilər arasındadır.

Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan Respublikasında İİİ 4,69-a bərabərdir. Bu göstəriciyə görə, bizim dövlət keçid iqtisadiyyatına malik ölkələr arasında üçüncü yerdədir. Keçid iqtisadiyyatı vəziyyətində olan ölkələrdə davamlı inklüziv inkişafla bağlı vəziyyətin təsviri cədvəl 6.7.-də təqdim olunmuşdur. Cədvəldə yalnız Avropa İttifaqına üzv olan ölkələr haqqında məlumatlar nümayiş etdirilir. Bu ölkələrdən bəziləri isə «böyük iyirmiliyin» üzvüdür.

Cədvəldən göründüyü kimi, inklüziv inkişaf göstəricilərinə görə, Litva keçid iqtisadiyyatına malik ölkələr arasında birinci yerdədir. İqtisadi potensialına – adambaşı ümumdaxili məhsulun həcminə görə də bu ölkə göstərilən qrupda birincidir. Bu ölkənin hökuməti tərəfindən iqtisadi imkanlar düzgün qiymətləndirilib və səfərbər edilib. Nəticədə inklüziv inkişaf göstəricilərinə görə, Litva bu qrupda birinci yerdə qərarlaşıb. Macarıstan isə bu qrupda ikinci yerdədir.

***Cədvəl 6.7.*** Keçid iqtisadiyyatına malik bəzi ölkələrin iqtisadi və inklüziv inkişaf göstəriciləri

| Ölkə | İnklüziv inkişaf indeksi | İnklüziv inkişaf göstəricisinə görə tutduğu yer | İqtisadi potensiala görə (adambaşı ÜDM) tutduğu yer |
|---|---|---|---|
| **Litva** | 4,86 | 1 | 1 |
| **Macarıstan** | 4,74 | 2 | 4 |
| **Azərbaycan** | **4,69** | **3** | **26** |
| **Latviya** | 4,67 | 4 | 5 |
| **Polşa** | 4,61 | 5 | 2 |
| **Xorvatiya** | 4,48 | 7 | 6 |
| **Rumıniya** | 4,43 | 10 | 15 |
| **Bolqarıstan** | 4,41 | 11 | 18 |
| **Türkiyə** | 4,28 | 16 | 7 |
| **Rusiya** | 4,20 | 19 | 9 |

Qeyd etmək lazımdır ki, iqtisadi potensialına görə bu qrupda dördüncü yerdə olan Macarıstan mövcud və nisbətən məhdud iqtisadi imkanlarını səfərbər etməklə qrupda ikinci yerdə mövqeyini möhkəmlədib. Bu qrupda

iqtisadi potensialı ikinci olan Polşa isə inklüziv inkişaf əmsalına görə beşinci olub.

Dünya İqtisadi Forumunun hesabatında təqdim olunmuş məlumatlar arasında Azərbaycan Respublikasına aid məlumatlar xüsusi ilə diqqətəlayiqdir. Bizim ölkə mövcud olan iqtisadi imkanlardan daha böyük səmərə ilə istifadə edir. Adambaşına ÜDM hesablanarkən Azərbaycan Respublikasının iqtisadi potensialı bu qrupa daxil olan digər ölkələrlə müqayisədə heç də yüksək deyil. Bu göstəriciyə görə Azərbaycan Respublikası keçid iqtisadiyyatına malik ölkələr arasında 26-cı yerdədir. Buna baxmayaraq, inklüziv inkişaf göstəricilərinə görə Azərbaycan bu qrupda üçüncü olub. Qeyd edək ki, bu qrupda iqtisadi imkanları üçüncü olan Çili isə inklüziv inkişaf reytinqinə görə yalnız 9-cu yerdədir.

Təqdim olunmuş məlumatlar bir daha göstərir ki, inklüziv inkişaf sahəsində yüksək nəticələr qazanmaq üçün yalnız iqtisadi imkanların mövcudluğu kifayət deyil. İnklüziv cəmiyyətin formalaşması üçün tətbiq edilən idarəetmə texnologiyaları, onların innovativliyi bu istiqamətdə uğurların qazanılmasının əsas şərtidir. Bu sahədə bilik və bacarıqların formalaşması hazırkı dərsliyin əsas məqsədlərindəndir.

İnklüziv inkişafın idarə edilməsi sahəsində fundamental biliklərin artırılması və praktiki vərdişlərin gücləndirilməsi olduqca əhəmiyyətlidir. Bu sahədə biliklər əldə etmək üçün ölkələrin iqtisadi imkanları göstəricilərinin və inklüziv inkişaf əmsallarının müqayisəli təhlili də zəruridir.

Bu təhlillərin nəticələri şəkil 6.65.-də təqdim edilmişdir. Həmin şəkildə ölkələr iki qrupa bölünüb. Birinci qrupda təqdim olunmuş ölkələrin iqtisadi imkanları nisbətən yüksək, inklüziv inkişaf indeksləri isə nisbətən aşağıdır. Bunlar şəklin sol hissəsində yerləşdirilmişdir. Mötərizədə isə ölkənin iqtisadi imkanları və inklüziv inkişaf göstəriciləri arasındakı fərq verilmişdir. Məsələn, keçid iqtisadiyyatına




***Şəkil 6.65.*** *İnklüziv inkişaf indeksləri iqtisadi imkanlarından aşağı (solda) və yuxarı (sağda) olan ölkələr. Məlumat mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018*

malik ölkələr qrupuna aid olan Polşa öz iqtisadi imkanlarına görə bu qrupda ikinci yerdədir. Bu ölkədə adambaşına ÜDM yüksəkdir və həmin göstəriciyə görə Polşa yalnız Litvadan geridədir. Gözləmək olardı ki, bu ölkə inklüziv inkişaf indeksinə görə də ikinci yerdə ola bilər. Lakin 2018-ci ildə dərc edilmiş hesabat göstərir ki, Polşa bu göstəriciyə görə yalnız beşinci yerdədir. Deməli, bu ölkə şəklin sol hissəsində yerləşir və onun göstəricisi «-3» təşkil edir. Ümumiyyətlə, şəklin sol tərəfində o ölkələr göstərilmişdir ki, onların iqtisadi imkanları inklüziv inkişaf istiqamətində qazandıqları nailiyyətlərdən daha yüksəkdir. Belə ölkələrə misal olaraq ABŞ, Rusiya Federasiyası, Türkiyə, Kanada, İtaliya, Sloveniya və digər ölkələri göstərmək olar. Qeyd edilməlidir ki, şəklin sol tərəfində yerləşən ölkələrin çoxu iqtisadi baxımdan kifayət qədər zəngin ölkələrdir. Bu ölkələrdə inklüziv inkişaf göstəricilərinin onların iqtisadi imkanlarından aşağı olması həmin ölkələrdə inklüziv cəmiyyətin planlaşdırılmasına və idarə edilməsinə daha çox diqqət yetirməyin vacibliyinə işarədir.

Şəklin sağ tərəfində o ölkələrin adları çəkilir ki, onların inklüziv inkişaf sahəsində qazandıqları nailiyyətləri iqtisadi imkanlarından daha yüksəkdir. Məsələn, Azərbaycan öz iqtisadi imkanlarına, yəni adambaşına ÜDM-nin həcminə görə bu ölkələr qrupunda 26-cıdır. İnklüziv inkişaf indeksinə görə isə Azərbaycan həmin ölkələr arasında 3-cü yerdədir. Bu o deməkdir ki, Azərbaycan inklüziv inkişaf cəmiyyətinin formalaşmasına daha məsuliyyətlə yanaşıb. Bu səbəbdən Azərbaycan şəklin sağ hissəsindədir və onun göstəricisi «+23»-dür. Azərbaycanla yanaşı, bu qrupa Almaniya, Koreya Respublikası, Finlandiya, Çexiya və bir sıra başqa ölkələr daxildir.

Şəkil 6.65.-də təqdim edilmiş məlumatlar göstərir ki, iqtisadi və texnoloji imkanların geniş olması inklüziv inkişaf sahəsində yüksək nəticələrin əldə edilməsi üçün kifayət deyil. Belə ki, təhlil zamanı aydın olur ki, bu ölkələr arasında «böyük yeddilik» (G7) qrupuna daxil olan ABŞ, Yaponiya, Kanada və İtaliya vardır. Bu ölkələrin maddi və texnoloji imkanları yüksəkdir, onlar müasir bilik və bacarıqlara sahib olan insan potensialına malikdirlər. Bu, eyni dərəcədə «böyük iyirmiliyə» (G20) daxil olan Hindistan, Polşa, Argentina və bəzi digər ölkələrə də aiddir.

Artıq bəlli olduğu kimi, bir qrup ölkələr də mövcuddur ki, onların inklüziv inkişaf indeksi adambaşına gəlirə görə reytinqindən yüksəkdir. Bu qrupa Çexiya, Almaniya, Koreya Respublikası, Macarıstan, Peru və bəzi digər ölkələr daxildir. Lakin bu istiqamətdə ən yüksək nəticələr Azərbaycan Respublikasında qeyd edilmişdir. Bu ölkə iqtisadi imkanlarına görə keçid mərhələsində olan ölkələr arasında 26-cı yerdə, inklüziv inkişaf göstəricilərinə görə isə 3-cü yerdədir. Bu yüksək nəticənin əldə edilməsi ilk növbədə inklüziv inkişafın idarə edilməsi sahəsində biliklərin mövcudluğuna və bu biliklərin dövlət qulluqçuları tərəfindən düzgün istifadəsinə əsaslanır. İnnovativ idarəetmə texno-

logiyalarının tədrisi, eyni zamanda hazırkı dərsliyin də məqsədlərindəndir. İnnovativ idarəetmə texnologiyaları, o cümlədən ***sinergetik, komplementar*** və ***kompensasion*** texnologiyalar kompleksi Azərbaycan Respublikasında ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə istifadə edilməkdədir. Bu təşəbbüs elə bir şərait yaratmışdır ki, Azərbaycan Respublikası minimal maddi vəsaitlərin istifadəsi, onların ən optimal yollarla idarə edilməsi sayəsində inklüziv cəmiyyətin qurulması sahəsində ən yüksək nəticə əldə etmişdir.

Məlumdur ki, Azərbaycan Respublikası keçid iqtisadiyyatına malik olan ölkələr qrupuna daxildir. Lakin inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində Azərbaycanın əldə etdiyi yüksək nəticələr digər qruplara daxil olan ölkələrlə də müqayisələr üçün şərait yaradır. Azərbaycanın inklüziv inkişaf göstəriciləri yüksək gəlirlərə malik olan, o cümlədən «böyük yeddilik» (G7) və İƏİT üzvü olan ölkələrlə də müqayisə edilə bilər.

## *6.7. «Böyük yeddilik» (G7), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin və Azərbaycan Respublikasının inklüziv inkişaf indekslərinin müqayisəsi*

Hazırkı dərsliyin bölmələrində təqdim olunmuş məlumatlardan aydın olur ki, inkişaf proseslərinin idarə edilməsi sahəsində müasir biliklərin mövcudluğu, onları tətbiq etmək bacarığı davamlı inklüziv inkişafın təmin edilməsinin vacib şərtidir. Yüksək iqtisadi imkanlar uğurlu inklüziv inkişaf üçün vacib şərt olsa da, şəkil 6.65.-dən göründüyü kimi, bəzi ölkələrdə müşahidə edilən inklüziv inkişaf əmsalları onların iqtisadi imkanlarına uyğun deyil. Məsələn, adambaşına gəlirə görə ABŞ iqtisadiyyatı yüksək inkişaf

etmiş ölkələr arasında 9-cu yerdədir. İnklüziv inkişaf indeksinə gəldikdə isə, ABŞ bu ölkələr qrupunda 23-cü yerdədir (-14). Buna oxşar digər misal Yaponiyaya aiddir. Adambaşına gəlirə görə Yaponiya yüksək gəlirləri olan ölkələr arasında 14-cü yerdədir. İnklüziv inkişaf indeksinə görə Yaponiya həmin ölkələr arasında 24-ci yerdədir (-10). Azərbaycan isə əksinə, iqtisadi imkanlarına görə keçiddə olan ölkələr arasında 26-cı yerdə olsa da, inklüziv inkişaf indeksinə görə 3-cü yerdədir (+23). İqtisadi göstəriciləri və inklüziv inkişaf indeksləri arasında müsbət balans, həmçinin Çexiya (+13), Koreya Respublikası (+8), Yeni Zenlandiya (+5), Finlandiya (+4), Almaniya (+4) və bəzi digər ölkələrdə də müşahidə edilməkdədir.

Elə ölkələr də mövcuddur ki, onların adambaşına gəlir göstəriciləri və inklüziv inkişaf indeksləri üst-üstə düşür. Məsələn, adambaşına düşən gəlirlərə görə Fransa iqtisadiyyatı yüksək inkişaf etmiş ölkələr arasında 18-ci yerdədir. İnklüziv inkişaf indeksinə görə də bu ölkə 18-cidir. Danimarka və İsveç də eyni durumdadırlar. Danimarka iqtisadi cəhətdən inkişaf etmiş ölkələr arasında adambaşına gəlirlərinə görə 5-ci yerdədir. Bu ölkə inklüziv inkişaf indeksinə görə də həmin qrupun 5-cisidir. Eyni vəziyyət İsveçdə də müşahidə edilməkdədir. Bu ölkə iqtisadiyyatı yüksək inkişaf etmiş ölkələr arasında həm adambaşına gəlirlərə, həm də inklüziv inkişaf indeksinə görə 6-cı yerdədir. Bu isə o deməkdir ki, bu ölkələr öz iqtisadi imkanlarını inklüziv inkişaf naminə tam səfərbər edə biliblər. Bu, həm maliyyə vəsaitlərinə, həm də insan potensialına aiddir.

Beləliklə, aydın olur ki, mövcud olan iqtisadi ehtiyatların davamlı inklüziv inkişaf naminə səfərbər olunması və səmərəli istifadəsinə görə dünya ölkələri üç qrupa ayrılırlar (şəkil 6.66.).

Qeyd edilməlidir ki, hazırda dünya ölkələri böyük səylə öz iqtisadi imkanlarını davamlı inklüziv inkişaf naminə




***Şəkil 6.66.** İqtisadi imkanların inklüziv inkişaf namina müxtəlif səviyyədə idarə edilməsi*

səfərbər edirlər. Şəkil 6.67.-də inklüziv inkişaf üçün iqtisadi imkanlarını müxtəlif səviyyədə səfərbər edən ölkələrin nisbəti əks olunub.

Şəkil 6.67.-də «0» qrupa o ölkələr daxil edilib ki, onların adambaşına gəlirlərə görə reytinqi inklüziv inkişaf indeksinə görə reytinqi ilə üst-üstə düşür. Şəkildən göründüyü kimi, onlar keçid mərhələsində olan ölkələrin 11,5 faizini təşkil edir.

İkinci, «mənfi» kimi qəbul edilmiş qrupa elə ölkələr aiddir ki, orada adambaşına gəlirlərin göstəriciləri inklüziv inkişaf indekslərindən yüksəkdir. Bu elə ölkələrdir ki, mövcud olan iqtisadi imkanlar müvafiq səviyyədə inklüziv cəmiyyətin formalaşması üçün səfərbər olunmamışdır. Keçid iqtisadiyyatı ölkələri arasında bu qrup 37,1 faiz təş-




***Şəkil 6.67.*** *İnklüziv inkişaf üçün iqtisadi imkanlarını müxtəlif səviyyədə istifadə edən ölkələrin nisbəti, faiz (izahat mətndə)*

kil edir. Üçüncü qrupa daxil olan ölkələrdə inklüziv inkişaf indeksləri adambaşına gəlir göstəricilərindən yüksəkdir. Bu qrupda təmsil olunmuş ölkələrin sayı daha çoxdur. Onlar iqtisadiyyatı keçid mərhələsində olan ölkələrin 51,3 faizini təşkil edir.

Təqdim olunmuş təhlillərdən bəlli olur ki, gəlirlər reytinqləri ilə inklüziv inkişaf reytinqlərinin müqayisəsi ölkələrdə inklüziv inkişafın vəziyyətini qiymətləndirmək üçün vacib vasitədir. İnklüziv inkişafın planlaşdırılması, idarə edilməsi və monitorinqi prosesində bu üsuldan istifadə edilməsi çox vacibdir.

Azərbaycan Respublikasında iqtisadi imkanların çoxtərəfli olması, bu proseslərin əhalinin rifahının yüksəldilməsinə yönəldilməsi üçün məqsədli siyasət həyata keçirməkdədir. Ölkənin inklüziv inkişaf indeksi bunu sübut edir. Bu, Azərbaycanın inklüziv inkişaf göstəricilərinin iqtisa-

diyyatı yüksək inkişaf etmiş ölkələrlə müqayisəsi üçün şərait yaradır. Şəkil 6.68.-də Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf indekslərinin «böyük yeddilik» və İƏİT qrupuna daxil olan ölkələrlə müqayisəsi təqdim edilib.

Şəkildən göründüyü kimi, Azərbaycanın inklüziv inkişaf indeksi 4,69-a bərabərdir. Bu iqtisadi inkişaf etmiş ölkələr arasında 23-cü nəticədir. Müqayisə üçün qeyd etmək olar ki, bu rəqəm ABŞ üçün 4,60-a bərabərdir. Müvafiq olaraq, Yaponiya 4,53, İspaniya 4,40, İtaliya 4,31, Portuqaliya 3,87 indekslərinə malikdirlər.

Artıq qeyd edildiyi kimi, Azərbaycan inklüziv inkişaf indeksinə görə iqtisadiyyatı keçid mərhələsində olan ölkələr arasında 3-cü yerdədir. Azərbaycan bu göstəriciyə görə bir sıra Avropa İttifaqı ölkələrini, o cümlədən Polşa, Latviya, Xorvatiya, Bolqarıstan, Rumıniya və digərlərini




***Şəkil 6.68.*** *Azərbaycan Respublikası və iqtisadi inkişafda yüksək nəticələr əldə etmiş ölkələrin inklüziv inkişaf indeksləri. Məlumat mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018*

üstələmişdir. Azərbaycanın inklüziv inkişaf indeksi bir sıra sürətli inkişaf edən və «böyük iyirmiliyə» (G 20) daxil olan ölkələrdən yüksəkdir. Bu ölkələr arasında Çin, Hindistan, Braziliya, Cənubi Afrika, Türkiyə də var. Bu ölkələrin iqtisadi imkanları Azərbaycanınkından yüksəkdir. Bu onu göstərir ki, dünya üçün prioritet olan davamlı inklüziv inkişaf məqsədlərinə nail olmaq üçün müasir bilik və bacaracıqlar xüsusi əhəmiyyət daşıyır. Hazırkı bölmədə təqdim olunmuş biliklər bu məqsədə xidmət edir.

## *6.8. Özümüzü sınayaq: sual və tapşırıqlar*

1. Enerji istifadəsi səmərəliliyi nədir və bu prosesin monitorinqi necə həyata keçirilir?
2. Azərbaycan Respublikasında enerji sərfi səmərəliliyini keçmiş SSRİ ölkələrinin göstəriciləri ilə müqayisə edin.
3. Azərbaycan Respublikasında enerji sərfi səmərəliliyini «böyük iyirmiliyə» daxil olan ölkələrin göstəriciləri ilə müqayisə edin.
4. Azərbaycan Respublikasında enerji sərfi səmərəliliyini neft və qaz istehsal və ixrac edən ölkələrin göstəriciləri ilə müqayisə edin.
5. Sənaye parkları, sənaye məhəllələri nədir və onların inklüziv inkişafda rolu nədən ibarətdir?
6. Azərbaycanda aqrar sahənin əsas inkişaf istiqamətləri hansılardır?
7. Ölkənin inklüziv inkişaf indeksi iqtisadi statusu ilə necə əlaqəlidir? Misallar gətirin.
8. Azərbaycanın inklüziv inkişaf indeksi keçid iqtisadiyyatına malik olan ölkələrlə müqayisədə necədir? Müqayisəli bilgiləri sadalayın.
9. Azərbaycanın inklüziv inkişaf indeksini yüksək iqtisadi göstəricilərə malik ölkələrin inklüziv inkişaf indeksləri ilə müqayisə edin.

**URKHAN ALAKBAROV**
***Fundamentals of Inclusive Development Management***
*(Textbook for tertiary schools)*

## Executive Summary

### Introduction

This text book examines the need for inclusive development as an essential element to address modern economic, social, ecologic and humanitarian challenges. In accordance with the assessments of international development institutions the Republic of Azerbaijan has achieved a significant progress in managing sustainable inclusive development.

According to the estimates of international organizations held in 2018, the indicators of inclusive development of Azerbaijan are higher than those of the more economically developed countries, members of the G 7, the European Union, the Organization for Economic Cooperation and Development. In the Republic of Azerbaijan, this achievement is attributed to the use of innovative technologies in the management of development processes. Based on this premise, the textbook aims to bring into a unified framework theoretical knowledge and practical experience of management of inclusive development to ensure the sustainability of this process.

### Chapter 1. Specific features of societal governance at various stages of human development and inclusive development opportunities

The first chapter describes that humanity throughout its history has sought to ensure the improvement of its living conditions. At early stages of development of mankind, when the main occupation of people was hunting, fishing, gathering, all the obtained resources were divided equally. This can already be considered as signs of inclusiveness, achieved under the pressure of survival needs. At all subsequent stages of the development of mankind, contradictions in

the society grew proportionally to its stratification based on wealth and legal status. Today's level of development of society and resources the society has at its disposal creates a legal, economic, social and technological basis for inclusive development.

**Chapter 2. Sustainability and inclusiveness of the development process as factors of global risk management**

The chapter describes the challenges that mankind has faced at the present stage of civilization. The challenges that humanity has faced in the preindustrial, industrial and post-industrial phases of societal development are also discussed in the textbook. At the heart of these challenges several negative processes are identified and described as development without a future, development without equality and development with a technological lag. These processes, aggravated by the environmental degradation, including global climate change, find a solution in sustainable development as a basis for inclusive development. The chapter provides information on the sustainable development goals and their implementation in terms of inclusive development.

**Chapter 3. Basic principles and indicators of inclusive development**

The information in this section is aimed at building knowledge about indicators that characterize inclusive development. The chapter discusses 12 indicators which characterize the state of the economic and social base of sustainable inclusive development. Effects on global climate change are also among these indicators. The dynamics of changes in these indicators in different countries is analysed. The chapter assesses the significance of each indicator for inclusive development.

**Chapter 4. Modern technologies for management of inclusive development**

The information presented in this chapter is aimed at building knowledge on technologies for managing development processes

that are capable of ensuring the process of inclusive development with optimal use of material and human resources. It is shown that the method of combined use of synergistic, complementary and compensatory technologies can accelerate the process of forming an inclusive society and increase the efficiency of resource use.

### Chapter 5. Inclusive development of the Republic of Azerbaijan

According to the Report on the state of inclusive development in the world, published in 2018 by the Davos World Economic Forum, the index of inclusive development of Azerbaijan is higher than that of a number of economically more developed countries. The chapter develops knowledge about the strategy for achieving this result due to the accelerated development of the economy, increasing the efficiency of the use of energy and other resources, significantly reducing greenhouse gas emissions into the atmosphere, and improving social policy. It is pointed out that the basis for all these achievements is the policy of the formation and development of human potential in the country.

### Chapter 6. Comparative assessment of inclusive development of the Republic of Azerbaijan

This chapter discusses technologies for managing inclusive development based on economic diversification, social innovation and environmental initiatives. Comparison of indicators of inclusive development of the Republic of Azerbaijan with the countries of the Group of Seven, the European Union and OECD is presented. According to the data of the international development institutions published in 2018, the inclusive development indexes of Azerbaijan exceed similar indicators of such countries as the USA, Japan, Italy, Spain, Greece, Poland, etc. Knowledge is formed on how, in the conditions of relatively limited material resources, one can successfully plan and implement policies that ensure a high level of inclusive development.

## *Information about author*

***Urkhan Alakbarov, Academician, Prof., Dr.***, Rector of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan. Dr. U.Alakbarov has a distinguished career as a scientist and development expert, with specific focus on integration of natural, economic, social and political components into the overall approach to environment management. The author of the concept of ecological civilization (1998), based on the «green» mentality (integrating demography, and culture of consumption), and a «green» economy. With an academic background in this field, Professor Alakbarov served as a vice-president and director of institutes of the National Academy of Sciences of Azerbaijan. He also has a long record of working in various capacities with UN agencies (UNESCO, UNDP, and UNICEF) since 1985. Dr. U.Alakbarov is a member of various international committees, advisory councils, steering committees and editorial boards of journals, based in USA, Great Britain, Netherlands, France, Turkey and other countries. He presented lectures and seminars on sustainable development and ecological civilization planning and management in various international development institutions including UNDP (NY), the World Bank (Washington), EBRD (London) and universities around the world: Michigan University, Kansas University, Rutgers University, Jackson State University, Lehigh

University, Columbia University, Texas University (USA), Stockholm University (Sweden), Anadolu University, Chukurova University (Turkey), Greifswald University (Germany), Tel-Aviv University (Israel) and many others. Professor Alakbarov has published over 320 articles and scientific works and authored 32 books, including world's first textbooks on sustainable human development for secondary schools. Quotes by academician Urkhan Alakbarov about the processes happening around the world, are published regularly together with quotes from Mahatma Gandhi, Bill Gates; Barak Obama, Jimmy Carter, Ban Ki-Moon and other known people.

## TERMİNLƏR LÜĞƏTİ

**Alıcılıq qabiliyyəti pariteti, AQP** *(Purchasing Power Parity)* – Müxtəlif ölkələrdə eyni mal və xidmətlərin qiymətlərində olan fərqi əks etdirir və müvafiq əmsalla göstərilir. AQP əmsalı Dünya Bankı tərəfindən qəbul edilmiş 500-dən çox mal və xidmətlərin cəmi olan istehlak səbətinin müxtəlif ölkələrdə qiymətlərinin müqayisəsi əsasında hesablanır. Məsələn, bəzi Asiya və Afrika ölkələrində 1 ABŞ dollarına başa gələn mal və xidmət ABŞ-da 15 dollara, Qərbi Avropada isə 20 ABŞ dollarına istehsal olunur. Ölkələrdə adambaşına düşən gəlir beynəlxalq sənədlərdə, bir qayda olaraq, AQP nəzərə alınmaqla verilir. AQP nəzərə alınmaqla təqdim edilən ABŞ dolları bəzən «beynəlxalq ABŞ dolları» kimi təqdim edilir. Beynəlxalq təşkilatların hesabatlarında gəlirlər, o cümlədən adambaşına gəlirlər, əsasən, ABŞ dolları və AQP-ni nəzərə almaqla verilir. Belə standartlaşmış yanaşma beynəlxalq müqayisələri həyata keçirmək və ölkədə əhalinin real iqtisadi vəziyyəti haqqında məlumat almaq imkanı üçün əhəmiyyətlidir.

**Areal** *(Areal)* – Hər hansı bir canlı, o cümlədən insanın, yayılma ərazisi. İbtidai cəmiyyət şəraitində insanların yayılma ərazilərinə də aid edilə bilir.

**Bioloji müxtəliflik, biomüxtəliflik** *(Biological diversity, biodiversity)* – Müxtəlif mühitlərdə (su, hava, torpaq, yer səthi və s.) yaşayan canlıların bütün növləri nəzərdə tutulur. Biomüxtəliflik termini beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş rəsmi termindir. BMT-nin və digər qlobal miqyasda inkişafa dəstək verən təşkilatların hazırladığı biomüxtəlifliyə aid sənədlərdə, o cümlədən beynəlxalq konvensiyalarda canlı aləmin bütün nümayəndələrinin qorunması praktiki cəhətdən və eyni zamanda etik və estetik baxımdan da vacib hesab edilir.

**BMT-nin Baş Assambleyası** *(UN General Assembly)* – BMT-nin əsas 6 rəhbər qurumlarından biridir. Yeganə bir qurumdur ki, orada bütün ölkələr eyni səviyyədə təmsil olunmuşlar: bir ölkə – bir səs. Hər il sentyabr ayında bütün ölkələrin nümayəndələri

növbəti Baş Assambleyada iştirak üçün Nyu-York şəhərinə gəlirlər. 2018-ci ilin sentyabr ayında keçirilmiş Baş Assambleyanın 70-ci Yubiley sessiyası dünya üçün əsas prioritetlərdən olan davamlı inkişafa həsr olunmuşdur.

**«Böyük yeddilik», Yeddilər qrupu, G7** *(Group of seven, G7)* – Dünyanın aparıcı iqtisadiyyatlar qrupu. Qrupa Böyük Britaniya, Almaniya, İtaliya, Kanada,ABŞ, Fransa və Yaponiya daxildir. Beynəlxalq qurum deyil, daimi katibliyi, proqram nizamnaməsi yoxdur. Yeddilər qrupunun sammitləri növbə ilə iştirakçı ölkələrdən birində keçirilir. Həmin sammitlərdə ümumi siyasət müzakirə edilir və razılaşdırılır.

**«Böyük iyirmilik», G20** *(Group of Twenty, G20)* – Avropa İttifaqının bütün üzvləri və dünyanın aparıcı iqsadiyyatlara malik olan ölkələri: Almaniya, ABŞ, Avstraliya, Argentina, Braziliya, Böyük Britaniya, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Meksika, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Türkiyə, Fransa, Cənubi Koreya, CAR və Yaponiyanı birləşdirən bir ittifaqdır. Hazırda dünyada istehsal olunmuş ÜDM-nin 85 faizi və dünya ticarətinin 75 faizi bu təşkilatda cəmlənmişdir. Dünya əhalisinin üçdə ikisi bu ölkələrdə məskunlaşıb.

**Cini İndeksi (Əmsalı)** *(Gini İndex (coefficient)* – Ölkə daxilində gəlirlərin ayrı-ayrı şəxslər və yaxud ev təsərrüfatları arasında ədalətli paylanmasını xarakterizə edir. Bu əmsalın qiyməti 0 (gəlirlərin paylanmasında tam bərabərlik) və 100 (gəlirlərin paylanmasında kəskin qeyri-bərabərlik) arasında dəyişə bilər.

**Davamlı inkişaf məqsədləri** *(Sustainable Development Goals)* – 2015-ci ilin sentyabrında BMT Baş Assambleyası və Dünya Sammitində qəbul edilmişdir. Bu sənəddə 2030-cu ilədək yoxsulluğun və qeyri-bərabərliyin ləğvi, təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi kimi problemlərin həlli, bunun üçün insan potensialının formalaşdırılması, bilik və texnologiyaların intensiv ötürülməsi və digər 17 məqsəd müəyyən edilib.

**Əmək bazarı** *(Labor market)* – işçi qüvvəsinə təklif və tələbatın formalaşdığı yerdir. Burada işçi qüvvəsinin müəyyən müd-

dətə satışı gerçəkləşdirilir. Əmək bazarı – işçi qüvvəsinin normal və fasiləsiz təkrar istehsalı prosesini və əməyin effektli istifadəsini təmin edən norma və institutlar, cəmiyyətdə sosial-iqtisadi və hüquqi münasibətlər sistemidir.

**Ətraf mühit və sosial sahəyə təsirlərin qiymətləndirilməsi** *(Environmental and Social Impact Assessment)* – Planlaşdırılan iqtisadi fəaliyyətin ətraf təbii mühitə və sosial sahəyə təsirini qiymətləndirən sənəddir.

**Gələcəksiz inkişaf** *(Development without future)* – İlk dəfə BMT tərəfindən təklif edilib və inkişaf prosesində müşahidə edilə bilən mənfi tendensiyaların qarşısının alınmasına yönəlib. Davamlı inkişafdan fərqli olaraq, gələcəksiz inkişaf planlaşdırma və idarəetmənin elə bir üsuludur ki, o, əsasən, çağdaş nəsillərin maraqlarına xidmət edir, onların tələblərinin təmin olunmasını nəzərdə tutur. Bu arada gələcək nəsillərin imkanları məhdudlaşır. Belə qüsurlu planlaşdırma və idarəetmə prinsipləri bir çox hallarda nəinki gələcək nəsilləri, hətta çağdaş nəsillərin inkişaf perspektivlərini də nəzərə almır.

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İƏİT** *(Organization for Economic Co-operation and Development, OECD)* – Demokratiya və bazar iqtisadiyyatı prinsiplərini rəhbər tutan inkişaf etmiş ölkələrin dövlətlərarası təşkilatıdır. 1960-cı ildə təsis edilib. Hazırda təşkilatın 37 üzvü fəaliyyətdədir.

**İnklüziv inkişaf** *(Inclusive development)* – «inclusive» – əhatə edən mənası daşıyan anlayışdan əmələ gəlib. İnklüziv inkişaf ölkə tərəqqisinin elə bir yoludur ki, bütün istiqamətləri əhatə edir. İnklüziv inkişafın nəticələrini bütün vətəndaşlar hiss edir. 21-ci əsrin əsas prioritetidir.

**İnsan inkişafı Əmsalı (İİƏ )** *(Human Development İndex)* – İnsan potensialının inkişafı əmsalı kimi də məlumdur. Bu anlayış və termin 1990-cı ildə Pakistan alimi Məhbub Ül Həq və onun rəhbərlik etdiyi ekspertlər qrupu tərəfindən təklif edilmişdir. Həmin ildən BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dünyanın müxtəlif qitə və ölkələrində inkişafın səviyyəsini müqayisəli qiymətləndirmək üçün istifadə olunur. İİƏ inkişafı

insan amili əsasında qiymətləndirmək imkanı yaradır. Əmsalın hesablanmasında üç qrup göstəricidən istifadə olunur: sağlamlıq, təhsil və gəlir. Əmsalın qiyməti 0-dan başlayır və maksimum 1 olur. 2013-cü ildə İİƏ-nin maksimal səviyyəsi Norveçdə (0,965), minimal isə Nigerdə (0,304) qeydə alınmışdır. Azərbaycan Respublikası 2010-cu ildən insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil olmuşdur. Bu tarixə qədər ölkə insan inkişafında orta nəticələr əldə etmiş qrupa aid edilirdi.

**İstixana qazları** *(Greenhouse gases)* – Atmosferin alt qatında günəşin istiliyinin toplanmasını şərtləndirən və qlobal iqlim dəyişmələrinə təsir göstərən qazlardır. Beynəlxalq statistikada kəmiyyət göstəricisi kimi adambaşı bir il ərzində atmosferə atılan karbon qazının ($CO_2$) miqdarı ilə müəyyən edilir. Atmosferə atılan qazların innovativ texnologiyalar əsasında idarə edilməsi göstəricisi kimi ölkədə alıcılıq qabiliyyəti nəzərə alınmaqla 1 ABŞ dolları dəyərində olan ÜDM-nin istehsalı zamanı atmosferə atılan $CO_2$ miqdarı ilə müəyyən edilir. Atmosferdə $CO_2$-nin miqdarının artmasının səbəbi bu qazın daha çox ətraf mühitə tullanması və Yer kürəsində meşələrin sahələrinin azalmasıdır. İnklüziv inkişafın indeksinin hesablanmasında istifadə olunur.

**Komplementarlıq, komplementar texnologiyalar** *(Complementarity, Complementary technology)* – ayrı-ayrılıqda götürülən faktorların fəaliyyətinin sadə cəminin üstünlüyü ilə səciyyələnən iki və ya daha çox faktorun xüsusiyyətlərinin qarşılıqlı uyğunluğudur. Bütün iştirakçıların maraq və potensialını nəzərə alaraq, inkişaf prosesinin idarəetməsində komplementar texnologiyalar səmərəliliyin artmasını təmin edir.

**Kvintil nisbət** *(Quintile ratio)* – Kvintil əmsalı *(latınca – quinta – beşdə bir sözündən əmələ gəlir)* hər hansı bir ölkə və ya ərazidə 20% ən zəngin sakinlərin və ya ev təsərrüfatlarının orta gəlirinin 20% ən yoxsul sakinlər qrupunun və ya ev təsərrüfatlarının orta gəlirinə nisbətidir. Sosial vəziyyətin göstəricisidir. Rəqəmlərin aşağı olması güclü sosial siyasətdən xəbər verir. Beynəlxalq təşkilatlar tərəfindən dünyada ən aşağı rəqəmlər Şimali Avropa

ölkələrində, ən yüksək rəqəmlər isə Afrika və Cənubi Amerika ölkələrində qeydə alınmışdır. Beynəlxalq qurumların bilgilərinə görə, Azərbaycan Respublikasında bu göstərici «böyük yeddilik» (G7) ölkələri və bir çox Avropa Birliyi dövlətlərinin orta göstəricilərindən yaxşıdır.

**Qeyri-bərabərlik** *(İnequality)* – Müxtəlif ölkələrin vətəndaşları və ölkə daxilində müxtəlif kateqoriyalar arasında istehlak və gəlirlərdə kəskin qeyri-bərabərlik nəzərdə tutulur. Ölkə daxilində qeyri-bərabərlik Cini indeksi, Kvintil nisbət və s. kimi sosial göstəricilərlə xarakterizə edilir.

**Qeyri-bərabər inkişaf** *(Development without equality)* – Termin BMT tərəfindən təklif edilmişdir və inkişafda müşahidə edilən mənfi tendensiyaların səciyyələndirilməsi üçün istifadə olunur. Bir və yaxud müxtəlif ölkələrin vətəndaşları arasında gəlir və istehlakda böyük fərqlərin olmasını göstərir. Cini indeksi, Kvintil nisbəti, Palma göstəriciləri əsasında qiymətləndirilir. İnklüziv inkişafa mənfi təsir göstərən amildir.

**Median gəlir** *(İncome median)* – Median gəlir (əməkhaqqı) əhali və ya ev təsərrüfatlarının gəlirlərini iki eyni sayda qruplara bölən bir göstəricidir. Ölkə, ərazi və yaxud hansısa peşə sahibləri üçün hesablana bilər. Məsələn, hər hansı bir peşə sahiblərinin median gəliri hər hansı bir valyuta ilə 500-ə bərabərdisə, bu o deməkdir ki, həmin peşə sahiblərinin tam yarısı bu məbləğdən çox, yarısı isə bu məbləğdən az gəlir əldə edir. Eyni üsulla hər hansı bir ölkə və ya ərazidə əldə edilən median gəlir müəyyən edilir. Bu statistik göstəricinin istifadəsi orta gəlir (əməkhaqqının) vəziyyətinin tam reallıqla əks etdirilməsi səbəbindən təklif edilmişdir.

**Mütləq yoxsulluq** *(Absolute poverty, abject poverty)* – Bir neçə tərifi məlumdur. Ən müasir və daha çox yayılmış tərifə görə, mütləq yoxsulluq insanların əsas tələbatlarının təmin olunmaması, o cümlədən qida, təmiz içməli su, tibbi xidmət, təhsil və məlumat almaq imkanlarından məhrum olunmasıdır. Müasir anlamda yoxsulluq yalnız gəlirlərin az olması deyil, eyni zamanda bəzi əsas xidmətlərə əlçatmazlıq deməkdir.

**Nisbi yoxsulluq** *(Relative poverty)* – Hər hansı bir ərazi, fərd və yaxud fərdlər qrupu üçün səciyyəvi həyat standartının həmin qrupa aid olan fərd və yaxud fərdlər üçün təmin edilməsinin mümkün olmaması.

**Pandemiya** *(Pandemic)* – Qitə və yaxud qlobal miqyasda yayılmış yoluxucu xəstəliyin epidemiyası. Bəşəriyyətin tarixində pandemiya demoqrafik proseslərə təsir göstərən amil kimi dəyərləndirilir.

**Sinergizm, sinergetik texnologiyalar** *(Synergism, synergistic technology)* – qarşılıqlı fəaliyyətdə olan amillərin (faktorların) nəticə etibarı ilə hər birinin ayrılıqda fəaliyyətinin sadə cəminin əhəmiyyətli dərəcədə üstünlüyü ilə səciyyələnən, iki və ya daha çox faktorun effektliliyinin artması prosesidir. Sinergetik texnologiyalar inkişaf prosesinin idarəetməsində təbii, maddi və insan resurslarının istifadəsinin optimallaşdırılmasının hesabına iqtisadi, sosial və ekoloji proqramlara cəlb olunmuş tərəfdaşların fəaliyyətinin səmərəliliyini artırır.

**Texnoloji geriləmə ilə inkişaf** *(Development with technology lag)* – Hər hansı bir ölkə və ya region üçün yeni texnologiyalar tətbiq edilir, həmin texnologiyalar bu məkan üçün yenidir, lakin perspektivdə yüksək rəqabət qabiliyyətinə malik deyillər. Texnoloji geriləmə ilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqlərin aradan qaldırılmasını əngəlləyən amillərdəndir. Bu növ gələcəksiz inkişafın qarşısının alınmasında elm, insan potensialı xüsusi əhəmiyyət daşıyır.

**Təkamül** *(Evolution)* – Tədricən baş verən keyfiyyət dəyişiklikləri ilə xarakterizə edilən inkişaf. Canlı varlıqların istənilən növünün, o cümlədən insanın inkişafına aiddir. Təkamül termini istənilən prosesin, həmçinin cəmiyyətin inkişafına şamil oluna bilər.

**Ümumi daxili məhsul (ÜDM)** *(Gross Domestic Product, GDP)* – Ölkədə vətəndaşlar və qeyri-vətəndaşlar tərəfindən yaradılmış, daxili və xarici tələbatların ödənilməsinə yönəldilmiş məhsul və xidmətlərin məcmusu. Bir il ərzində hər hansı bir ölkədə adambaşına düşən ÜDM iqtisadi inkişaf səviyyəsinin göstəricisi kimi beynəlxalq statistikada istifadə olunmaqdadır.

**Ümummilli məhsul** *(Gross National Product, GNP)* – Ölkənin daxilində və onun hüdudlarından kənarda milli iqtisadiyyata mənsub olan iqtisadi vahidlərdə bir il ərzində istehsal edilmiş son məhsulların və xidmətlərin bazar dəyərinin toplusudur. Məlum olduğu kimi, Azərbaycan Respublikası digər ölkələrə yatırımlar edir və həmin ölkələrdə iqtisadi fəaliyyət gerçəkləşdirir. Bu müəssisələrin istehsal etdiyi məhsul və xidmətlərin dəyəri Ümummilli məhsula (ÜMM) daxildir.

**Yaşıl həyat tərzi və yaşıl davranış** *(Green life style and green behaviour)* – Davamlı inkişaf tələblərinə cavab verən həyat tərzi. İnsan və ya insan qrupu könüllü qəbul edir. İqtisadi fəaliyyətə və həyat tərzinə aiddir. Dünyada genişlənən yaşıl hərəkatın bir hissəsidir.

**Yaşıl iqtisadiyyat** *(Green economy)* – Son 20 ildə iqtisadiyyat elmi çərçivəsində formalaşmış istiqamətdir. Bu istiqamətin təmsilçilərinə görə, iqtisadiyyat təbii mühitin komponentidir, onun hüdudlarında mövcuddur və ayrılmaz tərkib hissəsidir. Yaşıl iqtisadiyyat konsepsiyası iqtisad və fəlsəfə elmlərinin bir çox başqa istiqamətlərinin ideyalarını özündə cəmləşdirib. Yaşıl iqtisadiyyat nəzəriyyəsi 3 aksioma əsaslanir:

- Məhdud məkanda təsir dairəsini sonsuza qədər genişləndirmək mümkün deyil;
- Resursların məhdudluğu şəraitində daim artan tələbatların təmin olunmasını tələb etmək mümkün deyil;
- Yer səthində hər şey əlaqəlidir.

## MÜNDƏRİCAT

Müəllifdən ....................................................................3
Giriş ...............................................................................6

**1. Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində cəmiyyətin idarə edilməsi xüsusiyyətləri və inklüziv inkişafın imkanları**

1.1. Bölmənin məqsədi........................................................10
1.2. Açar söz və anlayışlar ..................................................10
1.3. Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində inklüziv inkişaf potensialı..........................................11
1.4. İnsan cəmiyyətinin inkişafının əsas mərhələləri .......12
1.5. Sənayeləşməyə qədərki cəmiyyətin inklüziv inkişaf potensialı.........................................................16
1.6. Sənayeləşmə cəmiyyətinin inklüziv inkişaf potensialı.........................................................19
1.7. Postsənaye cəmiyyətinin inklüziv inkişaf potensialı ...................................................................21
1.8. Cəmiyyətin inkişafının hazırkı mərhələsində müşahidə edilən mənfi tendensiyalar .........................24
1.9. İnklüziv inkişafa qlobal çağırışlar...............................28
1.10. Özümüzü sınayaq: sual və tapşırıqlar......................31

**2. Davamlı inkişaf qlobal risklərin idarə edilməsində əsas faktor kimi**

2.1. Bölmənin məqsədi........................................................34
2.2. Açar söz və anlayışlar ..................................................35
2.3. İnkişaf prosesinin idarə edilməsində müasir tendensiyalar...................................................35
2.4. Davamlı inkişaf konsepsiyasının formalaşması və tətbiqi ...............................................37
2.5. Davamlı inkişaf naminə qlobal forumlar....................38
2.6. Davamlı inkişaf məqsədləri ........................................48

2.7. İnklüziv inkişaf: yoxsulluqda bərabərlikdən rifahda bərabərliyə........50
2.8. Özümüzü sınayaq: sual və tapşırıqlar........56

**3. İnklüziv inkişafın xüsusiyyətləri və əsas göstəriciləri**

3.1. Bölmənin məqsədi........58
3.2. Açar söz və anlayışlar........59
3.3. Davamlı inklüziv inkişafın əsas göstəriciləri və indikatorları
*3.3.1. İnklüziv inkişaf göstəricilərinin əsas qrupları........59*
*3.3.2. Ümumdaxili məhsul inklüziv inkişaf amili kimi........62*
*3.3.3. Əhalinin məşğulluğu inklüziv inkişaf indikatoru kimi........65*
*3.3.4. Əhalinin ömür müddəti davamlı inklüziv inkişaf indikatoru kimi........67*
3.4. İnklüziv inkişafın sosial indikatorları
*3.4.1. İnklüziv inkişafın sosial indikatorlarının ümumi təsnifatı........70*
*3.4.2. Yoxsulluqla mübarizə inklüziv inkişaf indikatoru kimi........72*
*3.4.3. Gəlirlərin paylanması inklüziv inkişafın indikatoru kimi........74*
*3.4.4. Median gəlirlər inklüziv inkişaf indikatoru kimi........79*
3.5. İnklüziv inkişaf prosesinin davamlılığını səciyyələndirən indikatorlar
*3.5.1. İnklüziv inkişafın davamlılığını səciyyələndirən göstəricilərin ümumi təsnifatı........82*
*3.5.2. Xarici borcun həcmi........84*
*3.5.3. Demoqrafik asılılıq davamlı inklüziv inkişafın göstəricisi kimi........86*
*3.5.4. Qlobal iqlim dəyişmələrinə təsir davamlı inklüziv inkişafın göstəricisi kimi........89*

3.6. İnklüziv inkişaf indeksi ....................................................94
3.7. Özümüzü sınayaq: sual və tapşırıqlar..........................96

**4. İnklüziv inkişafın idarə edilməsində müasir texnologiyalar**

4.1. Bölmənin məqsədi............................................................98
4.2. Açar söz və anlayışlar ......................................................99
4.3. İnklüziv inkişafın formalaşmasında
müxtəlif amillərin rolu ..................................................100
4.4. İnklüziv inkişaf edən cəmiyyətdə təbii
ehtiyatların rolu .............................................................102
4.5. İnklüziv cəmiyyətin formalaşmasında
maliyyə resurslarının rolu.............................................107
4.6. İnsan inkişafı inklüziv inkişafın amili kimi .............112
4.7. İdarəetmə texnologiyalarının inklüziv
inkişafın təşkilində əhəmiyyəti ....................................114
4.8. İnklüziv inkişaf məqsədlərinin formalaşması..........118
4.9. İnklüziv inkişafın idarə edilməsində
innovativ texnologiyalar...............................................124
4.10. İnklüziv inkişafın idarə edilməsində
sinergetik texnologiyalar ...........................................126
4.11. İnklüziv inkişafın idarə edilməsində
komplementar texnologiyalar ...................................129
4.12. İnklüziv inkişafın idarə edilməsində
kompensasion texnologiyalar....................................131
4.13. Özümüzü sınayaq: sual və tapşırıqlar.....................134

**5. Azərbaycan Respublikasının inklüziv inkişafı**

5.1. Bölmənin məqsədi..........................................................136
5.2. Açar söz və anlayışlar ....................................................137
5.3. Azərbaycan Respublikasının inklüziv
inkişafının ümumi indikatorları..................................137
5.4. Azərbaycan Respublikasının inklüziv
inkişafına təsir göstərən iqtisadi
indikatorların formalaşması ........................................141

5.5. Azərbaycan Respublikasında yoxsulluğun azalması inklüziv inkişafın amili kimi ......................146
5.6. İnsan potensialının inkişafı inklüziv inkişafın amili kimi ....................................................149
5.7. Əhali arasında gəlirlərin paylanması ....................... 152
5.8. Median və modal gəlirlər inklüziv inkişaf göstəriciləri kimi ............................................156
5.9. Ölkənin xarici borcu davamlı inklüziv inkişafın indikatoru kimi ..........................................159
5.10. Əhalinin demoqrafik strukturu inklüziv inkişaf riski kimi ........................................160
5.11. Qlobal iqlim dəyişmələrinə təsirlərin azalması davamlı inklüziv inkişafın amili kimi.....162
5.12. Özümüzü sınayaq: sual və tapşırıqlar.....................167

**6. Azərbaycan Respublikasının inklüziv inkişafının müqayisəli qiymətləndirilməsi**

6.1. Bölmənin məqsədi.......................................................170
6.2. Açar söz və anlayışlar ................................................171
6.3. Sənayenin diversifikasiyası və inklüziv inkişaf.........................................................................171
6.4. İnklüziv inkişaf naminə aqrar sahənin inkişafı ................183
6.5. Sosial innovasiyalar inklüziv inkişafı sürətləndirən amil kimi .............................................186
6.6. Azərbaycan Respublikasının inklüziv inkişaf göstəricilərinin beynəlxalq müqayisəsi.....................188
6.7. «Böyük yeddilik» (G7), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin və Azərbaycan Respublikasının inklüziv inkişaf indekslərinin müqayisəsi ..........................................194
6.8. Özümüzü sınayaq: sual və tapşırıqlar.......................199

Executive summary...........................................................200
Information about author..................................................203
Terminlər lüğəti ...............................................................205

*Urxan Kazım oğlu Ələkbərov*
İNKLÜZİV İNKİŞAFIN İDARƏ
EDİLMƏSİNİN ƏSASLARI
*(Ali məktəblər üçün dərslik)*
Bakı, «Təhsil», 2018.

Nəşriyyat redaktoru ***Aida Quliyeva***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatı ***Səadət Quluzadə***
Üz qabığı ***Təhmasib Mehdiyev***
Korrektoru ***Pərvin Quliyeva***

Çapa imzalanmışdır 29.11.2018. Kağız formatı $60x90^1/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 13,5.
Sifariş 185. Tiraj 500.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC-nin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: tahsil_az@yahoo.com